

# Azərbaycanda məişət zorakılığı qurbanlarına dəstəyin gücləndirilməsi

## *Layihə tərəfindən məişət zorakılığı göstəriciləri, istiqamətləndirmə qaydaları, risk qiymətləndirilmə alətləri və məişət zorakılığı ilə bağlı məhkəmə işlərinin aparılması üzrə Avropa standartlarına dair işlənib hazırlanmış kitabça*

*Vilnüs, 2021*

*Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə Monitorinq Qrupları, sosial işçilər, aidiyyatı dəstək mərkəzlərinin əməkdaşları, tibb işçiləri, məktəb müəllimləri və psixoloqları, məhkəmə hakimləri, polis əməkdaşları və məişət zorakılığı ilə məşğul olan digər mütəxəssislər üçün nəzərdə tutulub.*

Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

*Tvinninq İstinad Nömrəsi:*
*AZ/16/ENI/JH/01/19(55)*

*Bu nəşr Avropa İttifaqının maliyyə yardımı ilə hazırlanmışdır. Onun məzmununa görə "Azərbaycanda məişət zorakılığına məruz qalan şəxslərin təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi üçün dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin imkanlarının gücləndirilməsi" adlı Tvinninq layihəsi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul edilə bilməz.*

*Benefisiar qurum*

*Layihəni icra edən təşkilatlar*

Ministry of Social Security and Labour of the Republic of Lithuania

# Mündəricat

**Qurumlararası əməkdaşlıq** / **5**

**Mütəxəssislər üçün məişət zorakılığı göstəriciləri** / **7**
Təhsilverənlər üçün tövsiyələr / 7
Zorakılığın formaları və zorakılığın müəyyən edilməsi üçün göstəricilər / 8
Səhiyyə işçiləri üçün tövsiyələr / 15
Zərərçəkmiş şəxslə sorğu-sual və açıqlama / 16
Polis əməkdşları üçün tövsiyələr / 19
Qurbanla müsahibənin aparılması / 19
Şübhəli şəxslə müsahibənin aparılması / 19
Uşaqlarla müsahibənin aparılması / 20
Məişət zorakiliğini müəyyən etmək üçün polis əməkdaşlari üçün tövsiyələr və mümkün zorakiliq şübhəsi olduğu halda görülməli tədbirlər / 21

**Risk qiymətləndirmə alətləri** / **37**
Risk qiymətləndirməsi üzrə milli modelin tətbiqinə dair tövsiyələr / 37
Dəlillərə əsaslanan risk faktorlarının siyahısı / 40
Qurbanın risk qiymətləndirməsi formasının nümunəsi / 43

**Hakimlər üçün məişət zorakılığı qurbanlarına hüquqi və psixoloji yardım üzrə tövsiyələr** / **45**
Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) seçilmiş məhkəmə işlərinə ümumi baxış / 48
Məhkəmə icraatı / 50
İlkin prosedur məsələləri və istintaq / 51
Sübutlarla bağlı məsələlər / 53
Hüquq müdafiəsi vasitələri / 55
Hökmün cıxarılması və hökmlərin icra edilməsi / 56

**Məişət zorakılığı halları ilə işin psixoloji aspektləri** / **59**
Təkrar viktimizasiya və prosessual ədalət / 62
Təkrar viktimizasiyanın qarşısını almaq üçün məişət zorakılığı qurbanları ilə ünsiyyətin prinsipləri / 62



Əziz oxucular,

Bugün bütün cəmiyyələrdə çox təəssüflər olsun ki, məişət zorakılığı hallarına rast gəlinir. Zorakılıq cəmiyyəti korroziya kimi dağıdır, ciddi mənəvi-psixoloji zərbə vurur. Azərbaycan Respublikasında məişət zorakılığı və gender bərabərliyi sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi və yeni normativ hüquqi aktların qəbul edilməsi bu sahələrdə müsbət nəticələrin əldə edilməsinə səbəb olmuşdur. Bununla belə dünyanın bir çox ölkələrində olduğu kimi, ölkəmizdə də bu problemlə hələ də üzləşirik. Cəmiyyətimizdə zorakılığa yer yoxdur və ona hər hansı bir haqq qazandırmaq mümkün deyildir. Məişət zorakılığı ilə mübarizədə əsas vasitələrdən biri də maarifləndirmə və qabaqlayıcı tədbirlərin həyata keçirilməsidir. Buraya bu istiqamətdə çalışan mütəxəssislərin beynəlxalq təcrübə nəzərə alınmaqla bilik və bacarıqlardan düzgün istifadə olunması və tətbiq edilməsi daxildir.

Beynəlxalq təcrübə əsasında hazırlanmış bu materialda mütəxəsisslər üçün tövsiyələr, risk qiymətləndirmə vasitələri, eləcə də məişət zorakılığından əziyyət çəkən şəxslərə hüquqi və psixoloji yardım haqqında məlumatlarla tanış ola bilərsiniz.

Əminəm ki, bu material iş və fəaliyyətinizdə sizlər üçün faydalı olacaqdır.

Bu işin ərsəyə gəlməsində Litva və Avstriyadan olan həmkarlarımıza təşəkkürümüzü bildiririk.

**Sədaqət Qəhrəmanova**
*Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini*



Hörmətli oxucular!

Bu kitabçada siz məişət zorakılığı qurbanlarının dəstəklənməsi ilə bağlı praktiki modellər və müasir qabaqcıl təcrübələrlə tanış ola biləcəksiniz. Burada məzmun istiqamətləndirmə mexanizmlərinin addımlarına uyğun şəkildə təqdim olunur. Kitabçanın başlanğıcındakı fəsillərdə məişət zorakılığının müəyyən edilməsi üzrə təlimatlar yer alıb və təhsil işçiləri, səhiyyə işçiləri, polis əməkdaşları və yerli icra hakimiyyəti orqanlarının mütəxəssisləri üçün nəzərdə tutulub. Sonrakı fəsillər hadisədən sonrakı təhqiqat prosesi və zərərçəkmişə dəstəyin göstərilməsi mərhələsindən bəhs edir. Nəhayət, sonuncu fəsillər məhkəmə prosesləri zamanı hakimlər üçün faydalı ola bilər. Litva və Avstriya adından Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşlarına bu kitabçanın hazırlanmasında sıx əməkdaşlığa görə minnətdarlığımı bildirirəm.

**Laurynas Totoraitis**
*Rezident Tvinninq Müşaviri*



Məişət zorakılığı mürəkkəb və çoxşaxəli bir məfhumdur və uşaq, qardaş, bacı, həyat yoldaşı və ya qocaya qarşı zorakılığı ehtiva edir. Onun sərhədləri yoxdur və bütün cəmiyyətlərdə mövcuddur. Lakin bu anlayış müxtəlif cəmiyyətlərdə müxtəlif cür başa düşülür və zərərçəkmişlərə yardım və zərəryetirənlərlə iş müxtəlif cəmiyyətlərdə fərqli şəkildə təşkil oluna bilir. Ümid edirik ki, pedaqoqlar, sosial işçilər, tibb işçiləri, polis əməkdaşları, yerli icra hakimiyyəti orqanlarının mütəxəssisləri məişət zorakılığı ilə iş sahəsində kitabçada əksini tapmış praktiki tövsiyələrdən yaralanacaq və gündəlik fəaliyyətlərində istifadə edə bilcəklər. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşlarına və bütün Tvinninq layihəsinin komandasına yorulmaz səylərinə və əldə olunmuş nəticələrə görə minnətdarlığımı bildirirəm.

**Audra Mikalauskaitė**
*Layihə rəhbəri*

# Qurumlararası əməkdaşlıq

Çoxsaylı Qurumlar arasında Risk Qiymətləndirməsi üzrə Konfrans (QRQK), yerli polis əməkdaşları, səhiyyə işçiləri, uşaqların müdafiəsi ilə məşğul olan qurumlar, mənzil təminatı mütəxəssisləri, məişət zorakılığı üzrə müstəqil məsləhətçilər, probasiya qurumu, eləcə də dövlət və qeyri-dövlət sektorlarının digər mütəxəssisləri üçün baş vermiş yüksək riskli məişət zorakılığı halları ilə bağlı məlumatların paylaşılması üçün təşkil olunan bir platformadır. Məişət zorakılığı qurbanlarının müdafiəsinin təşkili zamanı qurbanyönümlü yanaşmanın tətbiqi vacibdir. Yerli icra hakimiyyətlərinin nəzdindəki gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə Monitorinq Qrupları bu cür əməkdaşlıq üçün bir platformadır.

**QRQK-ın məqsədi:**

— Bir ərazidə yüksək riskli halların, xüsusilə məişət zorakılığı hallarının artması və ya azalmasının nəzərdən keçirilməsi
— Qurbanların və onların ailəsinin mühafizəsini təmin etmək
— Cinayətkar və qurbanla işlə bağlı bir çox imkanların nəzərdən keçirilməsi və qərar verilməsi

**QRQK (Qurumlararası Risk Qiymətləndirmə Konfransı) nə dərəcədə effektivdir?**

İlkin təhlillər göstərir ki, QRQK və İDVA (Məişət zorakılığı üzrə müstəqil məsləhətçi) xidməti tərəfindən müdaxilədən sonrakı dövrdə məişət zorakılığına məruz qalmış insanların 60%-ə qədəri daha hər hansı zorakılıq halı barədə məlumat vermirlər.

**QRQK -da təhlükəsizlik planlaşdırması nəticəsində hansı növ tədbirlər görülə bilər? Bu, qurbanlara praktik baxımdan necə kömək edə bilər?**

QRQK-a ünvanlanan bütün hallar yüksək riskli hallar olduğundan koordinasiyalı fəaliyyətin planlaşdırılması qurbanlarla bağlı risklərin azaldılması və digər ailə üzvlərinin, xüsusilə də uşaqların təhlükəsizliyinin gücləndirilməsinin vacib bir yoludur. Hər bir hal fərqli olduğundan, QRQK -da iştirak edən qurumların nümayəndələri hər bir halı müzakirə edərək buna uyğun olaraq müvafiq tədbirlər görürlər. Görülən tədbirlər bir çox hallarda buradakı qurumların nümayəndələrinin normal gündəlik vəzifə səlahiyyətləri daxilində olur.

Səciyyəvi tədbirlər aşağıdakıları əhatə edə bilər:

— **Polis:** qurbanın evinin "barama nəzarəti" (polisin, qonşuların, ailə üzvlərinin nəzarət işinə cəlb oldunduğu bir sxem) altına alınması; lazım olduqda cinayətkara qarşı əlavə tədbirlərin görülməsi; nəzarətin gücləndirilməsi; həyəcan siqnalının təmin edilməsi.
— **Səhiyyə:** səhiyyə işçilərinin alınmış xəsarətlər barədə məlumatlılığın artırılması;
— qurbanın təcavüzkardan ayrılmasının təmin edilməsi və beləcə onun təcavüzkarın iştirakı olmadan səhiyyə mütəxəssisləri tərəfindən müayinə edilməsi.
— **Məişət zorakılığı üzrə müstəqil məsləhətçi:** (MZ üzrə Müstəqil Məsləhətçi): QRQK-ın tədbirləri barədə qurbana məlumat vermək; qurbana davamlı dəstəyin verilməsi; qurbanlarla görüşlərdə iştirak etmək; qurbana yeni mənzil və təhsil imkanları tapmaqda kömək etmək; bütün qurumlar arasında davamlı koordinasiya və əlaqənin olması; davamlı risk qiymətləndirməsi; QRQK-a təkrar viktimizasiya ilə bağlı rəy verilməsi; qurbanlara hüquqi yardım axtarmağa kömək edilməsi.
— **Uşaqlar və Gənclər üzrə Xidmətlər**: QRQK tərəfindən baxılan məişət zorakılığı işlərində uşaqların uyğun olaraq ilkin qiymətləndirilməsini həyata keçirmək; ailəyə əlavə dəstək vermək; uşaqların və yeniyetmələrin psixi sağlamlıq xidmətlərinə istiqamətləndirilməsini təmin etmək.
— **Mənzil:** Alternativ yaşayış yerlərinin tapılmasında kömək etmək; mənzil müavinəti və evsizliyə dair müraciətlərə baxılması; ev əmlakında təhlükəsizlik cihazlarının tətbiqi.
— **Təhsil:** Uşaqları effektiv şəkildə dəstəkləmək üçün müvafiq işçilərlə məlumat mübadiləsi; təhsil nailiyyətlərini və davranış problemlərini monitorinq etmək.
— **Probasiya:** Hökm öncəsi hesabat yazmaq üçün QRQK -dan alınan məlumatların istifadə edilməsi.

- **Yetkin yaşlı şəxslər üçün xidmətlər:** Həssas insanlarla iş qrupuna və / və ya qeyri-hökumət sektorunun xidmətinə istiqamətləndirmələr etmək, məsələn, "Age Concern" təşkilatı.
- **Sığınacaq:** yaşayış yeri təmin etmək; qurbana davamlı dəstək vermək.
- **Narkotik və alkoqol qrupu:** Mütəxəssis xidmətlərinə və dəstəyə sürətli əlçatanlıq imkanı. Fəaliyyətlərə görə məsuliyyət hər bir agentliyin üzərinə düşür, beləliklə şəffaflıq və hesabatlılıq vacibdir.

# Mütəxəssislər üçün məişət zorakılığı göstəriciləri

## Təhsilverənlər üçün tövsiyələr

Uşaq hər cür zorakılığın hər hansı formasından zərər çəkmiş olur. Hər uşaq yaşadığı zorakılığa fərqli reaksiya göstərir, bu səbəbdən yaşanan zorakılığın uşağın əqli sağlamlığı və psixososial inkişafı üzərindəki uzunmüddətli nəticələri fərqli ola bilər. Nəticələrin ciddiliyi aşağıdakı amillərdən asılıdır:

1. uşağın yaşı, cinsi, fərdi şəxsiyyət xüsusiyyətləri;
2. cinayətkarın şəxsi xüsusiyyətləri, uşaq ilə qohumluq əlaqəsi (məs., ana, ata, baba, ögey ata, əmi);
3. Başqalarının zorakılığa reaksiyaları və münasibətləri (məs., uşağın zorakılıq faktını uydurduğu bildirilir, "bu ağıllı ailədə zorakılıq ola bilməz" və ya "heç kim uşaqlıqda döyülmədən böyüməyib" deyərək şiddətə bir norma olaraq yol verildiyi ifadə edilir.

**Müxtəlif yaşda olan uşaqlar zorakılığa fərqli reaksiya göstərirlər:**

1. Məktəbəqədər təhsili alan uşaqlar ('məktəbəqədər uşaqlar') məhdud idrak, emosional və davranışı idarəetmə bacarıqlarına görə ağrılı həyat vəziyyətlərinə uyğunlaşmaqda çətinlik çəkirlər və zorakılıq vəziyyətlərini məhdud şəkildə anlayırlar (məsələn, bir adam zorakılıq göstərir, lakin uşaq hələ də onun tərk edib getməməsini (ayrılmamasını), birlikdə yaşamasını istəyir və onlara müqavimət göstərmək iqtidarında deyildir. Uşaqların mümkün reaksiyaları: emosional durğunluq, narahatlıq, panika, qıcıqlanma və ya qəzəb partlamaları, qısa müddətli yaddaş problemləri, passiv və ya reqresif davranış, psixosomatik qarın ağrısı, baş ağrısı, yuxusuzluq;

2. Kiçik məktəb yaşındakı uşaqlar getdikcə inkişaf edən idrak qabiliyyətləri, duyğuların və davranışların ləng tənzimlənməsi sayəsində zorakılıq vəziyyətini daha yaxşı başa düşə və uyğunlaşa bilirlər. Onlar qorxu və günahkarlıq hissi, böyüklərə inamsızlıq (etimadsızlıq), təcavüzkar bir insana qarşı ziddiyyətli hisslər keçirir, depressiv əhval-ruhiyyədə olur, obsesiv düşüncələr yaşayır və ya evdə zorakı vəziyyətlərə şahidlik edirlər, müxtəlif fəaliyyətlərdə (öyrənmə, idman) konsentrasiya və diqqəti toplama çətinlikləri ilə üzləşirlər. Təhsil nailiyyətləri tez-tez azalmış olur, psixosomatik qarın və baş ağrısından tez-tez şikayətlər edilməsi mümkündür, aqressiv davranış, yaşıdlarından uzaqlaşma da mümkündür. Uşaqlar aqressiv davrana, həmyaşıdlarına uyğunlaşmaya bilərlər.

3. Özlərini zorakı bir ailə mühitindən uzaqlaşdıra bilən, təhqir (zorakılıq) edən bir insanla ünsiyyət qurmamağa cəsarət edən uşaqlar, evdən / məktəbdən qaça bilərlər və öz mühitlərində də zorakılıq etməyə başlaya bilərlər. Ailə zorakılığı şəraitində yaşayan yeniyetmələr ətrafdakılara qarşı şəfqətsizlik göstərə bilər, öz hərəkətlərinə görə məsuliyyətdən yayına bilər, antisosial davranışlarında, alkoqol və ya narkotik maddə istifadəsində və mümkün cinayət əməllərində artım meylləri yaşaya bilərlər.

Bir uşaq zorakılığa birbaşa məruz qalmırsa, ancaq zorakılığın olduğu bir mühitdə yaşayırsa və zorakı davranış görürsə, o, zorakılığın fiziki, zehni, ruhi, mənəvi cəhətdən zərərli təsirlərini yaşayır.

Bir uşağın yaxın mühitdə yaşadığı zorakılıq müxtəlif yollarla özünü göstərə bilər - birbaşa şikayətlər və ya davranışdakı dəyişikliklər, emosional reaksiyalar, başqaları ilə kommunikasiya əlaqəsinin pozulması.

Məktəb işçilərinin məişət zorakılığı əlamətləri gördükdə ayıq-sayıq, diqqətli, həssas və qayğıkeş olması vacibdir.

# Zorakılığın formaları və zorakılığın müəyyən edilməsi üçün göstəricilər

Uşaqlara qarşı dörd növ zorakılıq mövcuddur: fiziki, psixoloji, cinsi və baxımsızlıq[1]. Uşağa qarşı zorakılığın bir növü baş verə bilər, lakin psixoloji zorakılıq və ya baxımsızlıqla birlikdə uşağa qarşı fiziki zorakılıq kimi bir neçə növün birləşməsi ən çox yayılmış formadır. Məişət zorakılığı bir deyil, bir neçə meyar üzrə müəyyən edilə bilər, bu səbəbdən məişət zorakılığı kriteriyalarının cəm şəklində qiymətləndirilməsi vacibdir.

**Fiziki zorakılıq aşağıdakı formalarda baş verə bilər:**

1. yumruq vurma, döymə, təpik vurma, itələmə;
2. döymə, şillə vurma, müxtəlif əşyalarla vurma (əl, kəmər, ayaqqabı və s.);
3. silkələmə, çimdikləmə, cırma, dişləmə;
4. saçı və ya qulaqları arxadan dartma;
5. boğulma, işgəncə (məsələn, isti və ya soyuqda uzun müddət yöndəmsiz vəziyyətdə durmağa məcbur etmək; uşağın ağzını sabunla yumaq və s.);
6. qaranlıqda qapalı bağlama və saxlama (məs., zirzəmi, tualet və s.);
7. yanma (siqaretlə yandırma izləri), bədəndəki digər qızdırılmış əşyalarla yanma yerləri, isti su ilə yandırma, aclıq;
8. silahlardan və ya digər zərərli əşyalardan istifadə, yəni uşağın fiziki ağrı hiss etməsinə səbəb olan alət;
9. uşağın ağrı hissinə, zərər çəkməsinə səbəb olan və ya həyatını, sağlamlığını, şərəf və ləyaqətinin inkişafını təhlükəyə atan qəsdən törədilən fiziki hərəkətlər.

Fiziki zorakılıq bir dəfə baş vermiş hadisə və ya uzunmüddətli bir fəaliyyət ola bilər. Fiziki zorakılığın səbəb olduğu fiziki xəsarət yüngül sıyrıqlardan, qançırlardan (zədələnmə) sümük qırılmalarına və ya hətta həyati təhlükəli yaralanmalara qədər ola bilər. Adətən, fiziki zorakılıq uşağın bədənində izlər buraxır, lakin tez-tez yaşanan travma uşağın davranışı və ya duyğularına görə qiymətləndirilə bilər.

**Fiziki zorakılığı tanımaq üçün göstəricilər**

**Fiziki əlamətlər[2]:**

1. qançırlar (bir və ya daha çox yerdə tək və ya çox), oxşar ölçülü olmaqla, müxtəlif alətlərin şəkillərinin (ip, kəmər və s.), yetkin yaşlı adamın dişləmələrinin (dişlərin) izləri ola bilər. Onlar qırmızı rəngdən başlamış (0 - 2 gün) mavi (2 - 5 gün), -yaşıl (5 - 7 gün), sarı (7 - 10 gün), qəhvəyi (10 - 14 gün) olmaqla dəyişirlər və 2 - 4 həftə sonra yox olurlar;
2. tutarlı bir səbəblə izah oluna bilinməyən və bədənin müxtəlif (görünən və / və ya görünməyən) hissələrində yanıqlar (tək və ya çox) və tüklərin tökülməsi;
3. tutarlı bir səbəblə izah oluna bilinməyən donma (şişmiş, qızarmış ayaqlar və ya qollar);
4. tutarlı bir səbəblə izah oluna bilinməyən cızıqlar, kəsiklər, sıyrıqlar və ya yara (çapıq) izləri;
5. ağız boşluğu, qarın və döş qəfəsinin (qaraciyər, dalaq) xəsarətləri, tibbi vəziyyətlə əlaqəli olmadıqda və ya qəsdən edilməyən ciddi travma, anadangəlmə səbəblərlə təsdiqlənmədikdə;
6. onurğa beyni zədələnmələrinin əlamətləri (vertebral zədələr, boyun zədələnməsi), kəllə boşluğu, digər sümüklərin qırıqları (tək və ya çoxsaylı), uşağın tibbi vəziyyəti ilə əlaqəli olmadıqda (məsələn, kövrək sümük sindromu) və ya qəsdən edilməyən ağır travma izahsız qalmışdır və ya əsaslandırılmamışdır;
7. tibbi vəziyyətlə əlaqəli olmadıqda və ya təsdüfi olmayan ciddi travma, anadangəlmə səbəblərlə təsdiqlənmədikdə, gözün torlu qişasının və ya gözün zədələnmələri. Uşağın gözündə retinanın (torlu qişa) görünən qançırları, nəfəs darlığı, qusma, uşağın yetkin yaşlı biri tərəfindən güclü şəkildə silkələndiyi (sarsıntı keçirdiyi) zaman, Şok edilmiş Uşaq Sindromunun əsas əlamətləridir; bu sindrom ən çox 1 yaşa qədər olan körpələrdə olur;

1 https://www.who.int/news-room/fact-sheets/detail/violence-against-children
2 https://www.who.int/violence_injury_prevention/child/en/

## Emosional və davranış əlamətləri

1. narahatlıq (həyəcan), qorxu;
2. müəyyən şəxslərdən, yerlərdən qorxmaq (məsələn, müəyyən böyük yaşlı şəxslərdən qorxmaq, evə qayıtmaqdan qorxmaq);
3. aşağı özünü dəyərləndirmə (məsələn, onun uğursuz olduğunu söyləmək, tapşırıqları yerinə yetirməmək);
4. həddindən artıq təvazökarlıq, itaət etmə;
5. təcavüzkarlıq (ev heyvanını və ya müəyyən bir şəxsi döymək və ya təpikləmək kimi);
6. əhval-ruhiyyənin dəyişməsi, impulsiv reaksiyalar (məsələn, tez qəzəblənmək, əşyalara zərbə endirmək və qəfildən gülmək);
7. depressiya (məs., gülümsəmir, gülmür);
8. ətraf mühitin qıcıqlandırıcılarına qarşı yüksək həssaslıq (məsələn, başqasının qəfil hərəkətlərindən, gözlənilməz səslərdən qorxmuş kimi);
9. yuxusuzluq (məsələn, yuxuya gedə bilməmək, tez-tez kabuslar görmək);
10. yemək pozğunluğu;
11. uzaqlaşma (məsələn, qrup / sinif fəaliyyətində iştirak etmək istəməmək, digər uşaqlarla ünsiyyət qurmamaq, kənarda qalmaq);
12. bir qrupda və ya sinifdə problemli və / və ya təhrikedici (təxribatçı) davranış göstərmək (məsələn, qaydaları qəsdən pozmaq, oğurluq etmək, spirtli içki içmək);
13. gündəlik fəaliyyətlərdə davranış dəyişiklikləri (məsələn, əvvəllər ən çox sevdiyi fəaliyyətlərdən imtina etmək);
14. məktəbə getmək istəməməsi, təhsildə / məktəbdə nailiyyətlərin ciddi pisləşməsi;
15. bədən tərbiyəsi dərslərindən yayınma (bu, qançırları və ya digər bədən xəsarətlərini gizlətməyə cəhd ola bilər);
16. uşağın davranışında və ya emosiyalarında digər dəyişikliklər.

## Psixoloji zorakılıq əlamətləri

1. böyük tərəfindən uşağa onun sevilmədiyinin və arzuolunmaz olduğunun müxtəlif yollarla nümayiş etdirilməsi;
2. uşağın sərt tənqid edilməsi, ləkələnməsi, “etiketlənməsi”;
3. uşağın söyülməsi;
4. uşağın üstünə qışqırmaq;
5. uşağın alçaldılması;
6. uşağı bezdirmək və əqli imkanlarını və ya fiziki görünüşünü lağa qoymaq;
7. uşağın göstərdiyi sevgi, diqqət və ya toxunuşdan imtina etmə;
8. uşağın fiziki və ya emosional baxımsızlığı;
9. uşağın ailənin qalan hissəsindən ayrılması;
10. uşağı evdən bayıra atmaq;
11. intizam məqsədi və ya cəza adı altında evə qayıtmaq üçün məhdudiyyətlər.
12. bir uşağı görməməzlikdən gəlmək, böyüklər uşağın emosional ehtiyaclarına cavab verə bilmirlər, böyüklər uşağa fiziki olaraq yaxındırlar, ancaq emosional olaraq uzaqdırlar;
13. yetkin şəxsin uyğunsuz cavabı və ya uşağın əlaqə qurmaq istəyinə onun cavab verməməsi;
14. uşağın fiziki, sosial və emosional ehtiyaclarına diqqətsizlik (qayğısızlıq);
15. uşağın maraqları, fəaliyyətləri, məktəb işləri, dostları ilə maraqlanmaması, onların tanınmaması;
16. uşağın tanınmaması;
17. uşağa tibbi yardım, təhlükəsiz, təmiz bir mühit təmin etməkdən yayınma;
18. uşağı təhlükəli və ya zərərli vəziyyətlərdən qorumaqdan yayınma;
19. böyüklər uşaqları hədələdikdə, üstünə qışqırdıqda və ya söydükdə, bir uşağı tənqid etməklə, cəzalandırmaq və ya lağ etməklə, fiziki xəsarətlə qorxutmaqla başqalarından ayırdıqları zaman uşaqla zorakı davranılması:
20. uşağa həddindən artıq sataşma, qışqırma, söyüş söymə;
21. uşağın qorxudulması;
22. gözlənilməz, əsassız və son dərəcə gərgin emosiyaların uşağın üzərinə tökülməsi;

23. böyüklərdən uşağa xəsarət yetirmək üçün şifahi təhdidlər;
24. digər ailə üzvlərinə qarşı düşmənçilik;
25. uşağa qarşı uyğunsuz və əsassız tələblərin qaldırılması;
26. başqaları qarşısında bir uşağı ələ salmaq və alçaltmaq;
27. uşaq haqqında şəxsi və ya narahatedici məlumatları açıqlamaqla təhdid etmək;
28. böyüklər uşağın həmyaşıdları ilə birlikdə müxtəlif fəaliyyətlərə qoşulma / iştirak etmə qabiliyyətini məhdudlaşdırdıqda bir uşağın təcrid olunması;
29. uşağı uzun müddət tək və ya nəzarətsiz qoymaq;
30. uşağın yaşıdları və ya dostları ilə ünsiyyətinin qadağan edilməsi;
31. uşağın ehtiyac duyduğu müxtəlif emosional və sosial mühitlərdən ayrılması;
32. uşağın hər zaman evdə / otaqda olmasının tələb edilməsi;
33. uşağın yaşıdları ilə oyunlardan və xoşladığı fəaliyyətlərdən ayrılması;
34. uşağın tədbirlərdə, həmyaşıdları ilə və ya ailə görüşlərində, şənliklərdə iştirakının qadağan edilməsi;
35. uşağın yaşına uyğun normal davranışı üçün həddindən artıq cəzalar verilməsi;
36. uşağı dostlarından və ya sosial əlaqələrdən imtina etməyə həvəsləndirmək;
37. qanuni nümayəndələrinin uşağın öyrənməsini məhdudlaşdıracaq dərəcədə həddindən artıq ehtiyatlılığı;

**Yetkin yaşlı şəxslər uşağın cinayət və ya uyğun olmayan fəaliyyətlərdə iştirakını dəstəklədikdə və / və ya təşviq etdikdə, heyvanlarla amansız rəftarı müşahidə etməyə, uyğun olmayan cinsi məzmunlu görüntülərə baxmağa imkan verdikdə, uşağa qarşı edilən sosial istismar (sui-istifadə):**

1. uşağı etik olmayan və ya qanunsuz davranışa (məsələn, oğurluq, yalan danışma, sataşma (qorxutma)) həvəsləndirmək və ya mükafatlandırmaq;
2. uşağı fahişəliklə məşğul olmağa təşviq etmək;
3. bir uşağa psixoaktiv maddələrin verilməsi və ya onların uşaqla birlikdə istifadəsi;
4. özləri və ya başqaları üçün zərərli fəaliyyətlərlə məşğul olmalarına icazə vermək və ya onları təşviq etmək (qumar oyunu kimi).

**Böyüklər uşağı manipulyasiya etdikdə və ya uşağın yaşına və ehtiyaclarına uyğun olmayan fəaliyyətlərdə iştirak etməyə məcbur etdikdə, yaşına uyğun olmayan vəzifələri həvalə etdikdə uşağın istismar edilməsi:**

1. böyüklərin uşaqdan onun inkişaf səviyyəsini, imkanlarını və qabiliyyətini aşan gözləntiləri;
2. üzrlü səbəb olmadan özü üçün arzu olunmayan fəaliyyətlərdə iştirak etmək üçün təzyiq edilməsi;
3. uşaqdan onun yaşına uyğun olmayan bir işin tələb edilməsi (məsələn, müəyyən şəxslərə nəzarət etmək / qayğı göstərmək);
4. bir uşağı başqalarının davranışına görə günahlandırmaq, utandırmaq, qınamaq (pisləmək);
5. ev işləri və ya gündəlik vəzifələr sahəsində həddindən artıq gözləntilər;
6. uşağın özünəməxsus xasiyyəti (temperamenti) və şəxsiyyət xüsusiyyətlərinin inkar edilməsi.

**Psixoloji zorakılıq - uşağa qarşı zorakılığın tanınması və təyin edilməsi ən çətin olan zorakılıq növüdür, çünki uşağın bədənində iz qoymur, nəticəsi daha sonra ortaya çıxır.**

Psixoloji zorakılığın tanınması üçün göstəricilər:

1. uşağın emosional və davranış əlamətləri:
2. az tanıdığı insanlara həddindən artıq sevgi, yapışma meyli;
3. özünə inamsızlıq, narahatlıq (həyəcanlılıq), həddindən artıq ehtiyatlılıq;
4. digər uşaqlara və ya heyvanlara qarşı aqressivlik;
5. uşağın yaşına uyğun olmayan məlumatlılıq (biliklilik), dillilik, davranış (çox yetkin olma və ya çox uşaq kimi olma);
6. güclü duyğuları (emosiyaları) idarə etməkdə çətinliklər, onların aşkara təzahür etməsi;
7. müəyyən bir şəxsdən uzaqlaşma / geri çəkilmə;
8. müəyyən bir insana qarşı qorxu, nifrət;

9. sosial bacarıqların olmaması, az sayda dostların olması;
10. emosional yetkinliyə çatmama (yaşıdları ilə müqayisədə);
11. kəkələmək, dilin ifadə çətinliyi;
12. psixosomatik şikayətlər (baş ağrısı, qarın ağrısı, ürək bulanması);
13. qeyri-ixtiyari sidiyə getmə və nəcis;
14. depressiya, özünə qapalılıq;
15. özünə zərərli davranış: alkoqol istehlakı, intihara cəhd;

**Uşağa qarşı psixoloji zorakılığı müəyyənləşdirməyə kömək edən əlamətlər bunlardır:**

1. uşağa hörmətsizlik nümayiş etdirilməsi;
2. uşaq haqqında mənfi ifadələr işlədilməsi;
3. uşağa qarşı emosiyalar göstərməmək, uşağa toxunmaqdan, qucaqlamaqdan yayınmaq;
4. uşağın tibbi ehtiyaclarına etinasızlıq (baxımsızlıq);
5. uşağa ləqəb qoyulması, onun ictimaiyyət qarşısında alçaldılması;
6. uşağa fiziki zərər (xəsarət) vurmaq üçün daimi təhdidlər və ya yaxınlarına qarşı zorakılığı müşahidə etmək üçün uşağa təzyiq edilməsi;
7. uşaqdan qeyri-real gözləntilər;
8. evdə uşağın qulluqçu kimi və ya kiçik uşaqlara baxması lazım olan bir şəxs kimi istismar eilməsi;
9. uşağın boşanma, şəxslərarası münaqişələr kimi "yetkin yaşlı şəxslərin işlərinə" qarışması (iştirak etməsi).

**Uşağa qarşı cinsi zorakılıq baş verə bilər:**

1. nüfuz etməklə cinsi əlaqə (anal, vajinal, oral);
2. cinsiyyət orqanlarına əşyaların daxil edilməsi;
3. cinsi məmnunluq üçün oxşama, toxunma, öpmə, masturbasiya;
4. müəyyən bir insanı masturbasiya etmək, cinsiyyət orqanını öpmək, əmmək, dişləmək;
5. uşağın cinsiyyətini nümayiş etdirmək;
6. uşağa soyunmaq, müəyyən bir şəxsin yanında masturbasiya etmək üçün təzyiq etmək və ya təklif etmək;
7. uşağın pornoqrafik fəaliyyətə və ya fahişəliyə cəlb edilməsi;
8. cinsi məqsədlər üçün uşağa pornoqrafik materialları göstərməklə uşaqla seksual dildə danışmaq, ədəbsiz jestlər etmək,

**Cinsi zorakılığın tanınması üçün göstəricilər:**

**Fiziki əlamətlər:**

1. hamiləlik;
2. cinsi yolla keçən xəstəliklər;
3. təsadüfi travma ilə izah oluna bilməyən dərialtı qançırlar, xarici cinsiyyət orqanlarında, döşlərdə, yançağlarda, daxili budlarda (ombanın daxili hissəsində) sıyrıqlar;
4. cinsiyyət orqanlarından, vajinadan səbəbsiz qanaxma;
5. anal və ya xarici cinsiyyət bölgəsində şişlik, ağrı, qaşınma;
6. ağrılı sidik ifrazı;
7. oturarkən və ya gəzərkən ağrı, çətinliklər;
8. ləkəli və ya qanlı paltar;
9. narahat yuxu, yemək pozğunluğu;

**Fuyğular (emosiyalar) və davranış əlamətləri:**

1. cinsiyyət orqanlarına daim toxunmaq və sürtmək
2. uşaq intizam tədbirinə cəlb edildikdən sonra belə dayanmayan ictimai masturbasiya;
3. uşağın yaşına uyğun olmayan cinsiyyət bilikləri, müxtəlif cinsi mövzularda açıq sorğu-sual etməsi;

4. cinsi məzmunlu oyunlar, öz cinsinə və ya əks cinsə qarşı düşmənçilik;
5. digər uşaqlar, heyvanlar və ya oyuncaqlar ilə cinsi əlaqənin təqlidi;
6. vajinada, yançağda özünə və ya başqalarına əşyalar daxil edilməsi;
7. çılpaq soyunma və ya obsesif istəklər, başqalarını soyundurma;
8. bədənindən utanma / nifrət etmə / ikrah hissi (iyrənmə)
9. yetkin adamın toxunuşu, "cəzb etmə", mürəkkəb təhrikedici davranış;
10. digər insanlar qarşısında soyunmaqdan çəkinmək (məsələn, bədən tərbiyəsi dərsləri zamanı);
11. hərəkət edərkən, oynayarkən və ya idman edərkən dava-dalaş (mübahisə) salmaq, gərginlik;
12. böyüklər tərəfindən toxunulmaq, qaldırılmaq, qucaqlanmaq (sarılmaq), dizi üstə qoyulmaq qorxusu;
13. müəyyən konkret yerlərdən qorxmaq, çəkinmək (məsələn, hamam və ya tualet, qaranlıq yerlər);
14. cinsi məzmunlu detalların və simvolların şəklini çəkmək;

**Cinsi zorakılıq yaşayan uşaqlar, digər növ problemlərlə də mümkün olan digər, spesifik olmayan simptomları yaşaya bilər:**

1. həddindən artıq itaətkar davranış;
2. sosial təmaslardan yayınma, təcrid olunma;
3. əvvəllər sevdiyi fəaliyyətlərə marağın olmaması;
4. intim yaxınlıq, fiziki təmas qorxusu;
5. diqqətini cəmləməkdə çətinliklər;
6. böyüklərə inamsızlıq;
7. konkret şəxslərdən qorxmaq və ya müəyyən bir şəxslə tək qalmaq qorxusu;
8. depressiya, intihar düşüncəsi;
9. aqressiv davranış;
10. iştah pozğunluqları;
11. yuxu pozğunluqları, kabuslar, yuxuya getmək qorxusu;
12. regresif davranış;
13. psixoaktiv maddələrin sui-istifadəsi.

Cinsi davranış uşağın inkişafının normal bir hissəsidir. Bir uşağa qarşı cinsi zorakılıqdan şübhələnmək / tanımaq üçün, uşaqların cinsiyyətlə bağlı inkişafını və uşağın müxtəlif inkişaf mərhələlərində cinsi davranışlarını bilmək vacibdir.

**Laqeydlik aşağıdakı hallarda baş verir:**

1. *Fiziki baxımsızlıq:* uşağın yeməyinin qayğısına qalmamaq (və ya onu qidalandırmamaq), geyim, gigiyena (məsələn, çirkli paltarda gəzməyə məcbur etmək), fiziki sağlamlıq (məsələn, xəstələndikdə həkimə müraciət etməmək, dərman almamaq), təhlükəsiz mühit (məsələn, bir uşaq evdən bayıra çıxarılmışdır, iş saatlarından sonra məktəbdə qalmışdır, soyuq bir evdə yaşayır, uzun müddət böyüklərin nəzarətindən kənar qalır).
2. *Emosional baxımsızlıq:* uşağın psixoloji ehtiyacları ödənilmir (məsələn, uşaqla ünsiyyət çatışmazlığı, onun maraqları ilə maraqlanmamaq);
3. *Sosial baxımsızlıq:* uşağın təhsilinə, sosiallaşmasına laqeyd münasibət.

**Baxımsızlığın (laqeydliyin) tanınması üçün göstəricilər:**

1. uşaq həmyaşıdları ilə müqayisədə fiziki cəhətdən geri qalmışdır, halbuki onun belə olması üçün tibbi səbəb yoxdur (məsələn, normadan az çəki);
2. uşağın səliqəsiz görünüşü – çirkli paltar, cırıq ayaqqabı;
3. uşağın geyimi mövsümə, hava şəraitinə uyğun deyil;
4. uşağın dişləri çürümüş və düzəldilməz vəziyyətdədir, müalicə edilməmiş ağız xəstəliyi vardır;
5. uşaq yuxuludur, özünü çətinliklə konsentrə edir, həvəssizdir;
6. uşaq daim acdır, qida oğurlayır;
7. uşağın lazımi məktəb avadanlığı yoxdur;
8. uşaq məktəb, qrup / sinif uşaqlarından müxtəlif əşyalar oğurlaya bilir;

9. uşaq qeyri-müntəzəm olaraq məktəbə gedir, uşağın qanuni nümayəndələri qanuna əməl etmir, məktəbin daxili qaydalarını pozur (məsələn, uşaq çox gec / erkən gətirilir, vaxtında götürülməsi "unudulur"; dərslərə gecikir, əsaslı bir səbəb olmadan dərslərdən qalır);
10. uşağı, onun az tanıdığı, davamlı olaraq başqası, sərxoş vəziyyətdə, pis davranışlı böyüklər gətirir və ya məktəbdən götürür;
11. uşaq dərsdən sonra dilənçilik edir;
12. uşağın sosial bacarıqları yoxdur və ya onun yaşı üçün kifayət deyil;
13. aşağı özünü dəyərləndirməsi çox aşağıdır, uşaq son dərəcə itaətkardır;
14. uşağın zərərli vərdişləri var.
15. Məişət zorakılığı başqa formalarda və / və ya simptomlarda ola bilər.

**Mümkün məişət zorakılığı şübhəsi olduqda məktəb işçiləri tərəfindən görülməli olan tədbirlər**

Mümkün zorakılıq halı ilə bağlı şübhələr olduqda məktəb işçiləri tərəfindən görülməli tədbirlər və mümkün istiqamətləndirmə mexanizmi aşağıda təsvir edilmişdir.

1. Bir uşağın məişət zorakılığına məruz qalacağından şübhələnən hər hansı bir məktəb işçisi dərhal məktəb rəhbərinə və ya onun səlahiyyətli nümayəndəsinə məlumat verməlidir. Məktəb rəhbərinə və ya onun səlahiyyətli nümayəndəsinə hesabat vermək mümkün olmadıqda, uşağın məişət zorakılığına məruz qaldığından şübhələnən məktəb işçisi birbaşa uşaq hüquqları məsələləri ilə bağlı yerli icra hakimiyyətinə və polisə hesabat verməlidir.
2. Bir məktəb müdiri, onun səlahiyyətli nümayəndəsi və / və ya bir uşağın məişət zorakılığına məruz qaldığından şübhələnən, lakin hələ əminliklə (dəqiqliklə) deyə bilməyən bir məktəb işçisi, məktəb psixoloquna və ya sosial pedaqoqa müraciət edə bilər; məktəbdə imkanlar olmadıqda - uşaq hüquqları məsələlərində yerli icra hakimiyyəti orqanını ilə məşləhətləşə bilər. Məktəb müdiri, onun səlahiyyətli nümayəndəsi və / və ya məktəb işçisi (uşaq tərəfindən zorakılığa məruz qalmış və ya uşaqla yaxşı bir emosional əlaqəsi vardır və ya zorakılıq əlamətləri görmüşdür) məişət zorakılığına məruz qalmış uşaq ilə söhbət etməyə başlaya bilər.
3. Məktəb direktoru və ya onun səlahiyyətli nümayəndəsi, məktəb işçisindən məişət zorakılığına məruz qalmış bir uşaq barədə bildiriş aldıqdan sonra dərhal yerli icra hakimiyyəti orqanına və polisə xəbər verir;

Polis yerli icra hakimiyyəti orqanı ilə birlikdə uşağa qarşı zorakılıq faktı barədə məlumat aldıqdan sonra dərhal araşdırmaya başlamalıdır.

Uşağın nümayəndələri və (və ya) digər şəxslər tərəfindən, qanunla müəyyən edilmiş qaydada, uşağın hüquqlarının pozulması barədə polisə xəbər verilməməsi halında, onlar Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Məişət zorakılığının tanınması və məişət zorakılığı halı ilə bağlı şübhələr yarandığı halda görülməli tədbirlərlə bağlı məktəblərə tövsiyələr

**Məktəb əməkdaşlarinin uşağin məişət zorakiliğina məruz qalmasi ilə bağli şübhələrinin yarandiği halda görməli olduğu tədbirlərin ardicilliği**



## Səhiyyə işçiləri üçün tövsiyələr

1. Səhiyyə işçiləri məişət zorakılığı qurbanlarının ilk əlaqə saxladıqları şəxslər ola bilərlər. Bu səbəbdən, səhiyyə sektoru, zorakılıqdan təsirlənən xəstəni müvafiq qurumlara yönəldərək məişət zorakılığının tanınmasında və əlavə tədbirlərin görülməsində mühüm rol oynayır.
2. Səhiyyə işçiləri üçün tövsiyələr, məişət zorakılığın müəyyənləşdirilməsi üçün **Göstəriciləri** və ehtimal olunan məişət zorakılığı hadisəsinə şübhə halında görülən **tədbirləri** (bundan sonra - Tövsiyələr) əhatə edir.
3. Tövsiyələrin məqsədi məişət zorakılığı qurbanlarını mümkün qədər tez müəyyənləşdirmək və şiddətin təkrarlanmaması üçün lazımi addımları atmaqdır. Şəxsin zərərçəkmiş olub olmaması gündəlik (müntəzəm) müayinələr zamanı (ümumi terapevt, ginekoloq, hər hansı digər ixtisaslaşmış həkim və ya digər səhiyyə işçisi tərəfindən) və ya təxirəsalınmaz həkim qəbulu zamanı müəyyən edilə bilər.
4. Tövsiyələr həkimlər, tibb bacıları, mamaçalar və sair səhiyyə işçiləri üçün nəzərdə tutulub. Bu işçi heyəti geniş şəkildə qəbul edilir, yalnız xəstəxana işçiləri ilə məhdudlaşmır.
5. Tövsiyələrin tətbiqi zamanı aşağıdakı prinsiplər rəhbər tutulur: zorakılıq yaşamış şəxsin qanuni ehtiyaclarının təmin edilməsi, məxfilik, ədalətlilik, əməkdaşlıq, iştirakçılıq, əlçatanlıq və keyfiyyət, insan hüquq və azadlıqlarının müdafisəi, humanizm, qərəzsizlik və səmərəlilik.
6. Tövsiyələr, Avropa İttifaqına üzv dövlətlərdə və müxtəlif formatlarda istifadə olunan ən yaxşı təcrübə nümunələri və beynəlxalq standartlar əsasında hazırlanmışdır.
7. Tövsiyələrdə istifadə olunan təriflər, „Məişət zorakılığının qarşısının alınması haqqında“ Azərbaycan Respublikasının qanunu və digər qanuni sənədlərdə müəyyən edildiyi kimi başa düşülür.

### Məişət zorakiliğini müəyyən etmək üçün göstəricilər[3]

Növbəti fəsil fiziki, davranış, psixosomatik, psixoloji göstəricilər və məişət zorakılığı ilə bağlı reproduktiv sağlamlığa dair göstəriciləri əhatə edir. Sağlamlıq mütəxəssislərinin rolu ilkin yardımı təmin etməkdir - dinləmək, ehtiyacları soruşmaq, xəstənin açıqlamasını təsdiqləmək, təhlükəsizliyi artırmaq və dəstək vermək. Məişət zorakılığı barədə sorğu-sual, yalnız qurban tək olduğu zaman və partnyoru (yoldaşı) və / və ya digər ailə üzvləri (2 yaşdan yuxarı) otaqda olmadıqda, aparıla bilər. Dil maneələri olduqda rəsmi tərcüməçi təmin edilməlidir. Fəsil III qurbanla bağlı xüsusi sorğu aparmaq üçün müvafiq qaydaları əks etdirir.

### Fiziki Göstəricilər

1. Xəsarətlər: Məişət zorakılığından yaranan tipik zədələr adətən bədənin döş, qarın və cinsiyyət orqanı kimi mərkəzi hissəsində olur. Boğmağa cəhd nəticəsində baş və boyunda yaralar ola bilər. Qolların yuxarı hissələrində (çiyindən aşağı hissələr) zədələnmələr tez-tez qurban özünü müdafiə etməyə çalışarkən baş verir. Müxtəlif yaşlarda yaralanmalar / qançırlar təkrar zorakılığa görə ola bilər.
2. Funksional qüsurluluq
3. Daimi əlilliklər

### Davranış göstəriciləri

1. Xəsarətlərin uyğunsuz şəkildə izah edilməsi və ya müalicə üçün müraciət etməkdə gecikmə
2. Məsləhətləşmələrdə müdaxilə edən partnyor və ya ər
3. Partnyor söhbətlərin çoxunu özü edir və xəstənin yanında qalmaqda israr edir
4. Partnyorun yanında həyəcanlı (narahat) görünmə
5. Tibbi məsləhətlərə əməl olunmaması
6. Sosial təcrid olunma/ nəqliyyatdan istifadənin olmaması
7. İşdə və ya təhsildə tez-tez olmama (gəlməmə)
8. Dəqiq bir diaqnoz olmadan sağlamlıqla bağlı təkrarlanan məsləhətləşmələr
9. Alkoqoldan və digər narkotik maddədən problemli şəkildə istifadə etmə

3 Qadınlara qarşı intim partnyor zorakılığına və cinsi zorakılığa qarşı cavab tədbirləri, ÜST-nin klinik və siyasət qaydaları (2013), səh.19

**Psixosomatik göstəricilər**

1. Xroniki ağrı sindromu
2. Qıcıqlı bağırsaq sindromu
3. Mədə-bağırsaq xəstəlikləri
4. Sidik yolu infeksiyaları
5. Tənəffüs pozğunluqları

**Psixoloji göstəricilər**

1. Emosional pozuntu, məsəslən, narahatlıq (həyəcan), qərarsızlıq, qarışıqlıq və düşmənçilik
2. Depressiya, narahatlıq, travmadan sonrakı stres pozğunluğu, yuxu pozğunluğu simptomları
3. Narahatlıq / depressiya / doğuşdan əvvəl depressiya
4. Psixosomatik və emosional şikayətlər
5. Özünə zərər vurma və ya intihara cəhd
6. Zədələnmələrə görə utanma (xəcalət çəkmə)

**Reproduktiv sağlamlıqla əlaqəli göstəricilər**

1. Pelvik iltihablı xəstəliklər
2. Cinsi yolla keçən infeksiyalar
3. Arzu olunmayan hamiləlik
4. Hamiləliyin ağırlaşmaları
5. Uşaq salma / aşağı çəki ilə doğulan uşaq

## Zərərçəkmiş şəxslə sorğu-sual və açıqlama

II Fəsildə göstərildiyi kimi məişət zorakılığı göstəricilərini təyin edən tibb işçiləri qurban üçün xüsusi sorğu (qurbanyönümlü) prosedurunu başlatmalıdırlar. Qurban üçün xüsusi sorğuya başlamaq üçün təhlükəsiz bir mühit təmin edilməlidir: məişət zorakılığı ilə bağlı sorğu yalnız qurban tək olduğu zaman və partnyor və / və ya digər ailə üzvləri (2 yaşdan yuxarı) otaqda olmadıqda aparıla bilər.

Partnyorun / və ya ailə üzvlərinin iştirak etdiyi halda, səhiyyə mütəxəssisləri tibbi səbəblərdən həmin şəxs(lər)dən otağı tərk etmələrini xahiş etməlidirlər.

Məişət zorakılığı göstəriciləri məişət zorakılığını göstərirlər, amma məişət zorakılığı üçün sübutlar deyillər. Məişət zorakılığını açıqlamaq üçün qurbanlar üçün təhlükəsiz bir mühit təmin etmək lazımdır. Səhiyyə mütəxəssisləri məişət zorakılığına qarşı sıfır tolerantlıq (dözümlülük) yanaşmasını tətbiq etməlidirlər.

**Qurban üçün xüsusi sorğuda aşağıdakı prinsiplər rəhbər tutulur:**

1. Mühafizə olunan və etibarlı bir atmosferin təmin edilməsi
2. Xəstənin yaşadığı təcrübələrə hörmət edilməsi
3. Xəstənin öz müqəddəratını təyinetmə hüququna və danışma sürətinə (ritminə) hörmət edilməsi
4. Tibbi mütəxəssisin məxfilik üzrə vəzifələri və məcburi hesabat öhdəlikləri barədə məlumatlar (onlar yerinə yetirildiyi təqdirdə)
5. Qurbanın təcrübələrini dəstəkləyən və onlara inanan bir şəkildə, özünü onun yerinə qoyaraq anlayışla qarşılayan tərzdə (empatik), mühakimə etmədən cavab vermək
6. Təkrar travmaya səbəb olan hər hansı bir hərəkətlərdən / suallardan qaçınmaq (detalları araşdırmaq olmaz, zorakılığın necə və niyə baş verdiyini soruşmamaq, tərcümeyi-halını araşdırarkən son dərəcə ehtiyatlı olmaq)
7. Dəstək xidmətləri haqqında məlumat vermək

Məişət zorakılığından şübhə olduğu təqdirdə, qurban üçün xüsusi sorğu aşağıdakı ümumi giriş **ifadələrindən** istifadə edərək kontekstləşdirilməlidir.

1. “Gördüyüm bir çox pasiyentlər evdə zorakılıq və şiddətlə üzləşirlər və bu onların sağlamlığını pozur. Mənim üçün maraqlıdır siz evdə zorakılıq yaşamısızmı?”
2. “Bəzi qadınlar, öz partnyorlarının gözləntilərini doğrultmadıqlarına görə zorakılığa layiq olduqlarını düşünürlər, lakin kimin nə edib-etməməsindən asılı olmayaraq, heç kim döyülməyə layiq deyil. Etdiyiniz və etmədiyiniz bir şeyə görə sizi heç vurublar və ya hədələyiblərmi ? “
3. “Pasiyent olaraq gördüyüm qadınların çoxu zorakı münasibətlərlə üzləşiblər. Bəziləri bu barədə özləri soz açmaqdan qorxurlar və ya özlərini narahat hiss edirlər. Siz heç öz partnyorunuzdan şiddət görmüsünüzmü?” [4]

Pasiyent və uşaqlarının təhlükəsizliyini qiymətləndirmək üçün əlavə birbaşa suallar verilməlidir. Tələb olunan məlumatlar əsasında əlavə tədbirlər və istiqamətləndirmə mərhələləri başladılmalıdır. [5]

**1. Stres və Təhlükəsizlik**

1.1. Evdə özünüzü təhlükəsiz hiss edirsiniz?

**2. Qorxma və ya zorakılığa məruz qalma**

2.1. Yoldaşınız heç sizi və ya övladlarınızı hədələyibmi?
2.2. Yoldaşınız nə vaxtsa sizə və ya uşaqlarınıza zorakılıq edibmi?

**3. Dostlar və Ailə**

3.1. Zərər görsəydiniz, dostlarınız və ya ailəniz biləcəkmi?
3.2. Sizə kömək edə biləcəklərmi?

**4. Təcili yardım planı**

4.1. Hər hansı hadisə halında gedə biləcəyiniz təhlükəsiz yeriniz varmı?
4.2. Sığınacaq tapmaqda köməyə ehtiyacınız varmı?
4.3. Bu barədə bir məsləhətçi ilə danışmaq istərdinizmi?

Səhiyyə işçiləri xəstənin təhlükəsizliyi və risk ehtimalı ilə bağlı narahatlıqlarını bildirməlidirlər, lakin daha sonrakı istiqamətləndirmələr barədə qərar vermək qurbanın hüququdur. [6] Görülən hər hansı bir tədbir üçün verilən razılıq xəstənin müstəqilliyini və qərar qəbul etməsini təmin etmək üçün vacibdir. Səhiyyə işçiləri üçün məcburi hesabat öhdəlikləri tətbiq olunduqda, zərər çəkmiş şəxsə səhiyyə işçisi tərəfindən başladılan tədbirlər barədə məlumat verilməlidir. Valideynə qarşı məişət zorakılığı kontekstində, uşağa birbaşa təsir göstərmədikdə, lakin zorakılığa şahid olduğuna şübhə edildikdə, Ailə və Uşaqlara Dəstək Mərkəzinə müraciət edilməsi nəzərdən keçirilməlidir.

Qurbanyönümlü yanaşma, səhiyyə işçilərindən məişət zorakılığı qurbanlarına ixtisaslaşmış yardım göstərən xidmətlər, polis və yerli icra hakimiyyəti orqanı ilə sıx əməkdaşlıqda işləməyi tələb edir. Bir xəstəxana daxilində, xəstəxananın bütün tibbi personalı üçün əlaqə nöqtəsi olaraq xidmət göstərən və məişət zorakılığına dair məlumatlılığı artırmaq istiqamətində çalışan qurbanlara dəstək qrupları yaradıla bilər. Xəstəxanalar tərəfindən görülən bir başqa tədbir də qurbanlara dəstək otaqlarının yaradılması olmalıdır, belə ki, zərərşəkmiş şəxslərin təhlükəsizliklə bağlı problemi olduqda və yaxın məsafədə sığınacaq olmadığı təqdirdə, burada gecələyə bilərlər.

4 WAVE/BMT-nin Əhali Fondu, Şərqi Avropa və Mərkəzi Asiyada gender əsaslı zorakılığa qarşı səhiyyə sisteminin cavab tədbirlərinin gücləndirilməsi, səhifə 205.
5 Ashur ML. Məişət zorakılığı barədə sualla: TƏHLÜKƏSIZ suallar. JAMA 1993; 269:2367.
6 ÜST - Qadınlara qarşı intim partnyor zorakılığına və cinsi zorakılığa qarşı cavab tədbirləri, ÜST-nin klinik və siyasət qaydaları (2013), Tövisyə No. 37, 38.

Səhiyyə işçiləri hər şeyi diqqətlə sənədləşdirməlidirlər: Hər hansı bir istiqamətləndirmə etməzdən əvvəl xəsarətlər və alınan məlumatlar sənədləşdirilməli və mümkünsə (məhkəmə-tibbi) sübutlarının toplanması aparılmalıdır. Bu sənədlər, başlanılmış potensial hüquqi addımlar üçün vacibdir. Qeydlərin (qeyd olunan məlumatların) məxfiliyi təmin edilməlidir. Tibbi qeydlərə (Protokola) giriş yalnız tibb müəssisəsinin hüdudları daxilində olmalıdır, nə xəstələrin, nə də onların ziyarətçilərinin və ya köməkçi şəxslərin rəsmi qeydiyyatdan keçmədən və müvafiq məxfilik protokoluna riayət etmədən, tibbi qeydlərə giriş əldə edə bilməmələri təmin edilməlidir.

**İxtisaslaşmış dəstək xidmətlərinə istiqamətləndirmə**

1. Xəstəyə ixtisaslaşdırılmış dəstək xidmətləri və təklif olunan xidmət portfelləri (hüquqi, psixososial, terapevtik dəstək və s.) haqqında məlumat verilməlidir. Tibb mütəxəssisləri ixtisaslaşmış bir dəstək xidmətinə **ilkin əlaqə yaratmağı** təklif etdikdə istiqamətləndirmənin təsirli olması ehtimalı daha yüksək olur. Bu məqsədlə həkim qurban üçün dəstək / məsləhət xidmətində görüş (randevu) təyin etmək məqsədilə qurbanın razılığını almalıdır.

2. İstiqamətləndirmə (müraciət) **qəbul edilmədikdə**, dəstək xidmətləri və onlarla necə əlaqə yaradıla biləcəyi barədə məlumat verilməlidir. Bununla birlikdə, kimsə (partnyor, ailə üzvləri və s.) qurbanın əşyaları arasında broşür və ya məlumat vərəqəsi taparsa, bunun qurbanın təhlükəsizliyinə mane ola biləcəyi məsələsini müzakirə etmək vacibdir. Alternativ variant olaraq nömrəni hiss olunmadan (diskret şəkildə) qurbanın telefonunda qeyd edib saxlamaq və ya başqa bir şəkildə qeyd etmək ola bilər.

3. **İxtisaslaşmış dəstək xidmətləri bunlardır**[7]**:**

   3.1. Zorakılığa Qarşı Qadınlar üçün Kömək Xətti
   3.2. Ailə və Uşaqlara Dəstək Mərkəzləri
   3.3. Qadınlar üçün məsləhət mərkəzləri və qadın sığınacaqları (sığınacaq yoxdursa, xəstəxanada qurbanların bir neçə gün müddətində gecələri yata biləcəyi “qurban üçün yardım otağı” yaradılmalıdır)[8]
   3.4. Cinsi zorakılıq qurbanları üçün ixtisaslaşdırılmış dəstək xidmətləri

**Polisə istiqamətləndirmə**

1. Yaxınlaşan təhlükə olduğu halda polisə məlumat vermək üçün razılıq alınmalıdır. Qanuni məcburi hesabat verilməsi öhdəliklərinin olması halında, səhiyyə mütəxəssisləri hər hansı hesabat verilməsi (bildiriş) barədə qurbana məlumat verməlidirlər. Hər halda, səhiyyə işçiləri qanuni tabelikdən (öhdəlik, müdafiə) xəbərdar olmalı və qurbana polisə məlumat verməyi təklif etməlidirlər.
2. Uşaqlara qarşı pis rəftar edildiyi hallarda, tibb işçiləri üçün bu barədə səlahiyyətli orqanlara məlumat vermək üçün qanuni bir öhdəlik olmalıdır.

7 Bu siyahı hər bir region/bələdiyyə üzrə uyğunlaşdırılmalı və dəstək mərkəzlərinin/sığınacaqların nömrələri əlavə olunmalıdır (sığınacaqların ünvanı göstərilməməlidir).
8 WAVE/BMT-nin Əhali Fondu, Şərqi Avropa və Mərkəzi Asiyada gender əsaslı zorakılığa qarşı səhiyyə sisteminin cavab tədbirlərinin gücləndirilməsi, səhifə 99

# Polis əməkdşları üçün tövsiyələr

Məişət zorakılığı qurbanına veriləcək sualların nümunələri

| Məişət zorkılığı qurbanlarına veriləcək suallar | Məişət zorakılığı qurbanlarına verilməsi tövsiyə olunmayan suallar |
|---|---|
| 1. Deyə bilərsinizmi sizə nə olub?<br>2. Sizin zədəniz var. Görünür kimsə sizi vurub. Kim vurub sizi?<br>3. Həmin şəxs sizi əvvəllər vurub?<br>4. Sizi nə ilə vurub? Açıq və ya bağlı əllə?<br>5. Sizin haranıza zərbə endirdi?<br>6. Neçə dəfə zərbə endirdi?<br>7. Hər hansı bir alətlə vurdu? Ayaqqabı? Bıçaq? Tüfəng? Telefon? Yumruq?<br>8. Sizə hədələdimi?<br>9. Evdə silah varmı? | 1. Qurbanı günahlandıran kimi görünən və ya aqressiv bir səs tonunda verilən suallar qurbanı daha da qorxutmağa və ya vacib dəlilləri gizlətməyə təsir edə bilər.<br><br>Bu səbəbdən polis əməkdaşları ittihamedici və ya aqressiv suallar verməməlidirlər. Misal üçün:<br><br>**Siz nə etdiniz (dediniz) ki, sizi vurdu?**<br><br>2. Çoxmənalı və ya ritorik suallar. Misal üçün:<br><br>**Yaxşısız?**<br><br>Unutmayın ki, insanların çoxundan “Yaxşısınızmı” soruşduqda avtomatik olaraq “yaxşıyam” cavabını verirlər. Şəxs heç də yaxşı olmaya bilər. Çox vaxt qurbanlar şok halında olurlar və yaralarından tam xəbərdar olmaya bilərlər. Şəxsin həqiqi vəziyyətini öyrənmək üçün qurbanın diqqətini xəsarətlərinə və onların dərəcələrinə yönəldəcək xüsusi suallar verin. Polislər yadda saxlamalıdırlar ki, qurbanın güvənini və əməkdaşlığını qazanmaq, verilən sualların növünə və soruşulma tərzinə bağlı ola bilər. |

## *Qurbanla müsahibənin aparılması*

1. Qurbanın dediklərini başa düşmədiyinizi bildirin və sakitləşməsini (yavaş danışın, asta danışın) xahiş edin.
2. Sakitləşdirici, dəstəkləyici cümlələrinizin bədən dilinizlə uyğunluğuna əmin olun.
3. Təmkinli olun.

**Əlavə müsahibə strategiyaları**

Polis əməkdaşları sakit və təmkinli olmalıdırlar. Evə daxil olarkən ilk məqsədlərdən biri bütün tərəfləri sakitləşdirməkdir.

— Zərərçəkmiş və ya şübhəli şəxs əsəbidirsə, polis birbaşa bu adamdan sakitləşməsini, yavaş danışmasını və səs tonunu aşağı salmasını xahiş etməlidir.
— Qurban qışqırırsa, ağlayırsa və ya ümumiyyətlə müsahibə vermək çətindirsə, onu başa düşmədiyinizi bildirin.

## *Şübhəli şəxslə müsahibənin aparılması*

Bəzi hallarda, hadisə yerinə gələn polis əməkdaşlarının sakitləşdirmə üsullarından istifadə etmələri tələb oluna bilər, çünki zərəryetirən şəxs yad insanların ailə işinə müdaxilə etməsinə qəzəblənə bilər. Ancaq bəzi hallarda zərəryetirən şəxs polislə razılaşa bilər və ya vəziyyətlə barışmış ola bilər. Onlar zorakılığın baş verdiyini inkar edə bilərlər. Həm də onlar öz partnyorlarını günahlandıra və başqa çıxış yolu tapmadıqlarını bildirə bilərlər.

Polislər bilməlidirlər ki, zərəryetirənlə müsahibə zamanı həmin şəxs hər hansı bir manipulyativ dil və ya davranışdan istifadə edə bilər. Polis əməkdaşları aşağıdakıları etməlidir:

— Zərəryetirənlə müsahibə zamanı ittihamedici ifadələrdən istifadə edilməməlidir. Zərəryetirənə imkan vermək lazımdır ki, hadisə barədə öz versiyasını danışsın və daha sonra polis əməkdaşı deyilənlərin əksini bildirən məlumatı bildirə bilər.
— Zorakılığın səbəbləri ilə bağlı şübhəli şəxsin ifadələrini dəstəkləməmək və ya razılaşmamaq.
— İfadələr onların özlərinə xidmət edən kimi görünsə də, təcavüzkar şəxsin bütün təbii (spontan) açıqlamalarını qeyd etmək.
— Polislər şübhəlini həbsdə saxladıqda və ya həbs kimi hərəkət azadlığını məhdudlaşdırdıqda, dindirilmədən əvvəl şübhəliyə xəbərdarlıq etmək və hüquqlarını təmin etmək.

**Şübhəli şəxsin dindirilməsi**

1. Empatiya güclü bir vasitə ola bilər. Dindirməyə başlamazdan əvvəl şəxslə bir növ əlaqə qurmağa çalışın. Bir şübhəlinin polisə, xüsusən də tanımadığı bir şəxsə bir şeyi söyləmək istəməsi təbii deyil. Onlara bir fincan çay, şirniyyat və s. verin. Onlara izah edin ki, siz onlara gətirib çıxaran hərtərəfli bir təhqiqatı başa vurmusuz və indi hekayənin ona aid tərəflərini eşitmək istərdiniz. Bu həm də andlı iclasçılar (Juri) üçün çox təsirli bir inandırıcı vasitədir. Təhdid etməyən bir yanaşması olan təhqiqatçılara onlar daha çox etibar etməyə meylli olurlar. Əvvəlcə bunu sınayın, işə yaramırsa, daha aqressiv yanaşmalara keçin.

2. Qoy onlar özlərini sorğu-sual etsinlər. Əvvəlcə şübhəlinin danışmasına və cinayətdə iştirakı barədə sizə yalan ifadə verməsinə icazə verin. Onları yalan dedikləri hissədə dayandırın və sonra hissə-hissə incələməyə başlayın. Hərtərəfli bir araşdırma aparmısınızsa, bu bir o qədər çətin olmamalıdır. Bəzən yalan danışan bir şübhəlini tutmaq da etiraf etmək qədər yaxşıdır.

3. Hər şeyə çox diqqət yetirin. Siz qeyd apararkən başınızı aşağı endirməsəniz, diqqətdən qaçıra biləcəyiniz bir çox qeyri-şifahi və söz işarələrini (ipuclarını) anlaya bilərsiniz. Bundan əlavə, şübhəlinin dediyi və etdiyi hər şeyə diqqət yetirilməsi onun üçün əlavə stres yaradır ki, bu da onun ən qısa müddətdə həqiqətləri etiraf etməsinə səbəb ola biləcək.

4. Alternativ “adını xilas etmə” ssenarisi ilə çıxış etməkdən çəkinməyin. Əmin olun ki, ssenariniz hələ araşdırılmaqda olan cinayətin tərkib hissələrinin etiraf edilməsini özündə ehtiva edir. Cinayət qanunlarını bilmək bu ssenaridə vacibdir. Bir şübhəli şəxs etiraf etdikdən sonra onu həqiqətə çatdırmaq daha asandır.

5. Şübhəli şəxs barədə araşdırmalar aparın. Onlar üçün vacib olan məsələləri (uşaqlar, həyat yoldaşı, iş, həbsxana qorxusu və s.) öyrənin və bunları öz xeyrinizə istifadə edin. Onlara deyin ki, özlərinin etiraf etmələri, onların həyatlarındakı bu əhəmiyyətli əlaqələrin itirilməməsi üçün önların ən yaxşı mənafeyinə xidmət etmiş olur. Beləliklə bunları onlara söyləməklə onların etiraf etmələrinə nail olmaq olar

## Uşaqlarla müsahibənin aparılması

“Məişət zorakılığının baş verdiyi evlərdə uşaqların təqribən 87%-i təcavüzkar davranış və depressiya daxil olmaqla zorakılıq və ikincil psixoloji təsirlərə məruz qalırlar və şahid olular.“ Polis bunları etməlidir:

1. Uşaqlarla müsahibəni valideynlərdən kənarda və uşaqlar üçün rahat bir yerdə aparın. Polis əməkdaşı uşağın gözünə baxa biləcək səviyyədə dayanmalıdır.
2. Uşaqla dostluq edin və polisin niyə orada olduğunu izah edin.
3. Polislərin uşaqdan hansı cavabı gözlədiyini uşaqlara deməyin. Zabit uşaqları dindirərkən yönləndirici suallardan istifadə edərkən ehtiyatlı olmalıdır.
4. Uşağın valideynlərdən birindən və ya hər ikisindən qorxması və ya baş verənlərə görə məsuliyyət hiss etməsi barədə göstəricilərə diqqət yetirin.

5. Uşaqlara qarşı təcavüz əlamətlərinə diqqət yetirin. Bəzi hallarda, ailədaxili şiddət olduqda, uşaqlara qarşı zorakılıq da yaşanmış olur.

## *Məişət zorakiliğini müəyyən etmək üçün polis əməkdaşlari üçün tövsiyələr və mümkün zorakiliq şübhəsi olduğu halda görülməli tədbirlər*

1. Mümkün zorakılıq barədə (bundan sonra tövsiyələr) şübhə olduqda məişət zorakılığını müəyyən edən polis işçiləri üçün **göst**əriciləri təyin etmək (bundan sonra tövsiyələr), və bir şəxsin məişət zorakılığı yaşamaqda şübhəli bilindiyi zaman zorakılığı (fiziki, cinsi, psixoloji, iqtisadi) tanımaq üçün görülən tədbirlər üçün tövsiyələr.

2. Tövsiyələrin məqsədi məişət zorakılığına məruz qalmış şəxsi müəyyənləşdirmək və onun hüquqlarını və sağlamlığını qorumaq üçün lazımi addımlar atılmasını təmin etməkdir.

3. Tövsiyələr məişət zorakılığının qarşısının alınmasını həyata keçirən, məişət zorakılığı hallarına reaksiya verən, hadisə yerində qərarlar qəbul edən və ya məhkəmədən əvvəl istintaq aparan polis işçilərinə ünvanlanır.

4. Məişət zorakılığı aktları müxtəlif yollarla müəyyən edilə bilər (birbaşa, dolayı yolla və öz təşəbbüsü ilə):
   4.1. Qurban öz təşəbbüsü ilə zorakılıq barədə məlumat verdikdə;
   4.2. Anonim və ya məlum bir insan tərəfindən (telefonla və ya yazılı şəkildə);
   4.3. Hər hansı bir sağlamlıq mərkəzinin işçisi, sosial işçi və ya digər qurum təfərindən verilən məlumat əsasında.

5. Digər polis vəzifələrini və təhlükəsizliklə bağlı tapşırıqlarını yerinə yetirərkən.

**Məişət zorakiliğinin formalarini müəyyən etmək üçün göstəricilər**

1. Bir şəxsin mühakimə oluna biləcəyi məişət zorakılığı aktları, aşağıdakı partnyor zorakılığının hər hansı bir formasına istinad edir:
   1.1. **Psixoloji zorakılıq** - məcbur etmə, böhtan demə və şifahi təhqirlər, qısnama, alçaltma, baxımsızlıq (laqeydlik), təcrid etmə, böhtan, təhdid etmə, təqib etmə, psixoloji zorakılıq (Əlavə 1);
   1.2. **Fiziki zorakılıq** - fiziki təcavüz (hücum), bədənə zərər vermə, döymə, azadlıqdan məhrumetmə, qətl (2 nömrəli əlavə);
   1.3. **Cinsi zorakılıq (Əlavə 3) -** zorlama, cinsi təcavüz (hücum), cinsi qısnama, ər-arvad arasında zorlama hərəkətləri;
   1.4. İqtisadi zorakılıq - mülkiyyətə zərər vurma, fərdi mülkiyyətin oğurlanması, fərdi azadlığın məhdudlaşdırılması, maliyyə asılılığı, aliment ödəməkdən imtina, məişət xidmətləri üçün məcburi işlətmə.

2. Bu tövsiyələr məişət zorakılığının dörd sahəsini fərqləndirir: məişətdə fiziki zorakılıq, məişətdə psixoloji zorakılıq, məişətdə cinsi zorakılıq və iqtisadi xarakterli qeyri-qanuni məhdudiyyətlərin məişətdə tətbiqi. Şiddətin bir forması istifadə edilə bilər, ancaq bir neçəsinin birlikdə olması, məişətdə fiziki və məişətdə psixoloji zorakılıqla birlikdə bir qadına qarşı məişətdə cinsi zorakılıq kimi hallar ən çox yayılmış formadır. Məişət zorakılığı bir deyil, bir neçə **göstərici ə**sasında tanınır, buna görə məişət zorakılığı üçün **göstəricilərin** cəmini qiymətləndirmək lazımdır[9]

3. Dəlillər kimi təsdiqlənə bilən məişət zorakılığı göstəriciləri:
   3.1. Müayinə edən həkim və ya tibbi klinika mütəxəssisi tərəfindən fotoşəkli çəkilə bilən və ya təsdiqlənə biləcək zədə əlamətləri. (məsələn, kəsiklər, sıyrılmalar, qançırlar, qırıqlar, boğma, saçın dartılması) Polis, hadisədən dərhal sonra görünə bilinməyən zədələnmələrlə da tanış olmalıdır (məsələn, bir neçə gün ərzidə görünməyən boğma);

9 https://apps.who.int/iris/bitstream/handle/10665/85240/9789241548595_eng.pdf;jsessionid=AA38F143889704D3F3E1148B7223B477?sequence=1

3.2. Cırıq paltar;
3.3. Qırılmış əl dırnaqları;
3.4. Məhkəmə-tibbi dəlillər / DNT (məsələn, barmaq izləri, ağız suyu (tüpürcək), qan və sperma, dırnaq altındakı toxuma, tüklər və liflər; və qətl hadisələrində qurbanın cəsədi);
3.5. Kağız sənədlər - gündəliklər, məktublar, qeydlər - şübhəli şəxsə məxsus və ya qurban tərəfindən yazılmış və keçmiş istismar və zorakılıq hərəkətlərini izah edən sənədlər;
3.6. Silahlar;
3.7. Zorakı bir hadisəni göstərən qırılmış ev əşyaları;
3.8. Qonşuların, dostların və ailənin müşahidələri;
3.9. Keçmişdə baş verən zorakılıq hadisələrində iştirak edən xidmət təminatçılarının açıqlamaları;
3.10. Əvvəlki hadisələr barədə polisin hesabatları;
3.11. Keçmiş xəsarətləti sübut edən tibbi sənədlər (yalnız qurbanın icazəsi ilə istifadə olunur);
3.12. Girov məhdudiyyətləri və ya qadağan (məhdudlaşdırma) əmrləri də daxil olmaqla məhkəmə qərarlarının sübutu;
3.13. Cinayətkarın alkoqol və / və ya narkotik maddə istifadəsinə dair dəlilləri;
3.14. Cinayət qeydləri qovluğu / iddia edilən cinayətkarın və bütün şübhəlilələrin tarixçəsi;

4. Kompüter, internet / elektron poçt, mətn mesajları və digər elektron dəlillər (səsli mesajlar, telesekretar qeydləri, təcili yardım nömrələri üzrə polisin qeyd olunmuş lentləri).

5. Sübutların toplanması zamanı aşağıdakı praktikalar rəhbər tutulmalıdır:
5.1. Məhkəmə-tibbi və tibbi müayinə, polisə şikayət edib etməyəcəyindən asılı olmayaraq, əlavə razılıq tələb edilmədən (məsələn, kişi qohumundan) zorakılıqdan xilas olmuş şəxslər üçün əlçatan olmalıdır.
5.2. Təkrar viktimizasiyanın məhdudlaşdırılması üçün həddin artıq məhkəmə-tibbi və tibbi dəlillərin toplanmasının qarşısı alınmalıdır.
5.3. Məhkəmə-tibbi və tibbi sübutlar cinayətkarı mühakimə etmək üçün məcburi olmamalıdır.
5.4. Sübutları təqdim edib-etməmək və onları necə təqdim etməyi seçmək sağ qalan şəxsin hüququdur və sağ qalan şəxs iştirak etmədiyi təqdirdə belə təqib etmə tədbiri həyata keçirilməlidir.
5.5. Hər bir maddi əşya diqqətlə toplanmalı, qorunmalı və ayrıca sənədləşdirilməlidir.
5.6. Sübutların toplaması təcrübələri (nələrin toplanmalı və necə toplanacağı da daxil olmaqla) mütəmadi olaraq prokurorlar və digər hüquq işçiləri ilə vaxtaşırı görüşlər zamanı nəzərdən keçirilməli və yenilənməlidir.

**Mümkün məişət zorakiliği şübhəsi olduqda polis əməkdaşlarinin funksiylari**

1. Məişət zorakılığı hallarında polis əməkdaşının yerinə yetirməli olduğu ilkin funksiyalar bunlardır (bütün zorakılıq formaları ilə əlaqəli bəzi tədbirlərlə):
1.1. Qurbanı dərhal cinayətkardan ayırmaq. Tərəflər arasında əksər hallarda güc və nəzarət imkanı qeyri-bərabər olduğuna görə, polis əməkdaşının təhlükəsizliyini prioritet tutmaqla, tərəflərin bir-birini görmə və eşitmə məsafəsində olmaması təmin edilməlidir.
1.2. Qurbanın və orada olan uşaqların təhlükəsizliyini təmin etmək.
1.3. Oradakı bütün şəxsləri qorumaq üçün əl altında ola biləcək silahları müəyyən etmək və oradan uzaqlaşdırmaq.
1.4. Cinayətkarı təcrid etmək, axtarmaq və təhlükəsizliyini təmin etmək (varsa) və hadisə yerindən uzaqlaşdırmaq üçün tədbirlər görmək.
1.5. Hər hansı xəsarət alan şəxslər üçün tibbi müalicəni təşkil etmək.
1.6. Hadisə yerində olan qadınlara və hər hansı bir uşağa müvafiq səhiyyə və sosial xidmət qurumlarına istiqamətləndirmələr daxil olmaqla, lazımi səviyyədə müvafiq dəstək / yardım göstərilməsini təmin etmək.
1.7. Dil (kommunikasiya) baryerinin olub olmadığını müəyyənləşdirmək və lazım olduqda tərcüməçi ilə təmin etmək. Uşaqlar və ya ailə üzvləri tərcüməçi kimi istifadə edilməməlidir.
1.8. Polis prosedurları və məxfilik barədə xilas olan şəxsə məlumat vermək və cinayətin müəyyən edilməsi üçün baş verənlərin ilkin faktlarını müəyyənləşdirmək.

1.9. Risk qiymətləndirməsini aparmaq və gələcəkdə zərər vurulma potensialını minimuma endirmək məqsədilə lazımi müdaxilələrin həyata keçirilməsini təmin etmək üçün qurbanların gələcəkdə zorakılığla məruz qalma riskinin olub olmadığını müəyyənləşdirmək.
1.10. Polis xidmətinin istintaq prosedurlarına uyğun olaraq cinayətin bütün potensial sübutlarını toplamaq və saxlamaq, bunlar, tərəflər tərəfindən edilən hərəkətlər və ünsiyyət barədə ətraflı qeydlərin edilməsi və ittiham irəli sürülməsindən və ya bir cinayətin törədilib-törədilməməsindən asılı olmayaraq hadisənin baş verməsi barədə ətraflı hesabatı əhatə etməlidir.
1.11. Sağ qalan şəxslə ilkin bir müsahibə aparmaq (rəsmi bir yazılı açıqlama da daxil olmaqla, dərin bir müsahibə daha sonra ola bilər) (bax. Etik Təlimatlar və sağ qalanlarla müsahibə aparma məsələləri).
1.12. Bütün şahidləri (uşaqlar da daxil olmaqla) ayrı-ayrılıqda dindirmək və lazım olduqda yazılı ifadələr toplamaq.
1.13. Tələb olunan hər hansı bir ikinci araşdırma və ya xidmətləri təşkil etmək (məsələn, məhkəmə ekspertizası, tibbi müayinə).
1.14. Qurbanın qayğısına qalmaq və dəstək göstərilməsinə kömək etmək üçün qurbanlara dəstək xidmətləri ilə əlaqə saxlamaq (əgər mövcuddursa).
1.15. Cinayətkarı və ya iddia edilən cinayətkarları (polis bölməsində) sorğu-sual etmək.
1.16. Hər hansı bir ittiham irəli sürülməsindən asılı olmayaraq istintaqı, dəlilləri və ifadələri rəsmi və ətraflı baş vermə hesabatında sənədləşdirmək və gələcəkdə istinad edilmsi üçün polis xidmətinin məlumat sisteminə məlumatları daxil etmək (əlavə 4).

2. Cinsi (seksual) təcavüz:
   2.1. Cinayət yerinin təhlükəsizliyini və heç kim tərəfindən narahat edilməməsini təmin etmək (sağ qalan şəxslər, şahidlər, media və ya istintaqa cəlb olunmayan polis);
   2.2. Xilas olan şəxsi məhkəmə tibbi müəssisəsinə getmək üçün nəqliyyatla təmin etmək və ya şübhəli şəxsin tələb olunduğu / lazım olduğu kimi məhkəmə ekspertizasının keçirilməsini təşkil etmək;
   2.3. Sağ qalan şəxslərin hərtərəfli tibbi yardım (hüquqi, tibbi və sosial xidmətlər) almasını təmin etmək və hücum faktının müvəffəqiyyətlə mühakimə olunma ehtimalını artırmaq üçün qurbanları koordinasiya edilmiş cinsi təcavüzə cavab vermə qruplarına və ya mərkəzlərinə istiqamətləndirmək;
   2.4. Sağ qalan şəxslərə bütün qadınlar üçün cinsi təcavüz istintaq qrupları ilə danışmaq və ya sağ qalan şəxslər üçün ayrılmış xüsusi otaqlarda müsahibələr aparmaq imkanını təmin etmək;
   2.5. Cinsi təcavüz haqqında ətraflı məlumatı dərhal doldurmaq və hesabatları xilas olan şəxslərin istifadəsinə təqdim etmək. Çünki hesabatlar mühafizə orderləri, mülki müdafiə vasitələri, immiqrasiya vəsatətləri, sığorta müavinətləri və təzminat tələblərinin həyata keçirilməsinə kömək etdiyinə görə onları sağ qalan şəxslərə təqdim etmək;
   2.6. Şübhəli şəxsin müəyyən edilməsi, tutulması və / və ya ittiham edilməsi üçün addımlar atmaq;

3. İstintaq prosesi və işin izlənilməsi (təqibi) ilə əlaqəli digər vəzifələri əhatə etmək.

4. Şərəf (namus) əsaslı zorakılıq:
   4.1. Tərəfləri, şahidləri, o cümlədən uşaqları ayrıca müsahibə etmək;
   4.2. Səlahiyyətli bir tərcüməçidən istifadə etmək və tərcüməçi kimi çıxış etmək üçün ailə üzvlərinə, qonşularına, dostlarına və ya icma üzvlərinə etibar etməmək;
   4.3. Zorakılıq barədə məlumat vermiş şəxsin mühafizə olunmasını təmin etmək;
   4.4. Qurbanla cinayətkarlar arasında vasitəçi olmaqdan çəkinmək.

**Çoxsektorlu istiqamətləndrmə şəbəkəsinin bir hissəsi kimi digər sektorlarla əməkdaşlığin təmin edilməsi**

Milli koordinasiya mexanizmlərinin yaradılmasına əlavə olaraq, polis əsas xidmət təminatçıları ilə yerli səviyyədə əlaqədə olmalıdır, çünki qurbanlar tez-tez əsas tibbi müalicə, hüquqi yardım, təcili yardım və digər sosial xidmətlərdən istifadə etmək üçün hüquq mühafizə orqanlarından kənar dəstəyə ehtiyac duyur.

Bu, sağ qalan şəxslər və ya zorakılıq riski altına düşənlər üçün vaxtında və uyğun məsləhətlər, dəstək və müalicənin təmin edildiyi yerlərdə, inteqrasiya olunmuş cavabın bir hissəsi olaraq, polisin qurbanlar üçün ən uyğun istiqamətləndirilmələri təqdim edə bilməsinə imkan verir (əlavə №5).

Polis aşağıdakı xidmətləri göstərən təşkilatlar və ya qurumlarla (dövlət, qeyri-hökumət və icma əsaslı qruplar daxil olmaqla) sıx şəkildə əlaqələndirməlidir:

1. Təcili kontrasepsiya (hadisənin günündən başqa 5 günə qədər) və zoralama (təcavüz) hadisələri kimi zorakılıqlara məruz qaldıqdan sonra profilaktika kimi zorakılıqdan xilas olan şəxslərə təcili tibbi yardım və həyati əhəmiyyət kəsb edən müalicələr göstərən sağlamlıq klinikaları (72 saat ərzində);
2. Təcili, keçid müddətli və daha uzun müddətli sığınacaq, reinteqrasiya və sağ qalanlar və onların övladları və ya digər asılı olan şəxslər üçün yaşayış yeri;
3. Dərhal və daha uzun müddətli məsləhət verən psixo-sosial dəstək;
4. Təcili və uzunmüddətli sosial-iqtisadi dəstək və məşğulluq (işləmək) və ya təlim imkanları;
5. Təqsirkar(lar)a qarşı məhkəmə işinin aparılması üçün dəstək verən hüquqi yardım və məsləhət.

*Əlavə 1.*

## Psixoloji zorakiliği müəyyən etmək üçün suallar

İki nəfər evləndikdə və ya birlikdə yaşadıqda, ümumiyyətlə həm yaxşı, həm də pis anları paylaşırlar. İndi sizə indiki və keçmiş münasibətləriniz və ərinizin / partnyorunuzun sizə necə münasibət bəslədiyi (rəftarı etdiyi) ilə bağlı bəzi suallar vermək istərdim. Kimsə bizim söhbəti kəssə, söhbət mövzusunu dəyişdirəcəm. Bir daha sizi əmin etmək istərdim ki, cavablarınız gizli saxlanılacaq və istəmədiyiniz suallara cavab verməkmə məcburiyyətində deyilsiniz. Davam edə bilərəmmi?

İndi bir çox qadınlar üçün doğru olan bəzi vəziyyətlər barədə soruşacağam. Sizin ər / partnyorunuz (indiki və ya ən son vaxtlara qədər olan) haqqında düşündükdə, deyərdinizmi ki, ümumiyyətlə, o, doğrudanda nə vaxtsa sizə:

| No | Sual | Bəli | Xeyr | Bilmirəm |
|---|---|---|---|---|
| 1. | Dostlarınızı görməyinizə mane olmağa çalışır? | | | |
| 2. | Doğulduğunuz ailənizlə əlaqəni məhdudlaşdırmağa çalışır? | | | |
| 3. | Daim harada olduğunuzu bilmək üçün israr edir? | | | |
| 4. | Sizi görməməzlikdən gəlir və laqeyd yanaşır? | | | |
| 5. | Başqa bir kişi ilə danışarsızsa hirslənir? | | | |
| 6. | Sizin vəfasız olduğunuzdan tez-tez şübhələnir? | | | |
| 7. | Özünüz üçün səhiyyə xidmətinə getməzdən əvvəl sizin ondan icazə istəməyinizi tələb edirmi? | | | |

Növbəti suallar bir çox qadının başına gələnlər və indiki partnyorunuzun və ya başqa bir partnyorunuzun sizə etmiş ola biləcəyi ilə bağlıdır. İndiki əriniz / partnyorunuz və ya başqa bir partnyorunuz nə vaxtsa sizə....

<table>
<tr><td>Sual</td><td colspan="2">A) (BƏLİ cavabı olduqda B variantı ilə davam edin, əgər YOX cavabıdırsa növbəti məsələyə keçin)</td><td colspan="2">B) Bu, son 12 ayda olubmu? (əgər BƏLİ-dirsə yalnız C barədə soruşun. Əgər XEYR-dirsə yalnız D barədə soruşun)</td><td colspan="3">C) Son 12 ayda bunun bir dəfə, bir neçə dəfə və ya dəfələrlə baş verdiyini söyləyərdinizmi? (C-yə cavab verdikdən sonra)</td><td colspan="3">D) Son 12 aydan əvvəl bunun bir dəfə, bir neçə dəfə və ya dəfələrlə baş verdiyini söyləyərdinizmi?</td></tr>
<tr><td>Sizi təhqir etdimi, yoxsa özünüz barədə pis hiss etməyinizə səbəb oldu?</td><td>Bəli</td><td>Xeyr</td><td>Yes</td><td>Xeyr</td><td>Bir dəfə</td><td>Az sayda</td><td>Dəfə-lərlə</td><td>Bir dəfə</td><td>Az sayda</td><td>Dəfə-lərlə</td></tr>
<tr><td>Sizi başqalarının gözü qarşısında aşağıladı və ya alçaltdı?</td><td>Bəli</td><td>Xeyr</td><td>Bəli</td><td>Xeyr</td><td>Bir dəfə</td><td>Az sayda</td><td>Dəfə-lərlə</td><td>Bir dəfə</td><td>Az sayda</td><td>Dəfə-lərlə</td></tr>
</table>

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sizi qəsdən qorxutmaq və ya hədə-qorxu gəlmək üçün bir şeylər etmişdirmi (məsələn, sizə qəribə təzdə baxmaqla, qışqırmaqla və ya əşyaları sındırmaqla). | Bəli | Xeyr | Bəli | Xeyr | Bir dəfə | Az sayda | Dəfə-lərlə | Bir dəfə | Az sayda | Dəfə-lərlə |
| Sizi və ya sizə əziz olan birini incitməklə təhdid edirmi? | Bəli | Xeyr | Bəli | Xeyr | Bir dəfə | Az sayda | Dəfə-lərlə | Bir dəfə | Az sayda | Dəfə-lərlə |

| | | |
|---|---|---|
| psixoloji zorakiliq barədə hər hansi suala bəli cavabi verib -vermədiyini yoxlamaq: | Bəli | |
| | Xeyr | |

İndiki əriniz / partnyorunuz və ya başqa bir partnyorunuz nə vaxtsa sizə....

<table>
<tr><th>Sual</th><th colspan="2">A) (BƏLİ cavabı olduqda B variantı ilə davam edin, əgər YOX cavabdırsa növbəti məsələyə keçin)</th><th colspan="2">B) Bu, son 12 ayda olubmu? (əgər BƏLİ-dirsə yalnız C barədə soruşun. Əgər XEYR-dirsə yalnız D barədə soruşun)</th><th colspan="3">C) Son 12 ayda bunun bir dəfə, bir neçə dəfə və ya dəfələrlə baş verdiyini söyləyərdinizmi? (C-yə cavab verdikdən sonra)</th><th colspan="3">D) Son 12 aydan əvvəl bunun bir dəfə, bir neçə dəfə və ya dəfələrlə baş verdiyini söyləyərdinizmi?</th></tr>
<tr><td>Sizə şillə vurdu, yoxsa sənə zərər verə biləcək bir şey atdı (tulladı)?</td><td>Bəli</td><td>Xeyr</td><td>Yes</td><td>Xeyr</td><td>Bir dəfə</td><td>Az sayda</td><td>Dəfə-lərlə</td><td>Bir dəfə</td><td>Az sayda</td><td>Dəfə-lərlə</td></tr>
<tr><td>Sizi itələdi, yoxsa qəfil təkanla itələdi və ya saçınızı dartdı?</td><td>Bəli</td><td>Xeyr</td><td>Bəli</td><td>Xeyr</td><td>Bir dəfə</td><td>Az sayda</td><td>Dəfə-lərlə</td><td>Bir dəfə</td><td>Az sayda</td><td>Dəfə-lərlə</td></tr>
<tr><td>Yumruğu ilə yoxsa sizə zərər verə biləcək başqa bir şeylə vurdu?</td><td>Bəli</td><td>Xeyr</td><td>Bəli</td><td>Xeyr</td><td>Bir dəfə</td><td>Az sayda</td><td>Dəfə-lərlə</td><td>Bir dəfə</td><td>Az sayda</td><td>Dəfə-lərlə</td></tr>
<tr><td>Sizi təpiklədi, sürüklədi və ya döydü?</td><td>Bəli</td><td>Xeyr</td><td>Bəli</td><td>Xeyr</td><td>Bir dəfə</td><td>Az sayda</td><td>Dəfə-lərlə</td><td>Bir dəfə</td><td>Az sayda</td><td>Dəfə-lərlə</td></tr>
<tr><td>Sizi qəsdən boğdu və ya yandırdımı?</td><td>Bəli</td><td>Xeyr</td><td>Bəli</td><td>Xeyr</td><td>Bir dəfə</td><td>Az sayda</td><td>Dəfə-lərlə</td><td>Bir dəfə</td><td>Az sayda</td><td>Dəfə-lərlə</td></tr>
<tr><td>Sizə qarşı bir odlu silah, bıçaq və ya başqa bir silahdan istifadə etməklə hədələdimi və ya həqiqətən istifadə etdimi?</td><td>Bəli</td><td>Xeyr</td><td>Bəli</td><td>Xeyr</td><td>Bir dəfə</td><td>Az sayda</td><td>Dəfə-lərlə</td><td>Bir dəfə</td><td>Az sayda</td><td>Dəfə-lərlə</td></tr>
</table>

| | | |
|---|---|---|
| fiziki zorakiliq barədə hər hansi suala bəli cavabi verib -vermədiyini yoxlamaq: | Bəli | |
| | Xeyr | |

## Qadin bədəninin sxemi

| Ad |
| --- |
| |




**Diaqramlarda zədələri (onların ölçüləri daxil olmaqla) çəkin**

| | | | |
| --- | --- | --- | --- |
| ✕ qançır | - - - cızıq | ● qara iz | ○ siş/şişkinlik |
| H kənar | //// ağrı | ▲ sınıq/çıxıq | |

## Kişi bədəninin sxemi

| **Ad** |
|---|
| |




**Diaqramlarda zədələri (onların ölçüləri daxil olmaqla) çəkin**

- × qançır
- --- cızıq
- ● qara iz
- ○ şiş/şişkinlik
- H kənar
- /// ağrı
- ▲ sınıq/çıxıq

*Əlavə 3.*

## Cinsi zorakiliği müəyyən etmək üçün suallar

Növbəti suallar bir çox qadının başına gələnlər və indiki partnyorunuzun və ya başqa bir partnyorunuzun sizə etmiş ola biləcəyi ilə bağlıdır. İndiki əriniz / partnyorunuz və ya başqa bir partnyorunuz sizə nə vaxtsa....

| Sual | A) (BƏLİ cavabı olduqda B variantı ilə davam edin, əgər YOX cavabıdırsa növbəti məsələyə keçin) | | B) Bu, son 12 ayda olubmu? (əgər BƏLİ-dirsə yalnız C barədə soruşun. Əgər XEYR-dirsə yalnız D barədə soruşun) | | C) Son 12 ayda bunun bir dəfə, bir neçə dəfə və ya dəfələrlə baş verdiyini söyləyərdinizmi? (C-yə cavab verdikdən sonra) | | | D) Son 12 aydan əvvəl bunun bir dəfə, bir neçə dəfə və ya dəfələrlə baş verdiyini söyləyərdinizmi? | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İndiki əriniz / partnyorunuz və ya başqa bir partnyorunuz sizin istəmədiyiniz zaman fiziki zor tətbiq etməklə sizi cinsi əlaqəyə nə vaxtsa məcbur etmişdirmi? | Bəli | Xeyr | Yes | Xeyr | Bir dəfə | Az sayda | Dəfə-lərlə | Bir dəfə | Az sayda | Dəfə-lərlə |
| Yoldaşınızın və ya başqa bir partnyorunuzun sizə nəsə edə biləcəyindən qorxduğunuz üçün heç istəmədiyiniz halda nə vaxtsa cinsi əlaqədə olmusunuzmu? | Bəli | Xeyr | Bəli | Xeyr | Bir dəfə | Az sayda | Dəfə-lərlə | Bir dəfə | Az sayda | Dəfə-lərlə |
| Yoldaşınız və ya başqa bir partnyorunuz, sizin ləyaqəti alçaldan və ya təhqiramiz hesab etdiyiniz cinsi (seksual) bir şeyi etməyə nə vaxtsa məcbur etmişdirmi? | Bəli | Xeyr | Bəli | Xeyr | Bir dəfə | Az sayda | Dəfə-lərlə | Bir dəfə | Az sayda | Dəfə-lərlə |

| | | |
|---|---|---|
| Cinsi (seksual) zorakiliq barədə hər hansi suala bəli cavabi verib -vermədiyini yoxlamaq: | Bəli | |
| | Xeyr | |

*Əlavə 4*

## Mümkün məişət zorakılığı hadisəsi üçün rəsmi bildiriş formasının nümunəsi

| |
|---|
| (müəssisənin, şöbənin adı) |

**MÜMKÜN MƏİŞƏT ZORAKILIĞI HADİSƏSİ ÜZRƏ İDARƏNİN HESABATI**

| | | | |
|---|---|---|---|
| Məlumat | | Siyahıya alma yeri | |
| Polis idarəsinin məlumat bazasında qeydiyyat nömrəsi | | | |

| | |
|---|---|
| Məlumatları toplayan polis əməkdaşı | (vəzifəli şəxsin vəzifəsi, adı və soyadı)<br>______________________________ |
| Bir hadisə barədə məlumat verilməsi | ☐ şəxs ☐ digər ailə üzvləri (uşaqlar, valideynlər və s.) ☐ qurban<br>☐ elektron qaydada qəbul edilən yardım üçün zəng<br>☐ digər şəxslər (qohumlar, qonşular və s.) |
| (Ad, doğum tarixi, telefon nömrəsi) | Rəsmi hesabatın tərtib olunmasının səbəbi<br>☐ məişət zorakılığı yaşayan şəxs hadisə yerində olmayıb<br>☐ zorakılıq görmüş şəxsdən ruhi vəziyyəti səbəbiylə müsahibə (söhbət) alınması mümkün deyil<br>☐ zorakılığa məruz qalan şəxsin fiziki vəziyyətinə görə müsahibə almaq mümkün olmamışdır |
| Zorakılığa məruz qalmış şəxs | (ad, soyad, doğum tarixi, telefon nömrəsi, elektron poçt, ev ünvanı)<br>______________________________ |
| Zorakılıq yaşamış bir insana yetirilmiş xəsarətlər | ☐ qanaxma yarası (01) ☐ yara (02) ☐ sınıq (03)<br>☐ çıxıq (04) ☐ şişkinlik (05) ☐ cızılma (06)<br>☐ göyərmə (07) ☐ başqa (08) |
| Zorakılıq görən şəxsin vəziyyəti | ☐ şok vəziyyəti ☐ yüksək həyəcanlılıq<br>☐ polis ilə ünsiyyətdən yayınma ☐ açıq-aşkar hiss olunan qorxu<br>☐ açıq-aşkar sərxoş vəziyyətdə olma |
| Zorakılığa məruz qalan şəxsin xəsarət aldığı yer (xəsarət yerini göstərin və müvafiq nömrəni qeyd edin) |  |
| Zorakılıqda şübhəli bilinən şəxs | (ad, soyad, doğum tarixi, telefon nömrəsi, elektron poçt, ev ünvanı)<br>______________________________<br>______________________________ |

| | |
|---|---|
| Zorakılıqda şübhəli bilinən şəxsin vəziyyəti | ☐ görünən xəsarət yoxdur ☐ görünən zədələr ☐ sakit ☐ həyəcanlı<br>☐ aqressiv ☐ açıq şəkildə sərxoş |
| Sərxoşluğun dərəcəsi təyin olunmuşdur | __________<br>__________ |
| Zorakılıq yaşamış şəxs və zorakılıqda şübhəli bilinən şəxs arasındakı əlaqə (münasibət) | (həyat yoldaşı, partnyor, ata, ana, oğul, qız, qardaş, bacı, həyat yoldaşının valideynləri, uşaqlar, qardaşlar, bacılar və s.)<br>__________<br>__________<br>__________ |
| Ailədəki azyaşlılar (uşaqlar) | (ad, doğum tarixi) ☐ Heç biri ☐ Mövcuddur<br>__________<br>__________ |
| Azyaşlılar (uşaqlar) | ☐ Məişət zorakılığı yaşamışdır<br>☐ Məişət zorakılığın baş verdiyi bir mühitdə yaşayır<br>☐ Məişət zorakılığının şahidi olmuşdur |
| Hadisənin baş vermə zəminini izah edə bilən şəxslər | (ad, doğum tarixi, telefon nömrəsi)<br>__________<br>__________ |
| Alınmış açıqlamalar (izahatlar) | Zorakılıqda şübhəli bilinən şəxsdən və digər şəxslərdən hadisə ilə əlaqədar alınan izahatların mahiyyəti) |
| Hadisə yeri barədə məlumatlar | ☐ qaydasındadır ☐ dağınıqdıq ☐ ora-bura atılmış əşyalar (paltarlar)<br>☐ sındırılmış mebel və ya zədələnmiş digər məişət əşyaları<br>☐ Spirtli içki izləri müşahidə olunur |
| Əvvəlki məişət zorakılığı hallarına dair məlumatlar | ☐ ibtidai istintaqa səbəb olan məişət zorakılığına dair xəbərlər daxil olmuşdur<br>☐ məişət zorakılığı barədə məlumat alınmışdır və bu da məhkəməyə qədər istintaqa başlamaqdan imtina edilməsinə səbəb olmuşdur<br>☐ məişət zorakılığına dair məlumatlar daxil olmuş, lakin inspeksiya (yoxlama) zamanı məlumatlar təsdiqlənməmişdir<br>☐ qurban əvvəllər yaşadığı zorakılıq səbəbindən müvəqqəti qoruma tədbirlərinə cəlb olunub<br>☐ qurbanın qorunmasının təmin edilməsi üçün müvəqqəti tədbirlər görülür |
| Zorakılıqda şübhəli bilinən şəxsin saxlanılması və polis idarəsinə çatdırılması barədə məlumatlar: | ☐ zorakılıqda şübhəli bilinən şəxsin polis idarəsinə gətirilməsi mümkün deyildir çünki<br>__________<br>__________<br>☐ zorakılıqda şübhəli bilinən şəxs tutularaq polis bölməsinin binasına gətirilmişdir |
| Digər vacib məlumatlar | (verilən məlumatların yoxlanılmasından əldə edilən digər müvafiq məlumatlar)<br>__________<br>__________ |
| ƏLAVƏ EDİLMİŞDİR | (əlavə olunmuş sənədlərin, daşıyıcı vasitələrin adları)<br>__________<br>__________ |
| Rəsmi şəxs tərəfindən siyahıya alınmışdır | (vəzifə, imza, ad və soyad)<br>__________<br>__________ |

## *Əlavə 5*

# Məişət zorakılığına qarşı cavab tədbirlərinin alqoritmi

Cinayət yerində zəruri hərəkətlərin ardıcıllığı



**Sosial xidmət təminatçilari, Monitorinq Qruplarının nümayəndələri, Uşaq və Ailə Dəstək Mərkəzlərinin işçiləri üçün tövsiyələr**

Bu təlimatlar məişət zorakılığını dörd sahəyə ayırır: fiziki xarakterli məişət zorakılığı, psixoloji xarakterli məişət zorakılığı, cinsi xarakterli məişət zorakılığı və iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin məişət zəminində tətbiqi. Zorakılığın bir növü istifadə edilə bilər, lakin bir neçə növün birləşməsi ən çox yayılmış formadır, məsələn, bir qadına qarşı məişətdə cinsi zorakılıq, fiziki zorakılıq və psixoloji xarakterli məişət zorakılığı ilə birlikdə. Məişət zorakılığını bir deyil, bir neçə **göstəricidən** tanımaq mümkündür, buna görə də məişət zorakılığı **göstəriciləri** cəm şəklində qiymətləndirilməlidir[10].

Fiziki məişət zorakılığı bir dəfə baş verən hadisə və ya təkrarlanan, uzunmüddətli bir fəaliyyət ola bilər. Məişətdə fiziki zorakılığın səbəb olduğu fiziki zərər yüngül sıyrıqlardan, qançırlardan sümük qırılmalarına və ya hətta həyati təhlükəli yaralanmalara qədər dəyişə bilər. Adətən, ailədaxili fiziki zorakılıq bir insanın bədənində izlər buraxır, lakin tez-tez yaşanan fiziki travma, insanın dəyişmiş davranış və ya emosiyalarına görə qiymətləndirilə bilər.

Cinsi xarakterli məişət zorakılığı - kiminsə istəmədiyi, təhlükəli və ya ləyaqətini alçaldan cinsi hərəkətlə məşğul olmağa məcbur edildiyi hər hansı bir vəziyyətdir, o şəxsin onun həyat yoldaşı, birlikdə yaşadığı şəxs olsa da belə, onun cinsi təcavüzə məruz qaldığı vəziyyətdir.

Cinsi məişət zorakılığının formaları[11]:

1. təcavüz-zorlama (razılıq verilmədən nüfuz etmə);
2. cinsi zorakılıq (vajinal, anal, oral);
3. əşyalardan istifadə edərək cinsi zorakılıq:
4. ağrıya səbəb olan intim münasibətlər üçün təzyiq etmə, qurbanı döyməklə yaxın münasibətlər üçün təzyiq etmə;
5. digər insanlarla və ya başqaları qarşısında yaxın münasibət üçün təzyiq etmə;
6. menustrasiya zamanı cinsi əlaqə üçün təzyiq etmə;
7. uşaqların yanında cinsi əlaqəyə girmək üçün təzyiq etmə;
8. pornoqrafik səhnələrə baxmaq və surətini çoxaltmaq üçün təzyiq etmə;
9. cinsi əlaqəni foto ilə çəkmə və ya lentə alma.

Psixoloji məişət zorakılığı, tanımaq və təyin etmək üçün bir insana qarşı ən çətin zorakılıq formasıdır, çünki bədəndə iz qoymur, nəticələri yalnız sonra ortaya çıxır. Psixoloji məişət zorakılığı qorxutma, utanma, alçaltma, sataşma, qurbana qarşı yönəlmiş təcavüzkarlıq və şifahi ifadələrlə təhqir ilə əlaqələndirilir. Bir insan psixoloji cəhətdən zorakılıq etdikdə, o, sanki başqasının düşüncələri və hissləri ilə oynayır. Belə bir münasibətdə biri güclənldikcə, daha nəzarət edən və dominant olduqda, digəri daha itaətkar və zərər çəkmiş (incidilmiş) olduqda, iki insan arasındakı bərabərlik itir.

Psixoloji məişət zorakılığı ər-arvadlar, birlikdə yaşayan insanlar, bir ailədə valideynlər və uşaqlar arasında və ya romantik bir münasibətdə baş verə bilər. Psixoloji məişət zorakılığının ifadəsi, onun harada törədilməsinə və cinayətkarın qurban üçün nə dərəcədə vacib adam olmasına görə dəyişir. Ancaq bütün hallarda psixoloji məişət zorakılığı xoşagəlməz hisslərə səbəb olur, özünə hörməti aşağı salır və insana özünü günahkar hiss etdirir və psixoloji zorakılıq həmçinin özünüz haqqında qeyri-sabit olduğunuzu və ya əqli baxımdan narahat olduğunuzu düşünmənizə səbəb ola bilər. Psixoloji məişət zorakılığına məruz qalan insan tez-tez manipulyasiya olunur.

Məişətdə psixoloji zorakılıq aşağıdakı formalarda baş verə bilər[12]:

1. sərt tənqid etmə, kiçiltmə, "etiketləmə", üzmə, söymə, qışqırma; təhqir etmə (alçaltma)

10 https://apps.who.int/iris/bitstream/handle/10665/85240/9789241548595_eng.pdf;jsessionid=AA38F143889704D3F3E1148B7223B477?sequence=1
11 https://www.womensaid.org.uk/information-support/what-is-domestic-abuse
12 https://www.healthline.com/health/signs-of-mental-abuse#emotional-neglect-and-isolation

Psixoloji istismara məruz qalan yetkin yaşlı şəxslərin aşağıdakı davranış əlamətləri psixoloji zorakılığın aşkarlanmasına kömək edir:

1. hörmətsizlik nümayiş etdirmə;
2. mənfi ifadələr işlətmə;
3. ictimaiyyət qarşısında alçaltma (təhqir);
4. fiziki zərər vermək barədə davamlı təhdidlər
5. məişət şəraitində istismar etmə və s.

İqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin məişətdə tətbiqi –cinayətkar qurbanın özündən iqtisadi asılılığını məqsədyönlü şəkildə yaradır. Bir çox hallarda sui-istifadə edən şəxs gəlir əldə edir və ya əmlakı idarə edir, lakin məişət zorakılığının dinamikası təcavüzkarın qurbanın mövcud resurslarını tədricən aradan çıxarmağa səbəb olur və beləliklə qurbanı müqavimət göstərmək, müstəqil qərarlar qəbul etmək və ya təhqir edən partnyora zorakı münasibətləri kəsmək gücündən məhrum edir. Təcavüzkar öz gücündən və qurbanın artan asılılığından sui-istifadə edərək qurbanın işləmək və ya gələcəkdə daha yaxşı iş karyerası və daha yüksək gəlir əldə etmək üçün imkanlar yaradacaq bir təhsil almasına mane olur, şəxsi və ya ailə mülkiyyətinə girişini məhdudlaşdırır.

**Məişət zorakiliği halina şübhə yarandiqda sosial işçilərin, monitorinq qruplarinin nümayəndələrinin, ailə və uşaq dəstək mərkəzlərinin işçilərinin, qeyri-hökumət təşkilatlarinin funksiyalari**

Sosial işçi, monitorinq qrupunun nümayəndəsi, Ailə və Uşaq Dəstək Mərkəzinin işçisi, qeyri-hökumət təşkilatinin nümayəndəsi:

1. Mümkün məişət zorakılığı halına şübhə olduqda vəziyyəti aydınlaşdırmalıdır;

2. Mümkün məişət zorakılığı halı şübhəsi olduqda, sosial işçi, monitorinq qrupunun nümayəndəsi, Ailə və Uşaq Dəstək Mərkəzinin işçisi, qeyri-hökumət təşkilatinin nümayəndəsi şəxsi yardım və xidmətlər göstərmə imkanları barədə məlumatlandırılmalıdır;

3. Məişət zorakılığı qurbanı yardımı qəbul etməyə razılaşarsa, sosial işçi, monitorinq qrupunun nümayəndəsi, Ailə və Uşaq Dəstək Mərkəzinin işçisi, qeyri-hökumət təşkilatinin nümayəndəsi, peşə bilikləri və kvalifikasiyalarından istifadə edərək zərər çəkmiş şəxsə dəstək mərkəzlərindən xidmətlər almağa kömək edir;

4. Dəstək mərkəzləri aşağıdakı məsələləri icra etməlidirlər[13]:
   17.4.1. zərər çəkmiş şəxslərə hüquqi və tibbi yardım göstərmək;
   17.4.2. zərər çəkmiş şəxslərə iş tapmaqda və yeni peşə hazırlığı əldə etməkdə kömək etmək;
   17.4.3. zərər çəkmiş şəxslər üçün psixoloji reabilitasiya kursu təşkil etmək;
   17.4.4. zərər çəkmiş şəxslərə sosial müdafiə ilə bağlı müvafiq sənədlərin hazırlanmasında və sosial müavinətlərin alınmasında kömək etmək;
   17.4.5 zərər çəkmiş şəxsləri təcili sığınacaqlarla təmin etmək;
   17.4.6. zərər çəkmiş şəxslərin ailələrində normal vəziyyəti bərpa etmək üçün tədbirlər görmək;
   17.4.7. məişət zorakılığı ilə bağlı məlumatlandırma tədbirləri həyata keçirmək;
   17.4.8. zərər çəkmiş şəxslərin qarşılıqlı dəstək qruplarını təşkil etmək;
   17.4.9. zərər çəkmiş şəxslərin sosial müdafiəsi ilə bağlı digər fəaliyyətləri həyata keçirmək.

5. Dəstək mərkəzləri, zəruri hallarda, məişət zorakılığından əziyyət çəkən yetkinlik yaşına çatmayanlara üç aya qədər və digər zərər çəkmiş şəxslərə iki aya qədər sığınacaq təklif edir.

6. Dəstək mərkəzləri yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları tərəfindən yaradıla bilər. Fərdi şəxslərin mənzilləri, onların razılığı ilə, xeyriyyəçilik əsasları ilə dəstək mərkəzləri kimi istifadə edilə bilər.

13 https://rm.coe.int/eng-mapping-support-services/16809981db

7. Qeyri-hökumət dəstək mərkəzləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən akkreditasiya edilməlidir.

8. Dəstək mərkəzlərinin fəaliyyətinə dair təlimatlar və qeyri-hökumət dəstək mərkəzləri üçün akkreditasiya prosedurları müvafiq icra hakimiyyəti orqanı tərəfindən hazırlanır.

9. Dövlət dəstək mərkəzləri tərəfindən göstərilən xidmətlər pulsuzdur.

10. Zorakılıq törətmiş şəxslə əlaqəli tədbirlər Azərbaycan Respublikasının Məişət Zorakılığının qarşısının alınması Qanununa uyğun olaraq və Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində müəyyənləşdirildiyi kimi həyata keçirilir.

11. Bir uşağın mümkün zorakılığın qurbanı və ya şahidi olduğu şübhəsi varsa, ona lazım olan bütün tədbirlər ən qısa müddətdə təmin edilməlidir.

12. Məişət zorakılığı halında görülməli olan tədbirlər Əlavə 1-də göstərilmişdir

*Əlavə 6*

## Sosial işçilər üçün məişət zorakılığı üzrə istiqamətləndirmə sxemi



# Risk qiymətləndirmə alətləri

1. Risk qiymətləndirməsinin məqsədi riski proqnozlaşdırmaq deyil, qurbanlarla bağlı lazımi təhlükəsizlik tədbirlərini və mühafizəni təmin etmək üçün qiymətləndirmə aparmaqdır. Riskləri ümumilikdə aradan qaldırmaq mümkün deyil, amma zərərin azaldılması üçün qoruyucu tədbirlərin həyata keçirilməsi təhlükəsizlik baxımından uğurlu olmaq üçün böyük bir addımdır. Risk qiymətləndirməsi “zərərli bir davranışın və ya hadisənin baş verməsi ehtimalının hesablanması ... bir davranışın və ya hadisənin tezliyinin, ehtimal olunan təsirinin və kimə təsir edəcəyinin qiymətləndirilməsini əhatə edir” kimi tərif edilə bilər.

2. Bu çərçivədəki risk, qurbanların ciddi bir zərər görmə, zorakılığın səviyyəsinin artması və ya öldürülmə və ya terrora məruz qalma riski və qurbanın intihar edəcəyi həddə qədər təhdid edilməsidir. Zərər həm psixoloji, həm də fiziki, cinsi və ya şiddətli zərər kimi başa düşülə bilər. Buna görə də risk, fərdi qurbanın və onun daha çox zərərdən qorumalı olduğu yetkinlik yaşına çatmayan uşaqlarının vəziyyətinin dəyişməsinə uyğun olaraq dinamik olur və bəzən hətta qısa müddətlər ərzində belə, daim dəyişməkdədir. Risk səviyyəsini yüksəldə bilən bir sıra ağırlaşdırıcı amillər və ya xüsusi hallar var, məsələn, ayrılıq, məhkəmə iclası, uşaqla əlaqə, işsizlik, sağlamlıq problemləri və s. Dinamik mühitə hörmət etməklə risk mütəmadi olaraq və qurbanla sıx əməkdaşlıq şəraitində sistematik şəkildə qiymətləndirilməlidir.

**Fərdi risklərin qiymətləndirilməsi üzrə mexanizmin yaradılması**

↓

**Qiymətləndirmələrin aparılmasından məsul olan səlahiyyətli orqanların (hüquq-mühafizə və ya sosial qayğı) təyin edilməsi**

↓

**Azərbaycanın xüsusiyyətlərinə uyğun olaraq hazırlanmış risk qiymətləndirmə meyarlarının müəyyənləşdirilməsi**

↓

**Zəruri qanuni müddəaların qəbul edilməsi və fəaliyyətin monitorinq edilməsinin (nəzarətin) təmin edilməsi**

## Risk qiymətləndirməsi üzrə milli modelin tətbiqinə dair tövsiyələr

— Cinayət qurbanlarının hamısını əsas meyarlar (qurbanın şəxsi xüsusiyyətləri, cinayətin növü və ya xarakteri, zərər çəkmiş şəxs ilə cinayətkar arasında münasibət və cinayətin şərtləri) əsas götürülməklə ayrı-ayrılıqda qiymətləndirmək üçün mexanizm yaratmağı nəzərdən keçirmək;
— Qurbanların fərdi qiymətləndirilməsini həyata keçirmək üçün milli səviyyədə məsul olan səlahiyyətli orqanların müəyyənləşdirilməsi və təyin edilməsi - bunlar hüquq-mühafizə, məhkəmə və ya sosial yardım orqanı ola bilər;
— Risk qiymətləndirməsini həyata keçirən səlahiyyətli qurumun xüsusi hazırlanmış tədris planlarına uyğun təlim keçmiş işçi heyəti olmalıdır;
— Polis orqanları qurbanın risk qiymətləndirmə mexanizmində iştirak etməlidirlər, çünki bu qurum

qiymətləndirmənin cinayət anından hesablanaraq vaxtında aparılmasını təmin edə bilər;
- Riski qiymətləndirərkən qurbanın ehtiyac və istəklərini nəzərə almaq;
- Risklərin idarə olunması xidmətləri, qurbanın fiziki və psixoloji vəziyyətinin və eləcə də qavrayışlarının dəyişməsinə əsaslanaraq, dəyişikliklər edilməsini tələb edə bilər, buna görə də risk qiymətləndirməsini təkcə bir dəfə deyil, həm də davamlı şəkildə aparılmasını təmin etmək,
- Uşaqların risk qiymətləndirməsini aparan zaman bu həssas sosial qrupun ehtiyaclarına uyğunlaşdırılmış xüsusi meyarlara əsaslanaraq onlar barədə tədbir görülməsini təmin etmək;
- Məişət zorakılığına məruz qalanlar barədə lazımi məlumat mübadiləsini təmin etmək üçün polis və dəstək mərkəzləri arasında ortaq bir məlumat bazasına sahib olma imkanını yenidən nəzərdən keçirmək;
- Məişət zorakılığı qurbanları ilə fasiləsiz işi təmin edə bilmələri məqsədilə, dəstək mərkəzləri üçün sabit və kifayət qədər dövlət maliyyələşməsinin təmin edilməsi və təmin edilməsində səylər göstərmək.

**Beş risk kateqoriyası**

| **Risk kateqoriyası** | **Risk faktorları (amilləri)** | **İzahatlar** |
|---|---|---|
| Cinayətkarın münasibətləri və davranışı | Narkotik maddə və alkoqol istifadəsi ilə bağlı məsələlər | Nəzarətin itkisi, qəsdən hərəkətlər (özbaşınalıq), narkotik maddə əldə edilməsi ilə bağlı cinayətlər |
| | Sahibliklənmə hissi, həddindən artıq qısqanclıq və zərərli münasibətlərin digər formaları | Qurbanın kənarlaşdırılması, qurbanın bir şəxs kimi deyil, bir obyekt kimi əmlak (mülkiyyət) səviyyəsinə endirilməsi |
| | Təhdidlər və intihar cəhdləri də daxil olmaqla zəif ruhi sağlamlıqla əlaqəli məsələlər | İmpulslarına zəif nəzarət etmə, zəif empatiya (özünün başqasının yerinə qoyma bilmə) və başqalarının ehtiyaclarını başa düşmək |
| | İqtisadi stres | İşsizlik, evin və ya mənzilin itirilməsi, ödənməli borc |
| Zorakılığın tarixçəsi | Qurbana qarşı əvvəlki məişət zorakılığı | Öz çıxdığı ailəsindəki əvvəlki uşaqlıq ortaqları |
| | Uşaqlara və ya digər ailə üzvlərinə qarşı zorakılıq | Zorakılıqdan təhsil metodu kimi istifadə etmək |
| | Ümumi zorakı davranış | Cinayətkarın insanlara öz istədiyini etməyə məcbur etmək üçün qışqırmaq, hədələmək, döymək, itələmək, yandırmaq, təzyiq göstərmək. |
| | Mühafizə orderlərinin pozulması (əməl edilməməsi) | |

| | | |
|---|---|---|
| Zorakılığın formaları və nümunələri | Zorakı hərəkətlərin ciddiliyi və tezliyi | Tək bir hadisə və ya artan intensivliyi ilə müntəzəm cəhdlər |
| | Silahla təhdidlərin istifadəsi | Kəmər, siqaret, dubinka, at qamçısı, bıçaq, tapanca, tüfəng |
| | Nəzarətedici davranış və | Alış-veriş (bazarlıq) vaxtının, iş vaxtının yoxlanılması; dəvət edən və ya qonaq gələn dostların olmaması |
| | təcrid etmə | Davamlı şəkildə və ya hədələməklə birinin ardınca getmək kimi hərəkətlər etmək və ya cinayət etmək |
| | Təqib etmə | Hər hansı bir cinsi hərəkət, cinsi hərəkət əldə etmək cəhdi, istənməyən cinsi şərhlər və ya irəliləyiş etmələr, ya da qurbanla münasibətlərindən asılı olmayaraq, hər hansı bir şəxs tərəfindən məcburiyyət tətbiq edərək bir şəxsin cinsiyyətinə qarşı hərəkət edən və ya başqa bir şəkildə buna yönəldilən hərəkətlər, bu hərəkətlər yuxarıda qeyd olunanları əhatə edir amma ev və işlə məhdudlaşmır. Cinsi zorakılıq zorakılığı (təcavüz) və cəhd eilmiş təcavüzləri əhatə edir. Kontrasepsiya istifadə etmək hüququndan imtina edilməsi |
| | Cinsi zorakılıq | Güc dərəcələrinin bütün spektrini əhatə edə bilər. Ayrıca bir fiziki güc, bu, psixoloji qorxutma, şantaj etmə və ya digər təhdidləri əhatə edə bilər - məsələn, fiziki zərər təhdidi, işdən çıxarılma və ya əldə etmək istədiyi bir işi əldə etməməklə. Bu, zərər şəkmiş şəxsin razılıq verə bilməməsi halında da baş verə bilər - məsələn, sərxoş olarkən, narkotik maddə qəbul etmiş vəziyyətdə, yuxuda və ya zehni olaraq vəziyyəti başa düşə bilmədiyi halda |
| | Öldürmək üçün təhdidlər, zərər vermə təhdidləri | |
| | Məcbur etmə | |
| | Boğma və şok etmə | Boşanma |
| Ağırlaşdırıcı hallar | Uşaqla əlaqə | Uşaqlar və cinayətkar üçün əlaqə saxlama hüququnun təşkil dilməsi |
| | Ailədə yaşayan ögey uşaq | Ögey uşaqların əlaqə saxlama hüquqları |
| | Hamiləlik zaman zorakılıq | Fiziki, cinsi (seksual) və ya emosional zorakı hərəkətlər və nəzarət davranışları ilə özünü göstərir. Xüsusilə hamiləlik dövründə baş verən fiziki zorakılığın bir növü, zorakı partnyorunun bir qadının qarnını hədəf alması və bununla da qadınları incitmək deyil, həm də hamiləliyi təhlükə altına almaqdır. |
| Qurbanın risk anlayışı (riski qavraması) | Özü və başqaları üçün qorxma | Məişət zorakılığının qurbanları tez-tez məişət zorakılığını törədənlərin zərər vermə risklərini qiymətləndirməməyə meyl edirlər. Bununla birlikdə, özlərinə, övladlarına (uşaqlarına) və ya başqalarına daha çox zərər verəcəyindən qorxduqlarını bidirərlərsə, gələcəkdə zərər vermə risklər qiymətləndirilərkən bunlara ciddi yanaşılmalıdır. |

## Dəlillərə əsaslanan risk faktorlarının siyahısı

| No. | Risk faktoru | İzahat |
|---|---|---|
| 1.Zorakılığın tarixçəsi | | |
| A. | Qurbana qarşı əvvəlki məişət zorakılığı[14,15,16,17] | Qadınlara qarşı məişət zorakılığının risk faktorları üzərində aparılan tədqiqatlar, əvvəlki məişət zorakılığı ən çox ümumi risk faktoru kimi görülür. |
| B. | Uşaqlara və ya digər ailə üzvlərinə qarşı zorakılıq | Evdə baş verən tez-tez zorakılıq, uşaqlar da daxil olmaqla digər ailə üzvlərinə də yayılacaqdır. Bir uşağın təhlükəsizliyi üçün ilk narahatlıqlar bir ailə daxilində daha geniş zorakılıq nümunələrini ortaya çıxara bilər[18]. Uşaqlar cinayətkar tərəfindən bir qurban üzərində emosional manipulyasiya və nəzarət metodu kimi də istifadə edilə bilər. (Məişət Zorakılığının Duluth Modeli)<br><br>Bir çox dəlillər vardır ki, zorakılıq görən uşaqlara qarşı risklər çox vaxt ciddi qəbul edilmir[19]. |
| C. | Ümumi zorakı davranış | Məişət zorakılığını törədən şəxslər də əksər hallarda ümumi anti-sosial münasibətlər, davranışlar göstərirlər və məişət sahəsindən kənarda zorakılıqdan istifadə edirlər[20, 21].<br><br>Ailənin xaricindəki zorakılıq ümumi bir şiddət tətbiq etməyə onun ümumi meylini göstərir, vu bu, ailə üzvü üçün riski artıra bilər və mütəxəssislər də daxil olmaqla digər insanlar üçün risk yaradır. |
| D. | Mühafizə orderlərinin pozulması (əməl edilməməsi) | Mühafizə orderlərinin (polis, cinayət və ya mülki məhkəmələr tərəfindən) pozulması və təmas olması və ya təmasın olmaması barədə əmrlər, gələcəkdə zorakılıq riskinin artması ilə əlaqələndirilir[22, 23] |
| 2. Zorakılığın formaları və nümunələri | | |
| E. | Zorakı hərəkətlərin ciddiliyi və tezliyi | Zorakılıq əməllərinin artan ciddiliyi və tezliyi, ağır və potensial ölümcül hücumların ən əhəmiyyətli amillərindən biridir |
| F. | Silahdan istifadə edilməsi / silahla təhdid etmə | Silahın istifadəsi və ya istifadə etməklə təhdid etmə, ciddi və ölümcül zorakılıq üçün əhəmiyyətli bir risk faktorudur. MZ-da odlu silahları, bıçaqlar və qurbanları incitmək üçün alət ola biləcək təhlükəli əşyalar daxil olmaqla bütün silahlar nəzərə alınmalıdır |

14 Kropp, R. and Hart, S. (2000). "Ər tərəfindən zorakılıq riskinin qiymətləndirilməsi üzrə təlimatlar: Yetkin kişi zərəryetirənlərə münasibətdə etibarlılıq". Qanun və İnsan Davranışı, Cild.24, No.1, səh. 101-118.
15 Grann, M. və Wedin, I. (2002). "Qadın qətli törətmiş cinayətkarlar arasında residivizm üzrə risk faktorları". Psixologiya, Cinayət & Qanun, Cild. 8 No. 1, səh. 5-23.
16 Snider, C. və başqaları. (2009). "İntim partnyor zorakılığı: Fövqəladə Hallar İdarəsi üçün Qısa Risk Qiymətləndirməsinin hazırlanması". Akademik Təcili Tibbi Yardım Cəmiyyəti, Cild. 16, No. 11, səh. 1208 – 216.
17 Campbell, J. C. və başqaları. (2009). "Təhlükənin qiymətləndirilməsi, intim partnyor qətlində ölüm riskinin qiymətləndirməsi üzrə alətinin təsdiqlənməsi". İnsanlararası zorakılıq jurnalı, Cild. 24, No. 4, Sage Publications, səh. 653-674.
18 Paymar, M. və Barnes, G. (2004). "Duluth Modeli ilə bağlı çaşqınlığa son". 12/06/15 tarixində bu mənbədən əldə olunub: http://www.theduluthmodel.org/pdf/CounteringConfusion.pdf
19 Mullender, A. və başqaları. (2002). Uşaqların Məişət Zorakılığı ilə bağlı Baxışları. London: Sage
20 Hester, M. (2006). "məişət zorakılığına dair sullar – praktikada təsirləri", Humphreys, C. və Stanley, N. (Eds), Məişət zorakılığı və uşaqların müdafiəsi – yaxşı təcrübə ilə bağlı istiqamətlər. London: Jessica Kingsley Publishers
21 Dutton, D.G. & Knopp, R. P. (2000). "Məişət zorakılığı üzrə risk alətlərinin nəzərdən keçirilməsi". Zorakılıq və Şiddət. Cild 1 No 2. pp. 171-181.
22 Kropp, R. və Hart, St. (2000), səh. 101-118.
23 Grann, M., Wedin, I. (2002), səh 5-23.

| | | |
|---|---|---|
| G. | Nəzarətedici davranış və təcrid etmə | Nəzarətedici davranış təkrarlanan ağır və potensial ölümcül zorakılıq üçün əhəmiyyətli bir risk faktoru kimi qəbul edilir. Təcrid etmə nəzarət üçün ümumi bir strategiyadır və azadlıqdan məhrumetmə (qadınları və uşaqları evə bağlamaq) kimi ağır formaları ala bilər[24, 25, 26, 27,28] |
| H. | Təqib etmə | Təqib etmə, ailə üzvlərinə qarşı ölümcül və ciddi şiddətlə əlaqəlidir və fiziki təcavüzlə tamamlanmışdır. Bu, qətlə yetirmə və cəhd edilmiş qətl ilə əhəmiyyətli dərəcədə əlaqələndirilir[29] |
| I. | Cinsi (seksual) zorakılıq | Cinsi zorakılıq ümumiyyətlə qadınlara qarşı MZ-nın bir hissəsi kimi baş verir[30]. Cinsi təcavüzə məruz qalan qadınların MZ zamanı daha ciddi xəsarət və coxsaylı ardıcıl təcavüzlərə məruz qalma ehtimalı daha yüksəkdir[31] |
| J. | Öldürməklə təhdidlər, zərər vurmaqla hədələmək, məcbur etmək | Praktiki təcrübə göstərir ki, zorakılıqdan əvvəl bir çox hallarda hədə-qorxu gəlinir, Məcbur etmə, məcburi evlilik də daxil olmaqla müxtəlif ağır formalarda ola bilər[32] |
| K. | Böğma və Şok etmə | Boğma və şok etmə çox təhlükəli bir zorakılıq formasıdır; qətlə yetirilmiş qurbanlarının təxminən yarısı, ölümlərindən bir il əvvəl boğma cəhdi ilə qarşılaşır.[33, 34, 35] |

3. Cinayətkarın davranışı il

| | | |
|---|---|---|
| L. | Narkotik maddə və alkoqol istifadəsi ilə bağlı məsələlər | Narkotik maddə və alkoqol istifadəsi qadınlara qarşı məişət zorakılığının səbəbi və ya bəhanəsi olmadığı halda, bir cinayətkarın alkoqol və narkotik maddədən istifadə etməsi qətl etmə və daha ağır zorakılıq risklərinin artması ilə əlaqələndirilir.[36, 37] |
| M. | Sahibliklənmə hissi, həddindən artıq qısqanclıq və zərərli münasibətlərin digər formaları | Həddindən artıq qısqanclıq və sahiblənmə hissi zorakılıq ilə əlaqələndirilir.[38, 39]<br><br>Bundan əlavə, cinayətkarların patriarxal (ataerkil) münasibətləri, kişi və ya ailə namusu il bağlı çox sərt anlayışlar və qadınlara və uşaqlara sahiblik hissi risklərə təsir edə bilər.[40, 41] |

24 Echeburua, E., və başqaları. (2009). “İntim partnyor qətlində və kəskin zorakılıq halında risk faktorlarının qiymətləndirilməsi”. Şəxslərarası zorakılıq jurnalı, Cild 24, No.6, Sage Publications, səh. 925-939.
25 Humphreys, C. və başqaları. (2005). Profilaktika proqnoz deyil? Metropolitan Polisinin Məişət Zorakılığı Riskinin Qiymətləndirilməsi Modelinin ilkin qiymətləndirilməsi (SPECCS). London: Təhlükəsizlik və Rifahın Tədqiqi Mərkəzi, Warwick Universiteti, Uşaq və Qadın Zorakılığı Araşdırma Bölməsi, London Metropolitan Universiteti.
26 Campbell, J. C. və başqaları. (2003). “Zorakı münasibətlərdə qadin qətli üzrə risk faktorlari: Hərtərəfli hal-nəzarət araşdırmasının nəticələri”. Amerikanın İctimi Səhiyyə Jurnalı, Cild. 93, No.7, səh. 1089-1097.
27 Bailey, J. və başqaları. (1997). “Qadınların evdə zorakılıqla öldürülməsi üzrə risk faktorları”. Daxili Tibb Arxivləri, Cild. 157, No.7, səh. 777-782.
28 Decker M R., Martin S L., Moracco K E. (2004). “Partnyorları tərəfindən zorakılığa məruz qalan hamilə qadınlar arasında qətlin riski faktorları”. Qadınlara qarşı zorakılıq, Cild. 10, No.5, Sage Publications, səh. 498-513.
29 McFarlane, J. M. və başqaları. (1999). “İzləmə və intim partnyor qətli”. Qətl üzrə tədqiqatlar, noyabr 1999-cu il, cild. 3 no. 4, səh. 300-316.
30 Howarth, E. və başqaları. (2009). Təhlükəsizlik rəqəmlərlə: Müstəqil Məişət Zorakılığı Məsləhətçi Xidmətlərinin Hərtərəfli Qiymətləndirilməsi, London: The Henry Smith Charity. 12/06/2015-ci il tarixində bu mənbədən əldə olunub: http://www.henrysmithcharity.org. uk/documents/SafetyinNumbersFullReportNov09.pdf
31 Humphreys C və başqaları. (2005)
32 Robinson, A. (2010). “Risk və intim partnyor zorakılığı”, Kemshall, H. və Wilkinson, B. (Eds) Riskin qiymətləndirilməsi və risklərin idarə edilməsində yaxşı təcrübə (3-cü buraxılış). London: Jessica Kingsley Publishers, səh. 123.
33 Glass, N. və başqaları. (2008). “Boğma öldürməyə cəhd və törədilmiş qətl halları üçün vacib risk faktorudur”. İlkin tibbi yardım jurnalı, 35, 329-335.
34 Block, C. R. və başqaları. (2000). Çikaqo Qadın Sağlamlığı Araşdırması: İntim zorakılıqda ciddi xəsarət və ya ölüm riski: Birgə tədqiqat layihəsi. Vaşinqton, DC: ABŞ Ədliyyə Nazirliyi, Milli Ədliyyə İnstitutu.
35 Snider, C. və başqaları. (2009), səh. 1208 – 1216.
36 Decker M R., Martin S L., Moracco K E. (2004). “Partnyorları tərəfindən zorakılığa məruz qalan hamilə qadınlar arasında qətlin riski faktorları”. Qadınlara qarşı zorakılıq, Cild. 10, No.5, Sage Publications, səh. 498-513.
37 Bailey, J. və başqaları. (1997), səh. 777-782.
38 Robinson, A. L. (2006). “Məişət zorakılığının yüksək riskli qurbanları arasında təkrar zorakılıq hallarının azaldılması. Kardiff, Uelsdə koordinasiyalı icma reaksiyasının faydaları”. Qadınlara qarşı zorakılıq, Cild.12. No. 8, Sage Publications, səh. 761- 788.
39 Snider, C. və başqaları. (2009), səh. 1208 – 1216.
40 Dutton, D.G. və Knopp, R. P. (2000). “Travmada məişət zorakılığı riski alətlərinin nəzərdən keçirilməsi”. Zorakılıq və şiddər, Cild 1 No.2.
41 Hilton, N.Z., Harris, G.T. və Rice, M.E. (2001). “Həyat yoldaşlarına təcavüz edənlər tərəfindən zorakılığın proqnozlaşdırılması”. Şəxslərarası zorakılıq jurnalı, Cild 16 No 5 səh. 408-423.

| | | |
|---|---|---|
| N. | Təhdidlər və intihar cəhdləri də daxil olmaqla zəif psixi sağlamlıqla əlaqəli məsələlər | Cinayətkarlar psixi sağlamlıq problemləri, depressiya da daxil olmaqla, təkrarlanan və ağır zorakılıq riskinin artması ilə əlaqələndirilir. İntihar etmək təhdidləri və cinayətkarın zehni sağlamlığı adam öldürmə - intihar hadisələri üçün risk faktorlarıdır. Qətl hadisələrinin 32%-də cinayətkar sonradan intihar etmişdir.[42, 43, 44] |
| O. | İqtisadı Stres | Cinayətkarın maddi vəziyyətindəki dəyişikliklər və işsizlik, ailə zorakılığı ilə əlaqəli qətl hadisələri üçün güclü risk faktorlarıdır və kişilik (anlayışı) və gender rolları anlayışları ilə əlaqələndirilir[45] |

4. Qurbanın risk qavrayışı

| | | |
|---|---|---|
| P. | Özü və başqaları üçün qorxma | Tədqiqatlar göstərir ki, qurbanın özü tərəfindən riskin qiymətləndirilməsi ilə cinayətkarın həqiqi zor tətbiq etməsi arasında güclü bir əlaqə var. Bununla belə, bəzi zorakılıq qurbanları zorakılığı minimuma səviyyədə qavraya və ya aşağı qiymətləndirə bilər. Campbell və digərləri (2003) tərəfindən femisid (qadın qətli) tədqiqatları göstərir ki, qurbanların təqribən yarısını, cinayətkarın onları öldürməsi riskinin olduğunu anlamamışdır.[46,47,48,49,50] |

5. Agırlaşdırıcı faktorlar

| | | |
|---|---|---|
| Q. | Ayrılma | Ayrılma ümumilikdə ağır zərər vermə və ya qətlə yetirmə üçün əhəmiyyətli bir risk faktoru kimi başa düşülür[51]. |
| | Uşaqla Əlaqə | Ayrılıqdan sonra uşaqla əlaqə (təmas) ilə bağlı olan münaqişə ümumi yayılmış haldır və çox vaxt həm qadınlar, həm də uşaqlar üçün təkrar zorakılıq riski yaradır[52]. |
| | Ailədə yaşayan ögey uşaq | Partnorlar və ya ər-arvad arasında məişət zorakılığı üzrə risk faktorları, cinayətkarın evdə yaşayan hər hansı ögey övladını da əhatə edir[53]. |
| | Hamiləlik müddətində zorakılıq | Məişət zorakılığının təxminən 30% -i hamiləlik dövründə başlayır. Hamiləlik dövründəki şiddət, zorakı və ölümcül zorakılıq üzrə risk faktorudur. Hamilə qadınlarda hamilə olmayan qadınlara nisbətən kiçik və ağır şiddət riskləri daha yüksəkdir[54,55,56,57,58] |

42 Randall, K. və Hart, S. (2000). "Həyat yoldaşı tərəfindən zorakılıq riskinin qiymətləndirilməsi üzrə təlimat (SARA): Yetkin kişi zərəryetirənlərə münasibətdə etibarlılıq". Qanun və İnsan Davranışı, Cild.24, No.1, səh. 101-118, http://www.springerlink.com/ content/n1716vh2852l3637/, 16.11.2010-cu il tarixində əldə olunub.
43 Regan, L. və başqaları. (2007). Kaş bilsəydik: Engleşirdə Şiddətli İntim Partnyor Cinayətlərinin Tədqiqi. CWASU. London Metropolitan Universiteti.
44 Campbell, J.C. və başqaları. (2003). "Zorakı münasibətlərdə qadin qətli üzrə risk faktorlari: Hərtərəfli hal-nəzarət araşdırmasının nəticələri". Amerikanın İctimi Səhiyyə Jurnalı, Cild. 93, Vol. 93, No.7, pp. 1089-1097.
45 Campbell, J. C. və başqaları. (2009). "Təhlükənin qiymətləndirilməsi, intim partnyor qətlində ölüm riskinin qiymətləndirməsi üzrə alətinin təsdiqlənməsi". İnsanlararası zorakılıq jurnalı, Cild. 24, No. 4, Sage Publications, səh. 653-674.
46 Roehl, J. və başqaları. (2005). İntim Partnyor Zorakılığı Riskinin Qiymətləndirilməsi – Təsdiqləyici Araşdıırma. Yekun hesabat. ABŞ-ın Ədliyyə Nazirliyi
47 Weisz, A., Tolman, R. və Saunders, D. G. (2000). "Ağır məişət zorakılığı riskinin qiymətləndirilməsi". Şəxslərarası Zorakılıq Jurnalı, Cild. 15m No.1, səh.75-90.
48 Gondolf, E. W., və Heckert, D. A. (2003). "Qadınların zorakı münasibətlərdə risk qavrayışlarının müəyyənediciləri". Zorakılıq & Qurbanlar, Cild. 18, No.4, səh.371-386.
49 Heckert, D. A., və Gondolf, E. W. (2004). "Döyülmüş qadınların riskə haqqında qavrayışları risk faktorlarına qarşı və təkrar hücumun proqnozlaşdırılması alətləri". Şəxslərarası Zorakılıq Jurnalı, Cild. 19, No.7, səh. 778-800.
50 Campbell, J.C. və başqaları. (2003), səh. 1089-1097.
51 Humphreys, C., və Thiara, R. K. (2003). "Nə ədalət, nə də müdafiə: Qadınların ayrılıq sonrası zorakılıq təcrübələri". Sosial Rifah və Ailə Hüququ Jurnalı, Cild.25, səh. 195-214.
52 Həmin mənbə.
53 Campbell, J.C. və başqaları. (2003), səh. 1089-1097.
54 Humphreys C, və başqaları. (2005). Məişət Zorakılığının Qarşısının Alınması və Mübarizə üzrə Effektiv Qurumlararası Əməkdaşlıq. Səhifə 54.
55 Snider C, Webster D, O 'Sullivan C, Campbell J C. (2009): İntim partnyor zorakılığı: Fövqəladə Hallar İdarəsi üçün Qısa Risk Qiymətləndirməsinin hazırlanması". Akademik Təcili Tibbi Yardım Cəmiyyəti, Cild. 16, No. 11, səh. 1208 – 1216,.
56 Lewis, G, Drife, J, və başqaları. (2001). Analar niyə ölür: Böyük Britaniyada ana ölümləri ilə bağlı məxfi sorğulardan hesabat 1997-9. RCOG və NICE tərəfindən Səhiyyə Departamentinin sifarişi ilə hazırlanmışdır, London: RCOG Press.
57 McWilliams, M. və McKiernan, J. (1993). Üzə çıxarılma: Şimali İrlandiyada məişət zorakılığı. Belfast: HMSO.
58 Gelles, R. J. (1988). "Zorakılıq və hamiləlik: hamilə qadınlar zorakılıq riskinə daha çoxmu məruz qalır?". J. Marriage Fam. 50, 841.

## Qurbanın risk qiymətləndirməsi formasının nümunəsi

| | | | |
|---|---|---|---|
| **(Tarix)** | | **(Vaxt)** | |
| **Məhkəməyə qədər istintaq** | | **(Say)** | |
| **(Qurbanın adı)** | | | |
| Qiymətləndirmə aparılmalıdır | cinayət əməli törədildikdən dərhal sonra | cinayət əməli törədildikdən 1 gün müddətində | Cinayət əməli törədildikdən sonra 1 gündən daha çox müddətdə |
| Cinayət prosesinin potensial mənfi təsirlərinin qiymətləndirilməsi (etiket +) | Sütun 1-dəki bütün cavablar Bəli - 2 bal | Sütun 2-dəki bütün cavablar Bəli - 1 bal | Sütun 3-dəki bütün cavablar Bəli - 0 bal |
| **Cinayət əməli haqqında məlumatlar** | | | |
| | Sütun 1 | Sütun 2 | Sütun 3 |
| Cinayət əməlinin mahiyyəti | Zorakılıq və ya cinsi xarakterli çox ağır və ağır cinayətlər və məişət zorakılığı ilə əlaqəli cinayət əməlləri | Zorakılıq və ya cinsi xarakterli daha az ağır və kiçik cinayətlər | Başqa xarakterli cinayətlər |
| Əməlin yönləndirildiyi tərəf | Qurban | Qohumlar | Əmlak |
| Təsirin növü | Fiziki zorakılıq | Psixoloji zorakılıq | Zorakılıq istifadə edilməmişdir |
| Dəymiş itki | Fizili | Mənəvi | Əmlak |
| Xarici zədələr Heç bir əhəmiyyətli zədə kiçik bir zədə deyil | Əhəmiyyətli xəsarət | Kiçik xəsarət | Xəsarət yoxdur |
| **Qurban haqqında məlumatlar** | | | |
| Sağlamlıq (müşahidə edilə bilən əlamətlər və ya tapıntılar) | Fiziki sağlamlığın pozulması | Fizioloji sağlamlığın pozulması | Məlumat yoxdur |
| Sosial mühit (*ailə vəziyyəti, maddi vəziyyət, iş münasibətləri və s.)* | Mənfi (*asosial həyat tərzi)* | Məlumat yoxdur | Müsbət |
| Digər əhəmiyyətli məlumatlar (*milliyyət, vətəndaşlıq, dini, etnik və ya digər qrupun üzvü)* | Cinayət əməli üzərində bir təsiri olmuşdur | Cinayət əməlinə təsiri müəyyən edilməmişdir | Cinayət əməli üzərində heç bir təsiri olmamışdır |
| Cinayətkarla münasibət | Tanış bir adam | Yad bir insan (tanış olmayan) | Qeyri-müəyyəndir |
| Cinayətkardan asılılıq | Maliyyə asılılığı | Başqa bir asılılıq (*işgüzar, emosional)* | Asılılıq yoxdur |

| | | | |
|---|---|---|---|
| Qiymətləndirmə zamanı davranış | Travmadan sonrası aşkar vəziyyət (*yüksək həyəcanlanma, uyğunsuz danışıq, istiqamətdən çıxma və s.)* | Aşkar narahatlıq, qorxu | Aşkar əlamətlər yoxdur |
| Məhkəmə prosesindəki rolu | Konkret olaraq cinayətkara aiddir | Şahidlik ifadələri qismən cinayətkarı müəyyənləşdirir | Şahidlik ifadələri cinayətkarın şəxsiyyətini müəyyənləşdirmir |
| Cinayət təsiri | Məlum (bəlli) | Ehtimal vardır | Qeyri-müəyyəndir |
| Digər faktorlar | Qohumların düşmənçiliyi | Müəyyən edilməyib | Qohumlar tərəfindən dəstək |
| **Cinayətkar haqqında məlumatlar** | | | |
| Şübhəli | Müəyyən edilmişdir | Detallar bəllidir | Müəyyən edilməmişdir |
| Cinayət əməli ... tərəfindən törədilmişdir* | Qrup | Tək adam | Müəyyən edilməmişdir |
| Cinayətkarın xüsusiyyətləri* | Məhkum edilmişdir | Müəyyən edilməmişdir | Məhkum edilməmişdir |
| | Təcavüzkar, münaqişəli | Müəyyən edilməmişdir | Müsbət |
| **BALLARIN CƏMİ** | | | |
| ÜMUMİ | | | |

*şəxs müəyyən edildikdə tamamlanmalıdır

| | | | |
|---|---|---|---|
| **QİYMƏTLƏNDİRMƏ:** | Yüksək risk (21 baldan) | Orta risk (11 ilə 20 bal) | Aşağı risk (10 bala qədər) |

# Hakimlər üçün məişət zorakılığı qurbanlarına hüquqi və psixoloji yardım üzrə tövsiyələr

Müxtəlif mənbələrdə məişət zorakılığı anlayışı aydınlaşdırılarkən məişət zorakılığının davranışla və hüquqi tərəfi ilə bağlı tərifləri arasındakı fərqlər xüsusi olaraq vurğulanır.

Davranışla bağlı tərif ümumiyyətlə intim partnyor üzərində güc və nəzarət qazanmaq üçün istifadə edilən məcburedici davranışlar nümunəsinə istinad edir. Digər tərəfdən, əksər ölkələrdə hüquqi tərif daha geniş şəkildə verilir və mənzil sakinləri arasında olan zorakılığı da əhatə edir. Hər bir tərifə daxil olan davranış növlərində də fərqlər var. Bir çox dövlətlərdə məişət zorakılığının hüquqi tərifi, hücum, boğma, təqib etmə, qətlə yetirmə və ya cinsi təcavüz kimi bir sıra cinayət əməllərinə əsaslanır. Digər tərəfdən, davranışla bağlı müxtəlif təriflərdə cinayət əməlləri hesab olunmayan müəyyən davranışlar da əhatə olunur. Bunlara qurbanların özünə hörmətini aşağı salmaq, qurbanlarını dostlarından və ailəsindən təcrid etmək və ya qurbanların maliyyə vəziyyətinə nəzarət etmək daxildir. Dinamikanı əsas götürən mənbələr, praktikaya yönəlmiş mənbələrlə yanaşı, ilk növbədə intim partnyor zorakılığının davranışla bağlı tərif(ləri) i haqqında məlumat verməyi hədəfləyir. Cinayət məhkəməsi müdaxilələri xüsusi olaraq məişət zorakılığı cinayətlərinə toxunsa da, davranışla bağlı təriflər məişət zorakılığı kontekstini dair fikirlər (təsəvvürlər) verir və mülki və ya cinayət məhkəməsinin müdaxiləsində istifadə olunabilir.

Vurğulanmalıdır ki, psixoloji zorakılıq öz-özlüyündə məişət zorakılığının hüquqi tərifinə tam cavab verməsə də, bu zorakılıq növü, zorakılıq edən şəxsin niyyətinin və ya planının dəlillərini təqdim etdiyi üçün məişət zorakılığı ilə əlaqəli məhkəmə prosesində aktual ola bilər. Bundan əlavə, psixoloji zorakılığa dair dəlillər zorakılıq hərəkətləri və qurban barədə məlumatlar verə bilər. Aydındır ki, məişət zorakılığının davranışla bağlı tərifini başa düşmək hakimin çox vaxt mürəkkəb hallarda məlumatlı (əsaslandırılmış) qərar qəbul etməsinə kömək edə bilər.

Buna baxmayaraq, belə qənaətə gəlmək olar ki, məişət zorakılığı həyatları bir-birinə yaxından bağlı olan insanları əhatə edir; qurban və təcavüzkar bir evdə yaşaya bilərlər və / və ya birlikdə uşaq sahibi ola bilərlər. Zərərçəkən şəxs və təcavüzkar bir-birini yaxından tanıyır, bəziləri isə məhkəmə prosesi zamanı birlikdə yaşamağa davam edir. Həddindən artıq zorakılıqlar mərhələsinin sonunda cinayətkarın zorakı olmadığı və onun peşmanlıq keçirdiyi dövrlə əvəz olunduğu fərqli bir nümunə də mövcuddur. Bu, zorakılıq dövriyyəsi olaraq bilinir; burada şiddətin yüksəlməsi, zəifləməsi (peşmançılıq dövrü) və daha sonra zorakılığın davam etməsi dövrləri mövcuddur. Hüquqşünasların, risk qiymətləndirmələrini həyata keçirərkən və ya bir təcavüzkarın zorakı davranış tarixçəsini qiymətləndirərkən zorakılıq dövrünün necə işlədiyini bilməsi vacibdir. Zorakılığın bütün növləri arasında, məişət zorakılığı təkrar zorakılığa məruz qalma üzrə ən yüksək dərəcəyə malikdir. Məişət zorakılığı halları hüquq sisteminə daxil olduqda, bu, ümumiyyətlə xüsusi şəkildə ağır yaşanmış bir epizoddan sonra olur və nadir hallarda ilk dəfə baş verən bir hal olur. İngiltərədə aparılan bir cinayət araşdırması aşkar etmişdir ki, bir qadın polisə ilk çağırış etməzdən əvvəl orta hesabla 35 məişət zorakılığı hadisəsi yaşamış olur. Prokurorlar və hakimlər bu aşkar edilən faktı unutmamalı və hadisənin ciddiliyini azaltmamağa, qurbana səbr göstərməsini və ya qurbanla cinayətkarın 'barışmaq' yollarını düşünməsini təklif etməməlidirlər. Bir qurban öz hüquqlarını hüquq sistemi vasitəsi ilə qorumaq üçün addımlar atmağa qərar verdikdən sonra, çox güman ki, başqa variantları da sınaq edib və onların tükəndiyini və nəticəsiz qaldığını görmüşdür. Əlavə olaraq, kömək istəyən qurbanların əksəriyyəti zorakılığa son qoymaq üçün motivasiya olunur, lakin ərlərinin və ya partnyorlarının həbs olunmasını istəmirlər. MZ hallarının xarakteri prokurorlardan və hakimlərdən empatik (özünü başqasının yerinə qoyma) və anlayışlı bir yanaşma tələb edir. Onlar təcavüzkarların məhkum olunmalarını təmin etmək üçün qurbanları dəstəkləməyə hazır olmalıdırlar. Məişət zorakılığına dözümlü yanaşılmayacağı barədə cəmiyyətə açıq mesajların çatdırılmasında hüquqşünasların eyni dərəcədə vacib rolu var.

**Məişət zorakılığı barədə miflərin dağıdılması**

**Cədvəl 1. Doğru və ya Yanlış cavab anketi - müzakirə**

| Bəyanat | Müzakirə zamanı nəzərə alınmalı məqamlar |
|---|---|
| Məişətdə / intim münasibətdə olan zorakılıq ciddi xəsarətə səbəb olur. | Doğru. Psixoloji travma və fiziki zədələr bir-birilə bağlıdır və fiziki və zehni sağlamlığa ciddi təsir göstərir. Məlumat verilən ən çox yayılmış zorakılıq hərəkətləri üzə və bədənə şillə vurmaq / itələmək və ya yumruq vurmaq olsa da, qadınlar digər cinayətkarlardan daha çox yaxın partnyorları tərəfindən öldürülür. |
| Bir cinsi münasibət əlaqəsində olan iki kişi və ya iki qadın arasındakı zorakılıq, bərabər səviyyədə olan şəxslər arasındakı “dava” - dır | Yanlış. İntim bir partnyor tərəfindən zorakılıq, bir insanın başqa birinin düşüncələri, davranışları və inancları üzərində güc və nəzarət sahibi olmasıdır. Cinsi oriyentasiya / gender intim münasibətlərin dinamikasını dəyişmir. |
| Əlilliyi olan qadınlar yüksək riskli zorakılığa məruz qalırlar | Doğru. Əlilliyi olan qadınların təcrid olunma ehtimalı daha yüksəkdir və maliyyə təhlükəsizliyi, əsas qayğıların göstərilməsi, ünsiyyət və qorunma üçün zorakılıq edən şəxslərdən asılıdırlar. Baxıcılar, qadının adından qərarlar qəbul etmək üçün nəzarətə və səlahiyyətə sahibdirlər ki, bu da onu zorakılığa daha həssas edir. |
| Zorakılıq bütün sosial-iqtisadi, mədəni, dini və irqi mənsubiyyətlərdən olan insanlara təsir göstərir. | Doğru. Zorakılıq hər kəsin başına gələ bilər və istənilən sosial mənsubiyyət mühitində özünü göstərə bilər. 18-24 yaş arası qadınlar da daxil olmaqla, qadınların müəyyən qruplarında zorakılıq riski artır; 65 yaşında və ya daha yuxarı yaşlı qadınlar; əlilliyi olan və ya kar qadınlar; aborigen qadınlar; uşaqlıqda zorakılığa məruz qalan və ya anasına qarşı zorakılığa şahidlik edən qadınlar; və hamilə qadınlar. |
| İnsanlar təhlükəsizlik səbəbi ilə zorakılıq münasibətlərində qalırlar və ya ona geri qayıdırlar. | Yanlış. Bir insanın təhqiramiz münasibətlərdə qalma qərarına qorxu, günahkarlıq, utanc hissi, maddi təzyiq və ya partnyoruna davamlı sevgi hissinin olması kimi bir çox amillər təsir edir. Bəzi hallarda, insanlar təhlükəsizlik səbəbi ilə zorakılıq münasibətlərində qalırlar və ya geri qayıdırlar. |
| Kişilər də qadınlar qədər öz partnyorları tərəfindən zorakılığa məruz qalırlar. | Yanlış. 2006-cı il iyun tarixi üçün məişət zorakılığı üzrə ölüm hallarının Araşdırılması Komitəsinə görə, hadisələrin yüzdə 93-də qadınlar zorakılığa məruz qalmışlar və əvvəlki dörd il ərzində hadisələrin yüzdə 94-də kişilər qətl cinayətləri törətmişlər. |
| Əgər mübarizə etsəniz, bu zorakılıq deyil. | Mübarizə etmək zorakılıq demək deyil və münasibətləri “qarşılıqlı zorakılıq” xarakterinə gətirmir. Sağ qalan qurbanlar özünümüdafiə, çarəsizlik, qəzəb və zorakılığı dayandırmağa çalışmaq da daxil olmaqla bir çox səbəbdən şiddətdən istifadə etmişlər. |
| Zorakılığa məruz qalan qadınlar, partnyorlarını tərk etdikdən sonra daha çox risk altında qalırlar. | Doğru. Öldürülmədən əvvəl qadınların təxminən dörddə birinin (23%) keçmiş partnyoru tərəfindən öldürülməklə bağlı təhdidlərə məruz qaldığı məlumdur. Zorakılığa məruz qalan qadınlar üçün ən təhlükəli dövrlərdən biri, zorakı partnyorlarını tərk etdiklərindən sonrakı mərhələdir. Tərk edib gedən və geri dönməyə məcbur olan qadınlarda risk artmış olur. |
| Zorakı hücumlar da daxil olmaqla zorakılıq bir qadın hamilə olduqda daha az olur və daha az ciddi olur. | Yanlış. Zorakılığa məruz qalan qadınların yüzdə 40-ı üçün şiddət hamilə olduqda başlanır. Hücumlar tez-tez qarın bölgəsinə yönəldilir və körpənin zədələnməsinə və ya uşaq salmağa səbəb olur. |

| | |
|---|---|
| Övladlarını deyil, partnyorunu döyən və ya psixoloji olaraq zorakılıq edən bir insan hələ də yaxşı bir valideyndir. | Yanlış. Zorakılıq edən bir partnyor maddi ehtiyacları təmin edə bilər, lakin bu, onları yaxşı bir valideyn halına gətirmir. Uşaqlar böyüdükcə və daha müstəqil olduqda, təcavüzkar valideyn onların da davranışlarına nəzarət etmək istəyir. Uşaqlar bəzən yalnız valideynlərin yanında olduqları üçün təcavüzə məruz qalır və xəsarət alırlar. Uşaqlar ər-arvad zorakılığının yüzdə 37-də bir valideynə təcavüz edildiyini eşitmişlər və ya şahidi olmuşlar. |
| Qadınlar zorakı deyillər. | Yanlış. Hər iki cinsin də zorakılıq qabiliyyətinə sahib olduğuna dair kifayət qədər dəlil var. Zorakılıq edənlər və onların partnyorları bütün cinslərdən, irqlərdən, siniflərdən, dinlərdən və regionlardan gəlirlər. |
| Məişət zorakılığına alkoqol və narkotik istifadəsi səbəb olur. | Yanlış. Narkotiklər və alkoqol risk faktorları hesab edilir, lakin zorakılığın səbəbi deyil. Bu inanc, belə bir anlaşılmazlığa gətirib çıxarır ki, təcvüzkar şəxs alkoqoldan sui-istifadəsinə qarşı müalicə aldığı təqdirdə zorakılığı dayandıracaqdır. Alkoqol və narkotiklər tez-tez məişət zorakılığı ilə əlaqəli olsa da, zorakılığa səbəb olmur. Bir çox təvavüzkar narkotik qəbul etmir və içmir və içənlər ümumiyyətlə tanımadığı insanlara, öz həmkarlarına və ya rəhbərlərinə təcavüz göstərmirlər, əksinə zorakılığı öz partnyorlarına yönəldirlər. Təcavüzkarlar, sərxoşluğu öz hərəkətləri üçün məsuliyyət daşımamaq üçün bəhanə və ya arqument kimi istifadə edirlər. Başa düşmək vacibdir ki, məişət zorakılığı və alkoqol / narkotik istifadəsi iki ayrı məsələdir və onların müstəqil şəkildə həll edilməsi lazımdır. |
| Münasibətlərdə zorakılıq hadisələri baş versə də, bunlar bir birindən təcrid olunmuş epizodlardır. | Məişət zorakılığı ümumiyyətlə davam edən fiziki, psixoloji, cinsi və ya iqtisadi zorakılıq sxemini əhatə edir. Bu mif məişət zorakılığını müxtəlif zorakılıq formalarını əhatə edən bir təzyiq və nəzarət modeli əvəzinə tək bir hadisələr olaraq görür. Hər bir zorakılıq epizodu lazımi şəkildə araşdırılmalı və zərurət yarandıqda mühakimə olunmalı və bundan təsirlənən şəxslərə kömək və dəstək təklif edilməlidir. Məişət zorakılığı qorxuducu və alçaldıcı davranış, təhdidlər, hücumlar, nəzarət, zərər çəkmiş şəxsin özünə hörmətini azaltmaq və aşağı salmaqdan ibarət olan bir zorakılıq dövriyyəsi ilə xarakterizə olunur. Məişət zorakılığı, hərəkətlərin tezliyi və şiddətinin artması ilə xarakterizə olunur ki, bu da əgər effektiv şəkildə dayandırılmasa, qurbanı daha yüksək risk altına alır. Təcavüzkarın dayanma ehtimalı çox azdır, çünki o, öz hərəkətlərinin səhv olduğuna inanmır və ya inanmaq istəmir. |
| Qadınlara kömək etməyin bir mənası yoxdur, çünki onlar zorakılıq edən şəxsə qayıdırlar. | Yanlış. Zorakılıq edən şəxsə qayıdanlar da daxil olmaqla bütün qurbanlar qorunma, dəstək və ədalət tələb edirlər. Bu anlaşılmazlıq qurbanı günahlandırmağa səbəb olur. Şiddətə məruz qalan qadınlar mazoxist deyillər. Əgər onlar öz təcavüzkarlarının yanına qayıdırlarsa, bunun səbəbi onlara kifayət qədər kömək edilməməsi və hər hansı bir tədbirlər görməyin və qərar qəbul etməyin səssizcə əziyyət çəkməyə davam etməkdən daha çətin olmasını bilmələridir. Geri qayıtmaq, təcavüzkarın həqiqətən dəyişdiyini göstərən bir dəlil kimi yozulmamalıdır; belə bir hal çox nadir halda baş verir. Bunun əvəzinə prokurorlar və hakimlər qurbanı qorumaqda nəyin səhv edildiyini sorğu-sual etməlidirlər. |

| | |
|---|---|
| Bu, həqiqətən ciddi olsaydı, o (qadın) dəlil göstərmək üçün məhkəməyə gələrdi. | Bir çox səbəblər onun məhkəməyə gəlməsinə mane ola bilər. Bir qadın şikayət və ya cinayət mühakimə sistemindəki iştirakını bir neçə səbəbdən geri götürə bilər. Təcavüzkara qarşı cinayət təqibinə dəstəkdən imtina etmək, çoxsaylı çətin seçimlər kontekstində ən təhlükəsiz qısa müddətli seçim kimi görünə bilər. Bunu özünü və uşaqlarını təhlükəsiz saxlamağın yeganə yolu kimi qəbul edə bilər. Qurban məişət zorakılığı dövriyyəsinin bal ayı mərhələsində ola bilər. Zorakılıq dövriyyəsinin hərtərəfli başa düşülməsi qurbanlarla işləyən prokurorlara kömək edir. |

Məişət zorakılığı hadisələri ilə işləyən mütəxəssislər mərhəmət (şəfqət) yorğunluğuna daha çox meylli olurlar. Şəfqət yorğunluğu, başqalarına empatiya (özünü onun yerinə qoyma) və ya şəfqət göstərmə qabiliyyətinin azalmasına səbəb olan emosional və fiziki bir tükənmə olaraq təyin edilə bilər[59]. Son dövrlərdə aparılmış sorğular göstərir ki, məişət zorakılığı hadisələri ilə işləyən hakimlərdə işlə əlaqəli mərhəmət yorğunluğu (şəfqət göstərməkdən yorulma) olaraq təyin olunan bir və ya daha çox simptomlar müşahidə olunur. Bunun səbəbləri qurbanların fiziki və psixoloji cəhətdən hədsiz tükəndikləri dinləmələrdə davamlı olaraq iştirak etmələridir. Bununla birlikdə, bu fenomen haqqında məlumatlı olmaq onu erkən mərhələlərdə idarə olunan hala gətirməyə kömək edə bilər.

Hüquq-mühafizə orqanları (polis, prokurorlar və ya hakimlər) tez-tez məişət zorakılığı qurbanlarını “qeyri-münasib” adlandırırlar - çünki onların cinayətkarın cəzalandırılmasını istəyib-istəmədiklərindən əmin deyillər, zorakı münasibətlərə yenidən qayıdırlar, iddialarını geri götürə bilirlər və ya hüquq-məhkəmə prosesinə “müdaxilə etmək” istəyirlər. Bu kimi hallarla işləyərkən rast gəlinən bəzi çətinliklər bunlardır:

— “Qurbanın ifadəsi çox vaxt uyğunsuzluq təşkil edir”
— “Ən çətin məsələ qurbanların hadisədən dərhal sonra polisə müraciət etməməsidir.”
— “Şahidlərin çatışmazlığı. Və ya şahidlər uşaqlardır “
— “Zorakılıqdan sonra qadınlar həkimlərə müraciət etmirlər”
—

## Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) seçilmiş məhkəmə işlərinə ümumi baxış

**Ayrı-seçkiliyə yol verilməməsi prinsipi.** “[...] səlahiyyətli orqanların hərəkətləri, birinci müraciət edən şəxsə qarşı zorakılıqla məsələsinə baxmaqda sadəcə ləngimə deyildir, əksinə belə zorakılığa dəfələrlə dözümlülük göstərməyə (göz yummağa) bərabərdir və bir qadın olaraq ilk müraciət edən şəxsə qarşı ayrı-seçkilik münasibətini əks etdirir. Birləşmiş Millətlər Təşkilatının qadınlara qarşı zorakılıq, onun səbəbləri və nəticələri barədə Xüsusi məruzəçisinin aşkarladığı uyğunsuzluqlar (yuxarıdakı 37-ci bəndə bax) yalnız belə bir təəssüratı dəstəkləmiş olur ki, səlahiyyətli qurumlar, Moldovadakı məişət zorakılığı probleminin ciddiliyini və dərəcəsini və onun qadınlara ayrı-seçkilik təsirini tam şəkildə qiymətləndirmirlər.”

**Müsbət tədbirlər.** Avropa İnsan Haqları Məhkəməsi belə bir prinsip irəli sürüb ki, dövlətlər insan haqları pozuntularının qarşısını almaq məqsədilə tədbirlər görməlidirlər. Bu prinsipə əsasən, bu hərəkətlərin dövlət tərəfindən və ya fərdi şəxslər tərəfindən törədilməsindən asılı olmayaraq, dövlət onların istintaqını aparmaq, mühakimə etmək və cəzalandırmaq öhdəliyinə malikdir. Bu anlayış “lazımi səy göstərmə” (due diligence) prinsipinin hazırlanmasına gətirib çıxardı. Məhkəmə həmçinin qərar vermişdir ki, qadınlara qarşı çoxsaylı məişət zorakılığı hadisələrində də, milli səlahiyyətli qurumların belə zorakılığın qarşısını almaq üçün qoruyucu tədbirlər görmək üçün pozitiv öhdəlikləri vardır, belə ki, səlahiyyətli qurumlar bir şəxsin həyatı və ya sağlamlığı üçün “real və birbaşa riskin” mövcud olmasını “bilirdilər və ya bilməli idilər“.

**Məhkəmə vasitələrindən istifadə imkanı.** Məhkəmə vasitələri əlçatan və effektiv olmalıdır. „Airey-İrlandiyaya qarşı“ işi (1979) göstərdi ki, məhkəmə vasitələri məişət zorakılığına məruz qalan bir qurbanın

59 Figley, Charles (Ed) (2002). Şəfqət yorğunluğunun müalicəsi. New York: Brunner-Routledge.

boşanma və ya ayrılıq mühakiməsi yolu ilə zorakı vəziyyətdən xilas olmasına imkan verə bilər ki, bu da həssas vəziyyətdə olan qurbana yalnız nəzəri və ya xəyali qorunma deyil, praktiki müdafiəyə zəmanət vermək üçün əlçatan və effektiv olmalıdır. Məhkəmə imkanlarından belə effektiv yararlanma onu ehtiva edir ki, işin mürəkkəbliyi, zərərçəkmişin məhkəmə prosesi ilə tanış olmaması, eyni zamanda həm də zərərçəkmişin emosional durumu ilə bağlı olaraq öz işini təmsil etmək qabiliyyətinin zəifləməsi nəzərə alınaraq ona hüquqi yardım göstərilməsi tələb oluna bilər.

**Hərtərəfli və effektiv istintaq.** AİHM hərtərəfli və effektiv bir istintaqın aparılmamasını bir pozuntu olaraq müəyyən etmişdir. Belə ki, bu, qurbanın tibbi müayinəsinin zorlanma qurbanları ilə iş təcrübəsi olmayan həkimlər tərəfindən aparılması faktından aydın olmuşdur, və həm də dövlət ittihamçısının apardığı istintaqın məqsədi ərizəçinin zorlanma qurbanı olub olmadığına diqqət yetirilməli olduğu halda, ərizəçinin bakirəliyini itirib-itmədiyini müəyyənləşdirmək olmuşdur.

**Ərizəçinin şəxsi toxunulmazlığına hörmət.** Bütün istintaq və məhkəmə prosesi boyunca ərizəçinin şəxsi toxunulmazlığına hörmət təmin edilməlidir. Qəbul edilməlidir ki, qurban qadınlar, xüsusən cinsi zorakılıq hallarında, cinayət prosesini bir çox hallarda əlavə bir travma kimi qəbul edirlər. Bu, xüsusən zərərçəkmiş qadın özünün istəyinə zidd olaraq təcavüzkarla birbaşa üzləşməyə məcbur qaldıqda belə olur.

| Məişət zorakılığının növü | Davranışlar (həm cinayət, həm də qeyri-cinayət əməllərinin nümunələri) | Cinayət ittihamları / prosedurları |
|---|---|---|
| Fiziki zorakılıqlar | Kobud şəkildə itələmə, tüpürmə, tutma, itələmə, yumruq vurma, təpiklə vurma, silkələmə, boğma, zərbə endirmə, yandırma, silahla hücum etmə və ya fiziki cəhətdən məhdudlaşdırma, həbs etmə və s. | — Hücum<br>— Bilmədən adam öldürmə və ya qətlə yetirmə<br>— Ehtiyatsız şəkildə təhlükəyə atma<br>— Ataş aça-aşa nəqliyyat vasitəsini sürmə<br>— Əlaqə saxlamamı qadağan edən əmr<br>— Həbs qoyma, girov, həbsə atma |
| Cinsi zorakılıqlar | Zorla cinsi əlaqə, cinsiyyət orqanlarına qarşı hücumlar, uşaqların və ya başqalarının qarşısında cinsi əlaqəyə məcbur etmə, zor tətbiq etməklə seks, təzyiq altında cinsi əlaqə, arzu edilməyən cinsi toxunma, sutenyorluq etmə (fahişəliyi təşkil etməklə gəlir əldə etmə) və s. | — Zorlama<br>— Bir uşağın zorlanması<br>— Nalayiq hərəkətlər (seksual xarakterli)<br>— Zorlamaq niyyəti ilə hücum etmə |
| Psixoloji zorakılıqlar | Qurban və ya başqalarına qarşı zorakılıq təhdidləri, intihar təhdidləri və ya hərəkətləri, üçüncü şəxslərə (tərəflərə) yalan məlumatların verilməsi (CPS, INS, işəgötürənlər), uşağı zorla qoparıb aparma, qurbanı qorxutmaq üçün ehtiyatsız şəkildə sürmə, təcrid etmə, dindirmə (sorğu-sual etmə), nəzarət etmə, şifahi ifadələrlə hücumlar, qurbanı alçaltma, göz qoyma (müşahidə etmə), intim şəkilləri yayma və s. | — Məcbur etmə<br>— Telefonla qısnama<br>— Qəyyumluq müdaxiləsi<br>— Cinayət xarakterli zərər vurma<br>— Qısnama<br>— Kiber təqib etmə<br>— Qanunsuz həbs etmə<br>— Təhlükəli şəkildə sürmə<br>— Məhkəmə qərarlarının pozulması<br>— İntim şəkillərin məqsədyönlü şəkildə paylanması |

| | | |
|---|---|---|
| Əmlaka / Ev heyvanlarına qarşı hücumlar | Qurbanı idarə etmək üçün əmlaka qarşı hücumlar, divarlara zərbə endirmə, əşyaları məhv etmə, əmlakı kiməsə vermək (bölüşdürmək), əmlaka od vurma, ev heyvanlarına əziyyət vermək / zorakılıq etmək və s. | — Heyvanlara qəddarlıq etmə<br>— Pis niyyətlə fəsad törətmə<br>— Oğurluq<br>— Cinayət xarakterli yandırma və ya ehtiyatsızlıqdan yandırma<br>— Sındırıb daxil olmaqla oğurluq |
| Qurbana Nəzarət etmək üçün Uşaqlardan İstifadə etmə | Qurbana hücum zamanı uşağa xəsarət yetirmə, uşağa fiziki və ya cinsi təcavüz, zorakılıqla təhdid etmə, adam qaçırma, girov götürmə, uşağı gizlətmə, zorakılığa uşaqların şahid olması və s. | — Uşağa təcavüz etmə<br>— Adam qaçırma<br>— Qəyyumluq müdaxiləsi<br>— Cinayət xarakterli pis davranma<br>— Zorakılıq etməklə öldürmə |
| İqtisadi Məcbur etmə | Ailə resurslarına nəzarət: pul, nəqliyyat vasitələri, sağlamlıq, telefon, pensiya / investisiya fondları, qurbanların yoxsullaşdırılması üçün uzun məhkəmə çəkişmələri və s. | — Oğurluq<br>— Dələduzluq<br>— Mənimsəmə |

## Məhkəmə icraatı

Prokurorlar və hakimlər qadınların ədalət mühakiməsinə çatmaqda qarşılaşdıqları maneələrin aradan qaldırılması üçün fəal (təşəbbüskar) bir yanaşma göstərməlidirlər. Məsələn, qadınlara qarşı zorakılıq hadisələri ilə məşğul olan prokurorlar, təcavüzkara qarşı yalnız zərər çəkmiş şəxsin ifadəsinə əsaslanmayan güclü bir iddia qaldırmalıdırlar.

Hakimlər davamlı olaraq öz işlərində gender perspektivini tətbiq etməlidirlər, və onlar təşəbbüskar və fəal olmaqla, tabeliklərində olan işçilərin (prokurorluq və ya məhkəmə orqanlarının) genderə həssas yanaşmalar üzrə təlim keçməsini və ya gender üzrə məlumatlı olan siyasətləri və təlimatları hazırlamaq üçün islahatlar prosesində onların iştirakını təmin edə bilərlər.

### YAXŞI TƏCRÜBƏ:

Avropa İttifaqında qurbanların hüquqlarının gücləndirilməsi və cinayət prosesində qurbanlara dəstəyin və onların qorunmasının yaxşılaşdırılması üçün səylər göstərilmişdir. Cinayət qurbanlarının hüquqları, dəstək göstərilməsi və qorunması ilə bağlı minimum standartları müəyyənləşdirən Aİ Direktivi 2012/29 / AI (2012), hər Aİ ölkəsində cinayət prosesində onların rəsmi rolları ilə birlikdə qurbanlara verilən bir neçə hüquqları özündə cəmləşdirir. Aİ Direktivi, digərləri ilə birlikdə, zorakılıq qurbanı olan qadınlara aid olan aşağıdakı hüquqları da əhatə edir: dinlənilmək və sübutları təmin etmək; təqib etməmək qərarını yenidən nəzərdən keçirmək (xüsusilə prokurorların ittihamları geri götürmək və ya icraata xitam vermək qərarları); iş üzrə irəliləyiş barədə məlumat almaq (yekun qərar, müvəqqəti həbsdə saxlanılma məsələləri və azadlığa buraxılma və ya həbsdən qaçma haqqında məlumatlar məişət zorakılığı hadisələrində xüsusilə vacibdir). Direktivin həyata keçirilməsinə dair təlimatlar prokurorların və hakimlərin qurbanlara onların hüquqları barədə məlumat vermək məcburiyyətində olduqlarını açıq şəkildə göstərir. Aİ üzvü olmayan ölkələrdə, milli qanunlar cinayət qurbanlarına hüquqlar verir və bu səbəbdən ədliyyə mütəxəssisləri bu hüquqların qorunmasını təmin etməlidirlər.

Qadınların ədalət mühitinə çıxışını yaxşılaşdırmaq üçün, “müəyyən bir işdə marağı olan qrupların və vətəndaş cəmiyyəti təşkilatlarının vəsatət verməsi və məhkəmə prosesində iştirak etməsinə icazə vermək üçün” hüquqi status qaydalarının genişləndirilməsi tövsiyə olunur. Bir sıra ölkələr, qadınlara dəstək təşkilatlarına qeyri- qanuni nümayəndələr olaraq məişət zorakılığı və cinsi zorakılığına dair

məhkəmə prosesində iştirak etməyə icazə verir.[60] Səciyyəvi olaraq, belə QHT-lər, öz vəkilləri olmayan zorakılıqdan xilas olan şəxslərin adətən qeyri-rəsmi müdafiəçisi kimi çıxış edirlər. QHT vəkilləri hüquqi prosesləri izah edir, müştəri adından cinayət mühakimə sisteminin müxtəlif qurumları ilə əlaqə qurur və zorakılıqdan xilas olan şəxsi məhkəməyə qədər və məhkəmədə müşayiət edir. Bu hallarda QHT-lərin rəsmi statusu olmasa da, lakin hüquq sistemi ilə zərərçəkmiş arasında körpü rolunu oynaya bilər.

Az sayda ölkələr vətəndaş cəmiyyəti təşkilatlarına məhkəmə prosesi başlatmasına icazə versə də, kollektiv müdaxilə, ictimai mənafe tədbirləri və strateji məhkəmə çəkişmələrini təmin etmək üçün hüquqi status konsepsiyalarının genişləndirilməsi ayrı-seçkilik hallarında ədalət mühitinə çıxışın yaxşılaşdırılmasında mühüm addım kimi qiymətləndirilir. İddia qaldırmaq istəyən və ya müəyyən edilmiş qurban olmadıqda (məsələn, seksist və ya ayrı-seçkiliyə əsaslanan reklam halında) QHT-lərin və bərabərlik uğrunda çalışan təçkilatların ayrı-seçkilik üzrə məhkəmə işləri başlatmasına icazə vermək, davamlı ayrı-seçkilik nümunələrini həll etmək üçün bir vasitədir. Məsələn, iş yerində cinsi qısnamaya məruz qalan qadınlar işlərini itirmək və ya damğalamaqdan narahat olduqları üçün çox vaxt susurlar.

## İlkin prosedur məsələləri və istintaq

**Prokurorların istintaq dövründə unutmamalı olduqları əsas məqamlara aşağıdakılar daxildir:**

Unutmayın ki, qurbanlar, xüsusən də gənc qurbanların və cinsi cinayətlərin qurbanlarının prokurorlar da daxil olmaqla, kişi cinsindən olan hüquq-mühafizə mütəxəssisləri ilə öz yaşadıqları təcrübələri barədə danışması çox çətin və hətta travmatik ola bilər. Genderə həssas yanaşmada bütün prokurorların zərərçəkmişlə görüş zamanı narahatlıq əlamətlərini müəyyən etməyi və hər hansı bir təkrar viktimizasiyanın qarşısını almağı öyrənmələri tələb olunsa da, qurbanın onun işinə təyin olunmuş prokurorun hansı cinsdən olmasına üstünlük verməsini soruşmaq da yaxşı bir təcrübə ola bilər. Bəzi qurbanlar qadın prokurorla danışmağı və ya bir qadın əməkdaşın, ailə üzvü, dost və ya QHT vəkilinin iştirakını üstün tuta bilər və bu səbəbdən qurbanın üstünlük verdiyi cinsdən olan nümayəndənin təmin etmək üçün səy göstərilməlidir.

Qadınlara qarşı şiddət, xüsusilə məişət zorakılığı, cinsi zorakılıq və zorlama hadisələrinin istintaqı zamanı polis və prokurorlar arasında sıx əməkdaşlıq tələb olunur. Prokuror istintaqın və dəlillərin toplanması prosesinin qanuniliyinə nəzarət edir və müstəntiqlərin insan hüquqları standartlarına riayət edib-etmədiklərinə nəzarət edir. Eyni dərəcədə vacib olan məsələ kimi prokuror da “istər polis, istintaqı aparan orqan, istərsə prokurorların özləri tərəfindən olsun, əlçatan bütün sübutların toplanmasını təmin etməlidir.”[61] Bu mərhələdəki hərtərəfli istintaq məhkəmədə tək sübut forması kimi zərərçəkmiş şəxsin / şahidin ifadəsinə olan etibarı azaldır və uğurlu mühakimə olunma ehtimalını artırır.

Polisin apardığı istintaqa nəzarət etmək üçün, prokurorların polislə konstruktiv əlaqədə olmaları və cinayətin tərkib hissələrini sübut etmək və cinsi stereotiplərə etibar etməmək üçün müvafiq istintaq metodlarından necə istifadə etmək qaydalarını onlar üçün təmin etmələri vacibdir. “Prokurorlar, bu çətinliklərin istintaq prosesindəki diqqətsizlik və öhdəliklərin düzgün yerinə yetirilməməsindən qaynaqlandığını gördükləri təqdirdə, işi dayandırmaq üçün sübutlarla bağlı çətinliklərdən istifadə etməməlidirlər.» Bir qadının hüquqları pozulduqda (məsələn, Avropa İnsan Hüquqları Konvensiyasının 3-cü maddəsinə əsasən), pozuntu ilə bağlı effektiv bir istintaqın aparılmaması özü bir hüquq müdafisinə zəmanət verən beynəlxalq hüququn pozuntusudur (məsələn, AİHK-in 13-cü maddəsinə əsasən) və AİHM kimi beynəlxalq məhkəməyə təqdim edilmək məqsədilə dövlətə qarşı iddia üçün əsasları təmin edir.

60 Isatou Jallow Bolqariyaya qarşı, Kommunikasiya No. 32/2011, UN Doc. CEDAW/C/52/D/32/2011 (2012), abzas. 8.6 (CEDAW); “González və başqaları” işi. (‘Pambıq tarlası) Meksikaya qarşı, 16 November 2009-cu il tarixli qərar (İlkin etiraz, əsaslar, kompensasiyalar və xərclər səh. 400-401 (Amerikalararası İnsan Hüquqları Məhkəməsi)

61 Avropa Şurası Katibliyinin Gender Bərabərliyi Bölməsinin dəstəyi ilə bir qrup milli və beynəlxalq ekspertlər tərəfindən qadınların ədalət mühakiməsinə çıxışının təmin edilməsi üzrə hakimlər və prokurorlar üçün təlim kitabçası hazırlanıb, 2017

## YAXŞI TƏCRÜBƏ:

Belçikada, Ədliyyə Naziri və Baş Prokurorlar Şurası tərəfindən cütlüklərdəki zorakılığa dair cinayət siyasəti haqqında hazırlanan ortaq bir təlimat sənədində (sirkulyar), polis və prokurorlara ünvanlanan məişət zorakılığı hallarına dair cinayət siyasəti üçün təlimatlar müəyyən edilir. Təlimatda məişət zorakılığı hallarının müəyyənləşdirilməsi və qeydiyyatı və sübutların toplanması üçün ümumi bir sistem standartlaşdırılmışdır. Təlimat, qurbana yönəlik perspektivi özündə cəmləşdirən çoxsahəli yanaşmanın bir hissəsidir, həmçinin qurbanların öz hüquqları barədə məlumatlandırılması və dəstək xidmətlərinə istiqmətləndirilmə prosedurlarını da əhatə edir.

Prokurorların cinayət işinin baxılıb baxılmaycağı və ittihamın irəli sürülüb sürülməyəcəyi ilə bağlı qərar vermə səlahiyyəti fərqli jurisdiksiyalara görə dəyişir. Hər bir hüquq sistemində prokuror çıxardığı qərarı mövcud olan bütün dəlillərə, məhkum olunma ehtimalı və cinayətin ağırlığı üzrə əsaslandırmalıdır. Gender stereotipləşməsi, prokurorların ittiham qərarlarına və bu səbəbdən sonrakı hökmlərinə qeyri-düzgün şəkildə təsir edə bilər. Gender əsaslı zorakılığın bəzi növlərinin, məsələn, məişət zorakılığı və ya təqib etmənin digər cinayətlərdən daha az əhəmiyyət daşıması, 'ailə məsələləri' olması, və ya daha geniş ictimaiyyət üçün bir risk yaratmadığı kimi mülahizələr veriləcək qərara təsir etməməlidir. Eynilə, prokurorlar ittiham qərarını verərkən kimin "həqiqi qurban" olduğu və ya zorakılıq qurbanının "müvafiq davranışı"-nın nə olduğuna dair stereotipləşmiş anlayışlara əsaslanmamalıdırlar.

## YAXŞI TƏCRÜBƏ:

BMT-nin Qadınlar üzrə Agentliyi, ölkələrə mühakimənin həyata keçirilməsinin lehinə siyasətlər və qadınlara qarşı zorakılıq hadisələri üzrə sağ qalanların / qurbanların iştirak etmədiyi işlərdə mühakimənin həyata keçirilməsi üçün siyasətlər qəbul etmələrini tövsiyə edir. İstanbul Konvensiyası, iştirakçı dövlətlərdən qadınlara qarşı zorakılıq hadisələrinin istintaqının aparılmasının və mühakimə olunmasının ex parte və ya rəsmi vəzifə səlahiyyətinə görə həyata keçirilməsinə icazə vermələrini tələb edir (bu, onların zərərçəkmişin şikayətindən və ya verdiyi məlumatdan asılı olmadıqlarını göstərir) (Maddə 55). Belə siyasətlər, qadınlara qarşı zorakılığın ciddi bir problem olmadığı, qurbanlara etibar edilə bilməyəcəyi və ya dəlil toplamaqda çətinliklər olduğu düşüncəsi olduqda prokurorun mülahizəsi (təqdiri) problemini aradan qaldırmağa kömək edir. Prokurorlardan bir işin niyə bağlandığına dair izahatlar vermələrini tələb edən, daha sonra məhkəmə baxışına məruz qala biləcək siyasətlər də tətbiq oluna bilər. Bu cür siyasətlər təcavüzkara və daha geniş ictimaiyyətə dövlətin qadınlara qarşı zorakılıq hallarına ciddi yanaşdığına və onları "şəxsi məsələlər" kimi qəbul etmədiklərinə dair güclü mesajlar verir. Eyni zamanda, cinayət təqibləri zərərçəkmişin razılığı olmadan başlandıqda, zərərçəkmişin mühafizə orderləri kimi digər qanuni vasitələrdən istifadə etməsi vacibdir.

Məhkəmələrin məişət zorakılığı törədənlərə qarşı mühafizə orderi vermək səlahiyyətinə malik olduğu yurisdiksiyalarda hakim zərərçəkmiş və cinayətkarın da ifadə verdiyi iclasa sədrlik edir. Mühafizə orderi üzrə dinləmələr mütləq olaraq istintaq və cinayət təqibi kontekstində keçirilmir (baxmayaraq ki, hakimlər polisin istintaq hesabatlarına istinad edəcəklər). Bu səbəbdən hakimin bir qurbanla bağlı qoruyucu tədbirlərin tələb olunub olunmaması barədə qərarı yalnız qurbanın və digər ailə üzvlərinin təhlükəsizliyi üçün deyil, həm də işin irəliləməsi və hökm çıxarılması üçün mümkün olan ən yaxşı şəraitin yaradılması baxımından vacibdir. Şəxsi təhlükəsizliyindən qorxmayan və ədalət sisteminin daha çox zorakılıq riskini azaltmağa yönəldiyinə əmin olan qurbanların / sağ qalan şəxslərin sonrakı cinayət mühakiməsi zamanı şahid qismində əməkdaşlıq etmək ehtimalı daha yüksəkdir. Bundan əlavə, mühafizə orderi ilə bağlı dinləmələr dövlətin ailə zorakılığı hallarında lazımi səy göstərdiyini nümayiş etdirmək üçün vacib bir imkandır.

Eynilə, hakimlər, cinayət prosesinin ilkin mərhələlərində qurbanların / şahidlərin hüquqlarını və ləyaqətlərini qorumaq və təkrar viktimizasiyanın qarşısımı almaq üçün addımlar atmaq üçün özlərinin

mülahizə (təqdir) səlahiyyətlərindən istifadə edə bilərlər, məsələn, iş cinsi zorakılıqla əlaqəlidirsə və məxfilik tələb edərsə (ibtidai istintaq mərhələsi, mühafizə orderləri dinləmələri, zaminlik dinləmələri və s.) ictimaiyyəti dinləmələrdən kənarlaşdırmaqla.

Qadınlara qarşı zorakılıq hadisələrində sürətləndirilmiş icraatdan (məsələn, sürətli izləmə və ixtisaslaşmış məhkəmələr) istifadə etmək yaxşı bir təcrübədir. Bir sıra ölkələrdə aşkar edilən yaxşı bir təcrübə, bərabərlik üzrə ixtisaslaşmış və yarı məhkəmə orqanlarına istintaq səlahiyyətinin verilməsidir.

### MƏHKƏMƏ HÜQUQU NÜMUNƏSI:

„Halime Kiliç-Türkiyəyə qarşı" 2016-cı il tarixli iş nəticəsində istintaq zamanı / məhkəməyə qədərki dövrdə baş verən bir neçə uğursuzluğu, AİHK 14-cü maddə ilə birlikdə (ayrı-seçkiliyin qadağan edilməsi) 2-ci maddənin (yaşamaq hüququ) pozulması kimi hallar müəyyən edildi. Bu işdə, məişət zorakılığının qurbanı səlahiyyətli qurumlara dörd şikayət ünvanlamış və ərinə qarşı üç mühafizə orderi almışdır. 2008-ci ildə zərərçəkmiş şəxs birinci şikayəti vermiş və Ailə Məhkəmə tərəfindən verilən mühafizə orderini istəmişdir. Prokuror cinayətkara qarşı ittiham irəli sürmüşdür. Zərərçəkən daha sonra ikinci bir şikayət verdikdə, məhkəmə daha iki mühafizə orderi vermişdir və prokuror müvəqqəti həbs tədbiri istəməklə təcavüzkarı məhkəməyə göndərmişdir və məhkəmə isə bundan imtina etmişdir. Zərərçəkən ərinin ölüm təhdidləri etdiyini iddia edərək prokurordan əlavə kömək istəmişdir. Dördüncü şikayət verildikdən sonra qurban əri tərəfindən öldürülmüşdür. AİHM, müdafiə orderlərinin verilməsi üçün vaxtın uzandığını (bir işdə 19 gün, ikinci işdə 8 həftə), prokurorun cinayətkarı həbsdə saxlamağı əmr etməsində gecikmələrin olduğunu, məhkəmənin qurbanla əlaqəli riskləri düzgün qiymətləndirmədiyi və barəsində həbs qətimkan tədbiri seçilmədiyi, təcavüzkarin heç vaxt mühafizə oderlərinin pozulmasına görə mühakimə olunmadığını və nə polisin, nə də prokurorun qurbana mövcud sığınacaqlar barədə məlumat verməməsini aşkarlamışdır. (Halime Kılıç / Türkiyə (müraciət nömrəsi. 63034/11), 28 iyun 2016-cı il tarixli Qərar.)

## Sübutlarla bağlı məsələlər

Cins və ya gender əsaslı ayrı-seçkilik hallarındakı ümumi dəlil formaları, şahid ifadələri, sənədlər və ya ümumi məlumatlar kimi digər əsaslara görə ayrı-seçkilik hallarında təqdim edilən dəlillərdən fərqlənmir. Bundan əlavə, təcrübəçi hüquq mütəxəssislərinin ayrı-seçkilik iddialarını sübut etmək üçün istifadə edilə biləcək statistik məlumatlar, situasiya sınağı, sorğu anketləri, səs və ya video yazılar, məhkəmə-tibbi ekspert rəyləri və əsas dəlillərdən çıxarılan nəticələr kimi digər sübut növləri ilə də tanış olması vacibdir. Bu tip dəlillər aşağıdakı cədvəldə ümumiləşdirilmişdir[62]:

| Sübutların növü | Bu necə istifadə olunur |
|---|---|
| Vəziyyətin test edilməsi | Məsələn, işdə ayrı-seçkilik təcrübələrini və fərqli münasibətləri aşkar etmək üçün istifadə edilə bilər. Proses, bir insanın (burada, bir kişinin) ayrı-seçkilik edilməsini iddia edən şəxslə eyni vəziyyətə gətirilməsini və iddia edilən ayrı-seçkilik edən şəxsin hərəkətinin qiymətləndirilməsini əhatə edir. Qeyd edək ki, bu növ dəlillər ayrı-seçkilik edən şəxsin hərəkətinin birbaşa olacağı hallarda, məsələn, restoranlara və ya kirayə əmlakına giriş hüququ verilməsi və ya işə qəbul edilməsi hallarında xüsusilə faydalıdır. Məsələn, promosyonlarda (vəzifə səlahiyyətlərinin artırılması) ayrı-seçkilik olduğunu iddia edən hallarda bunu tətbiq etmək daha çətin olardı. |



62 Avropa Şurası Katibliyinin Gender Bərabərliyi Bölməsinin dəstəyi ilə bir qrup milli və beynəlxalq ekspertlər tərəfindən qadınların ədalət mühakiməsinə çıxışının təmin edilməsi üzrə hakimlər və prokurorlar üçün təlim kitabçası hazırlanıb, 2017.

| | |
|---|---|
| Anketlər | Bəzi yurisdiksiyalarda, milli qanunvericlikdə zərərçəkmişlərə ayrı-seçkilik etdiyi iddia edilən şəxslə əlaqə yaratmaq və sorğu anketində öz davranışlarına aydınlıq gətirilməsini istəmək imkanı və ya öhdəliyi verilir. Anket cavabları və ya cavab verilməməsi məhkəmənin nəticələr çıxara biləcəyi dəlillərdir. Qeyd edək ki, bu xüsusi hüquqi prosesi olmayan ölkələrdə zərərçəkənlər (və ya prokurorlar) iddia olunan ayrı-seçkiliyi edən şəxsin cavabını sübut kimi istifadə edə bilərlər. |
| Statistik məlumatlar | Statistik sübutlar, xüsusən əmək fəaliyyəti kontekstində (məsələn, qeyri-bərabər əmək haqqı və ya işə götürülməmək və vəzifədə yüksəldilməmək) cins və genderə görə dolayı ayrı-seçkiliyin və ayrı-seçkilik nümunələrinin müəyyən edilməsində əhəmiyyətli vasitədir. “Statistikadan istifadə, diqqəti fərdi şəxs olan ayrıca bir qurbandan daha geniş təməl strukturlardan irəli gələn bərabərsizliklərə yönəltməyə kömək edir. Bir zərərçəkiş [bu] taleyi yaşayan, lakin ayrıseçkilik edən tərəfə qarşı iddia qaldırmaq istəməyən bir çox digər insanların olduğunu bilərsə, bunun məsələyə faydası vardır.” |
| Səs və ya video yazıları | Səs və ya video yazıların istifadəsi ilə bağlı sübut qaydaları yurisdiksiyaya görə fərqlənir, lakin bəzi ölkələr bu dəlillərin bərabərlik uğrunda çalışan qurumlarda və məhkəmədə istifadə edilməsinə icazə verirlər. |
| Ekspert rəyləri | Konkret təşkilatlarda ayrı-seçkilik hallarının olduğunu müəyyən etməkdə və ya texniki cəhətdən mürəkkəb hallarda ayrı-seçkilik sübutlarını qiymətləndirmək və izah etmək üçün ekspertlərin rəyi xüsusilə faydalı ola bilər (məsələn, bir qadına / qadınlara kişilər tərəfindən icra edilən eyni işə görə daha az maaş verilməsi ilə bağlı iddialarda “bərabər iş”-in nə olduğunu təyin edərkən). |

Qadınlara qarşı zorakılıq halları ilə məşğul olan prokurorların qurbanlara qarşı təkrarlanan zorakılıq riskini minimuma endirən qurbana yönəlik bir yanaşma tətbiq etmələri və qurbanların cinayət işlərində əməkdaşlıqdan imtina etməsi ehtimalını azaltmaq üçün xüsusi addımlar atmaları yaxşı bir təcrübədir. Qurbana yönəlik bir yanaşma qurbanların ifadə vermək istəklərini və bunları effektiv şəkildə etmək qabiliyyətini artıra bilər. Qurban mərkəzli yanaşmanın açarı qurbanlara mümkün olan ən yaxşı dəlilləri təqdim etməyə imkan verən əlverişli bir mühitin yaradılmasıdır. Bu, prokurorlardan qurbanlarla bağlı fərziyyələr irəli sürməməyi və onların yaşadığı təcrübələrini dinləyərkən açıq şəkildə düşünməyi tələb edir. Zorakı hadisələrə dair sübutların təqdim edilməsinin qurbanlara fərqli şəkildə təsir göstərə biləcəyini qəbul etmək vacibdir. Bəziləri prosesi katartik və ya hüquq və imkanları gücləndirən və bərpa olunma prosesinin bir hissəsi hesab edə bilər. Digər qurbanlar təkrar travma ala bilərlər. Prokurorlar bu fərqli nəticələri nəzərə alaraq, hər bir qurbanın fərdi vəziyyətini qiymətləndirmək və cavab tədbirlərini konkret vəziyyətə uyğunlaşdırmaq üçün məsuliyyət daşıyırlar. Prokurorların dəlil toplamaqda və hakimlərin məhkəmə prosesini idarə etməkdə oynadığı rollar xüsusilə vacibdir.

Sübutların toplanması baxımından prokurorlar, qurbanın ifadəsi olmadan bir işi ciddi şəkildə təqib etmək üçün lazım olan biliklər və bacarıqlara sahib olmalıdırlar və bunun üçün işin zərərçəkmişlə əlaqəli olmayan dəlillərdən istifadə edilməklə aparılması tələb olunur. Aşağıdakı yoxlama siyahısı qadınlara qarşı bəzi digər zorakılıq hadisələri ilə də əlaqəli ola biləcək məişət zorakılığı hallarında istifadə edilən ən çox yayılmış qurbanla əlaqəli olmayan / təsdiqləyici dəlillərdən bəzilərini təqdim edir[63].

— Polis işçilərinin hadisə yerindən və ya qurbanla və ya təqsirləndirilən şəxslə digər qarşılıqlı əlaqələrə dair ifadələri.
— Qonşuların və ya digər şahidlərin ifadələri (məsələn, dostlar, uşaqlar, müəllimlər, iş yoldaşları, qadın böhran mərkəzləri və sığınacaq işçiləri və s.).
— Təcili zənglərin qeydləri / polisə istiqamətləndirmə zəngləri.
— CCTV (müşahidə kameraları) qeydləri (belə qeydlər qısnama üzrə təqib etməyə məruz qalma hallarında xüsusilə faydalıdır).

63 Avropa Şurası Katibliyinin Gender Bərabərliyi Bölməsinin dəstəyi ilə bir qrup milli və beynəlxalq ekspertlər tərəfindən qadınların ədalət mühakiməsinə çıxışının təmin edilməsi üzrə hakimlər və prokurorlar üçün təlim kitabçası hazırlanıb, 2017

— Yaralanma və hadisə səhnəsinin fotoşəkilləri (əmlaka vurulmuş ziyanın fotoşəkilləri daxil olmaqla).
— Tibbi tarixçə / hesabatlar (təcili müalicənin tarixçəsi, həmçinin stomatoloq tərəfindən edilən qeydlər kimi zorakılığın tarixçəsini göstərən hesabatlar; mütəxəssislərin müayinələri daxil olmaqla).
— Hadisə barədə məhkəmə-tibbi arayışı.
— Əvvəlki hadisələrin tarixçəsi (məsələn, təcavüzkarın cinayət əməllərinə dair qeydlər; keçmiş xaric edilmə / mühafizə orderləri; inzibati cəzalar). Məişət zorakılığı haqqında təqib olunmamış əvvəlki məlumatlar.
— Təcavüzkarın qurbanla kommunikasiya məlumatları, xüsusən də təhdidlərin sübutu kimi istifadə oluna bilən məlumatlar (qeydlər, məktublar, e-poçtlar, SMS mesajları, Facebook / WhatsApp yazıları və s.). Təcavüzkar haqqında pis xarakterli dəlillər
— Xüsusilə zorakılığın qurban üzərində təsirini, zorlanma qurbanının ümumi davranışlarını və reaksiyalarını, zorakılıq dövriyyəsi və ya döyülmüş qadınlar sindromu kimi anlayışları izah etmək üçün mütəxəssis ifadələri və ya şahidlər.

Bu ümumi bir mifdir ki, "şiddət kifayət qədər ciddidirsə, zərərçəkmiş şəxs məhkəmədə ifadə verəcəkdir". Əslində, zərərçəkmişin ifadə vermək istəyi bir sıra amillərdən, o cümlədən təcavüzkarın onu təhdid edib-etməməsindən, mühakimə prosesində əməkdaşlıq etməməsi üçün təzyiq edilib-edilməməsindən və təcavüzkardan asılı vəziyyətdə olması (xüsusən məişət zorakılığı hallarında) ilə bağlıdır. Şahid məhkəmədə ifadə vermədiyi halda, eləcə də qurbanı hadisə ilə bağlı lazımsız və təkrarlanan sorğu-sualdan qorumaq üçün prokurorların iş sənədlərində sübut kimi istifadə edilə biləcək aydın və hərtərəfli qurban ifadəsinin olmasını təmin etməsi də yaxşı bir təcrübədir. Belə bir hesabat yazılı formada ola bilər, lakin üstünlük video ifadələrindən istifadə edilməyə verilməlidir. Hətta əgər yurisdiksiya müdafiə tərəfinin qarşılıqlı dindirilməsini və ya üzləşmə tələb etsə belə, prokuror tələb edə bilər və / və ya məhkəmə sərəncam verə bilər ki, bu ifadələr başqa bir otaqdan video əlaqə vasitəsilə verilsin.

Məhkəmə hazırlığının digər bir vacib cəhəti, müdafiə tərəfi tərəfindən qərəzli sübutların, xüsusən də şahid üçün zərər verə biləcək, lakin işdə əhəmiyyəti olmayan və ya dəyəri olmayan sübutların təqdim edilməsini (daxil olmasını) əvvəlcədən təxmin etmək və planlaşdırmaqdır (məsələn, keçmiş cinsi davranışı və ya nüfuzu, narkomaniya və s.). Çox vaxt qadınlara qarşı zorakılıq hallarında qadınların şəxsi davranışı, geyimi və şəxsi həyatı ilə bağlı stereotiplərə və fərziyyələrə əsaslanan dəlillər təqdim etmək üçün müdaxiləedici dindirilmədən istifadə olunur.

Gender stereotiplərinə əsaslanan və qarşısı alınmalı olan üç sübutetmə qaydaları aşağıdakı məsələləri əhatə edir [64]:

— **Dərhal şikayət verilməsi tələbi.** Bu dəlil formasının tələb edilməsi, cinsi zorakılığın 'həqiqi' və ya 'ideal' qurbanın zorakılıq barədə tez bir zamanda məlumat verməli olduğuna dair stereotip fərziyyələrə hüquqi əsas verir.
— **Təsdiq tələbi -** yalnız zərərçəkmişlərin ifadələrinə əsaslanan məhkumluğu qadağan edir və qanuni tələb qoyur ki, zərərçəkmişin ifadəsi digər sübutlarla - istər fiziki, istər məhkəmə-tibbi, istərsə də digər şahidlərin ifadələri ilə təsdiqlənməlidir.
— **Etibarlılıq problemləri.** Qurbanın əvvəlki cinsi davranışına əsaslanan etibarlılıq problemləri, qadınların iffətli, əxlaqi və ya hörmətli göründüyü təqdirdə onlara daha çox inanılacağı stereotipini əks etdirir.

## Hüquq müdafiəsi vasitələri

Hakimlərin (habelə xüsusi müdafiə vasitələri tövsiyə edə bilən prokurorların) xüsusi müdafiə vasitəsinin "konkret halda baş verən ayrı-seçkiliyin və marginallaşmanın aradan qaldırılmasına kömək edib-etməyəcəyini müəyyən edərkən aşağıdakı qısa mülahizələr siyahısından istifadə etmələri faydalı ola bilər[65].

64 Meksika Qurbanlarının Ümumi Qanunu. See Suprema Corta de Justicia de la Nación. Gender perspektivi ilə məhkəmə qərarlarının qəbulu: Protokol, səh. 131, yoxlama siyahısı bu mənbəyə istunadən hazırlanıb
65 Avropa Şurası Katibliyinin Gender Bərabərliyi Bölməsinin dəstəyi ilə bir qrup milli və beynəlxalq ekspertlər tərəfindən qadınların ədalət mühakiməsinə çıxışının təmin edilməsi üzrə hakimlər və prokurorlar üçün təlim kitabçası hazırlanıb, 2017

- Tərəf cinsi mənsubiyyət / genderə görə qeyri-mütənasib zərər görmüşdürmü?
- Hansı növ müdafiə vasitələri bu tip diferensial təsir üçün ən yaxşı bərpa vasitəsi ola bilər?
- Zərərin növü nəzərə alınmaqla qurbanın toxunulmazlığını bərpa etməyin ən uyğun yolu hansı ola bilər?
- Uyğun bir vasitə seçərkən qurbanın istəkləri nəzərə alınmışdırmı?
- Müdafiə vasitəsi qurbanın məruz qaldığı və müəyyən edilmiş bütün müxtəlif növ zərərlərin əvəzini təmin edəcəkmi? (Məsələn, gender əsaslı zorakılığın qurbanlarının fiziki, cinsi və ya digər zərər formalarına əlavə olaraq çəkə biləcəyi psixoloji zərər və ya işlə bağlı ayrı-seçkilik halında gəliri itirdiyini nəzərdə saxlamaq).

Ancaq nəzərə alınmalıdır ki, məişət zorakılığı hallarında təcavüzkara qarşı pul sanksiyaları əksər hallarda təsirsizdir və maddi cəhətdən ərindən və ya partnyorundan asılı olduğu təqdirdə qadına mənfi təsir göstərə bilər.

Yalnız mühafizə orderlərindən istifadə məişət zorakılığı üçün adekvat həll yolu deyildir və ümumikdə ayrılma/boşanma və ya cinayət prosesləri ilə yanaşı istifadə olunurlar. Zorakılığa yol verən şəxslər üçün proqramların yaradılması (məsələn, məişət zorakılığı törədənlər və ya cinsi cinayətlər üçün) yaxşı bir təcrübədir. Bir çox yurisdiksiyada prokurorlar və məhkəmələr təcavüzkarlarla bağlı hökmün bir şərti olaraq belə proqramlarda iştirak etmələrini tələb edə bilərlər. Qeyd edək ki, belə proqramlar cəza kəsilməsi və ya digər qanuni sanksiyalara alternativ olaraq təyin edilməməlidir. Bu cür proqramlar, gələcəkdə şiddətin qarşısının alınması istiqamətində təcavüzkarları müalicə etmək və zorakı olmayan təcrübələri (praktikaları) necə tətbiq etmələrini öyrətmək məqsədi daşıyır.

## Hökmün cıxarılması və hökmlərin icra edilməsi

Aşağıdakı məsələlər prokurorların və hakimlərin cinayət üzrə cəza kəsilməsi kontekstində düşünə biləcəyi bəzi məqamları əhatə edir[66]:

- Cəzanın artırılmasını əsaslandıran ağırlaşdırıcı hallar varmı? (Bunlara təcavüzkarın qurbanla əlaqəsi daxil ola bilər; cinayətin təkrar olunub-olmaması/təcavüzkarın əvvəllər məhkumluğunun olub-olmaması);
- Zorakılıq törədilən zaman uşaqların orada olub-olmaması; şiddətin ifrat xarakteri və/və ya silahdan istifadə edilib-edilməməsi.
- Proses zamanı aparılan hər hansı bir risk qiymətləndirməsi təcavüzkarın yenidən cinayət törətmə ehtimalının olduğunu göstərirmi?
- Təcavüzkar "ilk dəfə" zorakılıq törədən təcavüzkardırmı? Hüquq mütəxəssisləri, məhkəməyə ilk dəfə çıxan bir çox təcavüzkarın keçmişdə zorakılıq tətbiq etdiyini, lakin heç vaxt ittiham olunmadığını bilməlidirlər. Şərti cəza və ya şərti olaraq azadlığa buraxılma ilə bağlı qərarlar verilərkən, təcavüzkarın cinayət əməlləri (məsuliyyəti) üzrə tarixçəyə malik olmadığı nəzərə alınmalıdır. Prokurorlar və hakimlər, cinayət törədən şəxsin zorakılıq tarixçəsini müəyyən etmək üçün digər məlumat mənbələrinə müraciət etməlidirlər.
- Cinsi zorakılıq törədən şəxsin xüsusi yurisdiksiyada cəzanın bir hissəsi olaraq cinsi təcavüzkar kimi qeydiyyata alınması tələb oluna bilərmi?
- Hökmün verilməsi prosesində zərərçəkmişə baş vermiş şiddət halının təsiri haqqında məlumat vermək imkanı verilibmi? Məsələn, hakimlər qurbanların məhkəməyə müraciət etməsinə icazə verə bilərlər və ya qurbanlara təcavüzkarın cəzalandırılması, cinayətin onların özünə və digər ailə üzvlərinə, xüsusən də uşaqlara təsiri və onların hər hansı bir narahatlıqları barədə fikirləri ilə bağlı yazılı bir ifadə verməsinə icazə verə bilərlər.

Prokurorlar qurbanı veriləcək hökmlə bağlı dinləmələri üçün hazırlamalı və ona belə variantları təqdim etməlidir. Hakimlərin zərərçəkmişin fikirlərinə əməl etmələri tələb olunmur, lakin onun ifadələri təcavüzkarın vurduğu ziyanı məhkəməyə xatırlatmaq üçün faydalı ola bilər.

66 https://www.courtinnovation.org/sites/default/files/documents/DVFactSheet_November2016_IntegratingPJinDVCases.pdf

Hakimlər, xüsusən də sərbəst buraxılma şərtləri ilə bağlı qərar verərkən, təcavüzkarın təhlükəliliyi ilə bağlı mütəxəssislərin hesabatlarına əsaslanırlar. Bir cinayətkar, məsələn, həbsxanadan zərərçəkmişi zərər verməklə bağlı hədələməyə davam edərsə, bu həyati əhəmiyyətli məlumat həbs cəzasının yenidən nəzərdən keçirilməsində nəzərə alınmalıdır.

## MƏHKƏMƏ PRAKTIKASI NÜMUNƏSI:

„A. Xorvatiyaya qarşı" məişət zorakılığı ilə bağlı məhkəmə işində AİHM, AİHK-nın pozulduğunu aşkar etmişdir. A əri tərəfindən məişət zorakılığına məruz qaldıqdan sonra bir sıra məhkəmə işlərinə başlamışdır (üç cinayət işi və dörd kiçik cinayətə görə). Belə işlərin nəticəsi bir neçə mühafizə orderinin verilməsi, məhkəməyə qədərki həbs (müvəqqəti həbs), psixiatrik və psixo-sosial müalicə və həbs cəzası olmuşdur. Sanksiyaların bir qismi tətbiq olunsa da, təcavüzkar iki cinayətə görə həbs cəzası çəkməmişdir (bunlardan biri ərizəçini ölümlə təhdid etmək olmuşdur). AİHM qeyd etmişdir ki, dövlət, eyni şəxs tərəfindən eyni qurbana qarşı törədilmiş bir sıra zorakılıq hərəkətləri ilə əlaqədar müxtəlif cinayət və kiçik cinayət işlərini nəzərə almamaqla, ərizəçinin hüquqlarını lazımi səviyyədə qoruya bilməmişdir və işin tarixçəsinə bütünlüklə baxa bilməmişdir. Bu məhkəmə işi hüquq sistemi daxilində koordinasiyanın vacibliyini və müvafiq sanksiya təyin edərkən bütün zorakılıq tarixçəsini və cinayət tarixçəsini lazımi şəkildə nəzərə almağın vacibliyini göstərir. Məhkəmə hökmlərinin icra edilməsinin və cəzaların çəkilməsinin təmin edilməsində məhkəmə nəzarətinin roluna da diqqət çəkilir.

İnjunktiv Təhlükəsizlik Məsələləri üzrə Viskonsin Ştatının İstinad Qaydalarında İnjunktiv Dinləmələrdə Təhlükəsizliyi Artırmaq Üçün Addımlar

| | |
|---|---|
| Əvvəl... | — Ərizəçi üçün cavabdehlərin daxil ola bilmədiyi xüsusi bir giriş qapısı nəzərdə tutmaq; - Silah nəzarəti də daxil olmaqla bütün tərəflər üçün təhlükəsizlik yoxlama məntəqələri təmin etmək;<br>— Ərizəçini məhkəmə zalına və oradan müşayiət etməyi düşünmək. Əgər bütün hallarda bu mümkün deyilsə, ərizəçi və / və ya vəkil tərəfindən müəyyən edilmiş ən yüksək təhlükə hallarını təmin etmək; Ərizəçi ilə cavabdeh arasındakı bütün əlaqələri kəsmək üçün məhkəmə iclasından əvvəl məhkəmənin təhlükəsizliyini təmin etmək. Bütün tərəflərə əlaqə yaratmanın qanun pozuntusu olduğunu xatırlatmaq;<br>— Tərəfləri hər dinləmədən əvvəl ayrı -ayrı yerlərdə ayrıca saxlamaq;<br>— Davranış gözləntiləri və müvəqqəti məhdudlaşdırma əmrinin pozulmasına görə nə vaxt həbs ediləbiləcəyi barədə mühafizə xidmətini xəbərdar etmək və bütün tərəflərin xəbərdar olmasını təmin etmək;<br>— Ərizəçiyə dəstək üçün kiminsə onu müşayiət etməsinə icazə vermək; və<br>— Müvəqqəti məhdudlaşdırma əmrinin verilməsi zamanı ərizəçiyə və/vəkilə hansı təhlükəsizlik tədbirlərinin mümkün ola biləcəyi və bunları onların mənsub olduqları inzibati dairədə necə əldə ediləcəyi barədə məlumat vermək. |

| | |
|---|---|
| Ərzində ... | — Ərizəçi ilə cavabdehin məhkəmə zalında ayrı qalması üçün oturacaqlar hazırlamaq. Məsələn, dinləmə zamanı tərəflər arasında məhkəmə təhlükəsizliyinin təmin edilməsi;<br>— Ərizəçini və cavabdehi oturacaqlarda elə əyləşdirmək lazımdır ki, ərizəçinin cavabdeh tərəfindən gözlə izlənilməsini və ya qorxudulmasını minimuma endirmək üçün ərizəçi ilə göz təması qura bilməsin;<br>— Məhkəmə zalında davranışa nəzarət etmək. Araşdırma ilə əlaqəli olmayan suallar vermək, ifadə verərkən ərizəçiyə müdaxilə etmək, ərizəçini dinləməyə aid olmayan davranışlarda ittiham etmək, ərizəçidən cavabdehin və ya uşaqlarının yanına qayıtmasını xahiş etmək, ərizəçinin cavabdehi hələ də sevdiyini soruşmaq və ya ərizəçinin şəxsi məlumatlarını açmaq kimi taktikaları dayandırın;<br>— Cavabdehin ərizəçinin ünvanını istəməsinə və ya ərizəçinin ona məlumat verməsinə icazə verməyin;<br>— Ərizəçiyə ifadə verərkən hakimə və ya məhkəmə komissarına baxmağı öyrədin; və<br>— Bu pozuntuların məhkəmə daxilində və ya məhkəmə zalından kənarda olub-olmamasından asılı olmayaraq, müvəqqəti məhdudlaşdırma (qadağan etmə) əmrinin və ya sərəncamının pozulmasına görə qanuni cəzaların olduğu barədə tərəfləri məlumatlandırın. |
| Sonra ... | — Zalı tərk edərkən vaxt növbəsi ilə getmələrini təşkil edin, əvvəlcə qurban getsin. Yüksək riskli hallarda qurbanı avtomobilə müşayiət edin;<br>— Cavavdehdən, ailəsindən və dostlarından dinləmədən sonra ən azı 15 dəqiqə gözləmələrini xahiş edin; və<br>— Cavabdehi gözləyərkən onu izləyin; cavabdehə nə vaxt məhkəməni tərk edə biləcəyi barədə məlumat verin. |

# Məişət zorakılığı halları ilə işin psixoloji aspektləri

**Məişət zorakılığının risk faktorları: tipik qurbanın və cinayətkarın psixoloji xüsusiyyətləri**

Psixoloji araşdırmalar sübut edir ki, təcavüzkarlar aşağıdakı psixoloji xüsusiyyətlərlə xarakterizə edilə bilər:

— Alkoqol və/və ya narkomaniya (adətən risk faktoru kimi, amma səbəb kimi deyil) *(Kyriacou et al., 1998; Oyunbileg et al., 2009)*
— Son dərəcə sahiblənmə hissi və əsassız qısqanclıq *(Bartol və Bartol, 2017)*
— İrrasional və çılğın *(Bartol və Bartol, 2017)*
— Asanlıqla məyus olan, təcavüzkar *(Barnavi, 2015)*
— Aşağı səviyyəli ünsiyyət bacarıqları (problemləri həll etmək əvəzinə zorakılıq etmə) *(Bartol & Bartol, 2017)*
— Ənənəvi gender rollarına və gender stereotiplərinə inanması *(Serrano-Montilla və digərləri, 2020)*
— Valideynləri arasında məişət zorakılığına şahidlik etmişdir *(Castro və digərləri, 2017, Clare və digərləri, 2020)*
— Uşaqlıq dövründə fiziki cəzalanma təcrübəsi yaşamışdır *(Castro et al., 2017)*
— Psixi pozğunluqlar *(Rasoulian et al., 2014)*
— İntihar düşüncələri *(Maties və digərləri, 2020)*

Bəzi mütəxəssislər küçədə baş verən zorakılığın ümumiyyətlə rasional və təsirli olduğunu, ailə zorakılığının isə əsasən qeyri-rasional (məntiqsiz) olması fikrini irəli sürürlər. Bundan əlavə, məişət zorakılığı, ümumiyyətlə, təcavüzkarların ünsiyyət bacarıqlarının zəif olması ilə əlaqədardır. Danışıqlar və ya ümumi ünsiyyət bacarıqları ilə niyyətlərinə nail ola bilməyən ərlər, niyyətlərinə çatmaq üçün fiziki təcavüzə - itələmək, sillə vurmaq və döymək kimi üsullara daha çox müraciət edirlər. Bu, xüsusilə arvadların ərlərindən daha yaxşı nitq qabiliyyətinə malik olduğu, daha savadlı və ya daha yaxşı iş yerlərinə sahib olduğu hallarda baş verir.

Təcavüzkarların demoqrafik xüsusiyyətləri:

- **Aşağı təhsil səviyyəsi** *(Rasoulian et al., 2014; Castro et al., 2017)*
- Aşağı gəlirlilik *(Barnavi, 2015)*
- Sosial-iqtisadi vəziyyətin aşağı səviyyəsi *(Moreira & Pinto da Costa, 2020)*
- Əmək fəaliyyəti (Məşğulluq) *(Castro və digərləri, 2017)*
- Hərbi peşəsi *(Barnavi, 2015)*
- Xroniki xəstəliklər *(Barnavi, 2015)*
- Siqaret çəkmə *(Barnavi, 2015)*

Bəzi tədqiqatçılar (məsələn, Stonienė et al., 2012) düşünürlər ki, aşağı sosial-iqtisadi vəziyyətin özü deyil, məhz aşağı təhsil, aşağı gəlir və bunların səbəb olduğu aşağı sosial-iqtisadi statusdan yaranan utanc hissi kişilərin özünü dəyərləndirməsinin aşağı olmasının əsas səbəbidir. Onlar aşağı mənlik şüurunu gizlətməyə və onu kompensasiya etməyə çalışaraq məişət zorakılığından istifadə etməyə başlayırlar. Bu vəziyyətdə məişət zorakılığının əsas məqsədi kişilərin kişilik mövqeyini bərpa etməkdir (Stonienė və digərləri, 2012).

Bəzi təcavüzkarlarda psixi pozğunluqlara da rast gəlinir. Ən ümumi olanlar bunlardır:

— Depressiya
— TSSB (posttravmatik stress pozğunluğu)
— Antisosial şəxsiyyət pozğunluğu
— Sərhəd tip şəxsiyyət pozğunluğu

Birinci iki psixi pozğunluq (depressiya və TSSB), bəzi hallarda zorakılığa səbəb ola biləcək aşağı özünə hörmətlə sıx əlaqədardır. Belə ki, sonuncu ikisi isə (antisosial və sərhəd tip şəxsiyyət pozğunluqları) daha çox impulsivlik və qəzəbin idarə edilməsindəki çətinliklər ilə əlaqədardır. Daha əvvəl qeyd edildiyi kimi, bu xüsusiyyətlər (impulsivlik, qəzəbi idarə edəbilməmə və aşağı özünə hörmət) hər ikisi də məişət zorakılığına səbəb ola bilər.

Psixoloji araşdırmalar qurbanların aşağıdakı psixoloji xüsusiyyətlərlə təsvir edilə biləcəyini sübut edir:

— Mazoxist – bilərəkdən və bilməyərəkdən zorakılığa təhrik etmə *(Bartol və Bartol, 2017)*
— Aşağı özünə hörmət *(Bartol və Bartol, 2017)*
— Passiv, asılı, itaətkar
— Utancaq, narahat *(Bartol və Bartol, 2017)*
—

Digər tərəfdən, psixoloji sənədlərdə qurbanlara məxsus xüsusiyyətlərinin fərqli qrupuna rast gəlmək olar. Bu qurbanlar münasibətlərdə daha çox gücə sahibdirlər *(Barnavi, 2015).* Bu o deməkdir ki, onlar öz partnyorlarından daha yaxşı nitq qabiliyyətinə və sosial bacarıqlara, eləcə də daha yaxşı işə və daha yüksək sosial statusa malikdirlər. Bundan əlavə, münaqişələrdə müxtəlif geri çəkilmə üsullarından istifadə etməyə meyllidirlər (susqunluq (ünsiyyət qurmaqdan imtina), passiv hərəkətsizlik).

Qurbanın demoqrafik xüsusiyyətləri:

— Yaş baxımından geniş spektrin əhatə olunması. Bəzi ölkələrdə qurbanın yaşı ilə məişət zorakılığı arasında heç bir əlaqə tapılmasa da (Berrios və digərləri, 1991), digər ölkələrdə gənc qadınların məişət zorakılığı ilə qarşılaşma ehtimalı daha yüksək olmuşdur. Türkiyədə bütün ölkəni əhatə edən geniş bir araşdırma, fiziki və cinsi şiddətin yaşla mütənasib şəkildə (45-59 yaş qrupu, 47.9%) artdığını göstərir, ancaq son 12 ay nəzərə alındıqda gənc qadınların (15-24 yaş) 21.0%) digər yaş qruplarından daha çox şiddətə məruz qaldığını göstərir (Sen & Bolsoy, 2017).
— Etnik azlıq *(Matias et al., 2020).*
— Hamiləlik (xüsusilə arzuolunmaz). Qadınların hamiləliyi dövründə kişilərin daha çox qoruyucu və diqqətli olduqlarını fərz etsək də, araşdırma məlumatları bunun əksini göstərir. Hamiləlik dövründə məişət zorakılığı yüzdə 250 %-ə qədər artır. Bir neçə amil vacib ola bilər. Əgər partnyorlar aşağı sosial -iqtisadi statusa aiddirsə, ailənin yeni üzvünün gəlməsi maliyyə ilə bağlı əlavə gərginlik yarada bilər. Bundan əlavə, özünü dəyərləndirməsi aşağı olan kişilər, qarşıdan gələn atalıq rolu ilə bağlı güclü həyəcan (narahatlıq) keçirə bilər və bunu məişət zorakılığı şəklində ifadə edə bilərlər *(Berrios və digərləri, 1991; Bacchus və digərləri, 2006; James və digərləri, 2013).*
— Aşağı təhsil səviyyəsi *(Bohn et al., 2006; Rasoulian et al., 2014).* Bəzi araşdırmalar zorakılıq qurbanına çevrilməkdə qurbanın təhsilinin aşağı səviyyədə olmasının özü deyil, məhz aşağı gəlir səviyyəsinin daha vacib olduğunu iddia edir *(Bohn və digərləri, 2006).* Bunu iki cür izah etmək olar. Birincisi, özünü təmin edə bilməyəcəyini və müstəqil yaşayacağını düşünməyən qadınlar ümumiyyətlə zorakı münasibətlərdə qalırlar. Baxmayaraq ki, aşağıdakı məlumatlar bunun əksini sübut edir. İkincisi,
— Adətən öz partnyorlarından maliyyə baxımından asılı deyillər (7 %) (Berrios et al., 1991).
— Fiziki və ya ruhi xəstəliklər *(Rasoulian et al., 2014).*
— Ögey övladlara sahib olmaq *(Hüseyn və digərləri, 2020).2020).*

Qısaca olaraq, məişət zorakılığı qurbanları aşağıdakı şəkildə davrana bilərlər:

— Sakit və ya laqeyd və ya ağlını itirmiş
— Həddindən artıq hirsli
— Həyəcanlı
— Qorxmuş
— Gərgin
— Çarəsiz

Depressiya qurbanların məhkəmə zalında necə hərəkət etmələrinə təsir edə bilər. Aşağıdakı cədvəldə qurbanın simptomları və davranışı arasındakı əlaqə təsvir edilmişdir.

| Depressiyanın simptomları | | Simptomlar qurbanda necə ifadə edilə bilər |
|---|---|---|
| Günün çox hissəsi, demək olar ki, hər gün depressiya vəziyyətindədir | → | Kədərli, depressiyaya düşmüş görünür |
| Hər bir şeyə marağın azalması | → | Emosiyasız, passiv görünür |
| Düşüncənin yavaşlaması və fiziki hərəkətin azalması | → | Yavaş-yavaş, səssizcə, ifadə etmədən danışır, vəziyyəti təsvir etmək üçün yalnız bir neçə sözdən istifadə edir |
| Yorğunluq və ya enerji itkisi | → | Həvəssiz görünür, əməkdaşlıq etmək istəmir |
| Dəyərsizlik və ya həddindən artıq və ya yersiz günahkarlıq hissi | → | Təcavüzkarı müdafiə edə bilər, günahı öz üzərinə götürə bilər |
| Düşünmə və ya konsentrasiya qabiliyyətinin azalması və ya qərarsızlıq | → | Bəzi məlumatları xatırlaya bilməmək, aydın olmayan ifadələr |
| Təkrarlanan ölüm düşüncələri, intihar düşüncəsi, intihar cəhdi | → | Çarəsizlik, heç nəyi dəyişə bilməmək (məsələn, daha təhlükəsiz yerə köçmək istəməmək, boşanmamaq) |

TSSB, qurbanların məhkəmə zalında necə hərəkət edə biləcəyini təsir edə bilər. Aşağıdakı cədvəldə qurbanın simptomları və davranışı arasındakı əlaqə təsvir edilmişdir.

| TSSB simptomları | | Simptomlar qurbanda necə ifadə edilə bilər |
|---|---|---|
| Təhrikedici işarələrə (qıcıq, eyham) psixoloji reaktivlik | → | Təcavüzkarla, şahidlərlə və ya zorakılıqla əlaqəli digər insanlarla görüşərkən çox emosionaldır |
| Təhrikedici işarələrdən (qıcıqlardan) yayınmaq | → | Məhkəməyə getməkdən, ifadə verməkdən çəkinmək |
| Güclü psixoloji narahatlıq | → | Bəzi məlumatları xatırlaya bilməmək, aydın olmayan ifadələr |
| Başqalarına cavab vermə qabiliyyətinin azalması | → | Başqaları ilə ünsiyyət qurarkən passiv, yavaş |
| Diqqətlilik səviyyəsində dəyişiklik | → | Diqqətsiz, etibarsız görünə bilər |
| Travmanın yenidən yaşanması (yəni yuxular, xatirələrin geri qayıtması) | → | Güclü, qeyri-adekvat görünən emosiyalar |

**Əhəmiyyətli anlayışlar**

— Əgər qurban bəzi psixotrop dərmanlar qəbul edirsə, bu onun davranış və hisslərini dəyişə bilər
— Qurban rahat və ya şən görünürsə, bu, onun özünü həmişə belə hiss etdiyini ifadə etmir - bəzi insanlar emosiyalarını gizlətməyi yaxşı bacarırlar (xüsusən depresiyaya düşən şəxslər)
— Məişət zorakılığı qurbanları əsl vəziyyəti gizlətməyə adət etmişlər və əməkdaşlıq etməkdən çəkinirlər – onların təcrübələri heç kimə etibar edə bilməyəcəklərini söyləyir

## Təkrar viktimizasiya və prosessual ədalət

Araşdırmalar göstərir ki, (məsələn, Laing, 2016, Orth, 2002) məişət zorakılığından qurtulan şəxslər məhkəmə zamanı təkrar viktimizasiyaya məruz qalırlar. Buna səbəb, məsələn, qurbanı təcavüzkarla dəfələrlə üzləşməyə məruz qoymaq, eyni faktlarla bağlı təkrar sorğu-sual etmək, yersiz ifadələr işlətmək və ya hakimlər, prokurorlar və ya qurbanla əlaqədə olan digərləri tərəfindən verilən həssas olmayan şərhlər ola bilər.

Prosessual ədalətin əsas prinsiplərinə aşağıdakılar daxildir: a) səs (cinayət qurbanının eşidilmək imkanı); b) hörmət (cinayət qurbanına hörmətlə yanaşıldığı anlayışları); c) etibar (güvən) / neytrallıq (qərar qəbul etmə prosesinin qərəzsiz / etibarlı olduğu anlayışları); ç) məlumat (məişət zorakılığı qurbanları öz hüquqlarını və prosesini, həmçinin onlardan gözlənilənləri anlamalıdır). Adi insanları mühakimə etmək üçün əsas meyarlar hüquqi deyil, subyektiv düşüncələrdir. Bu səbəbdən məişət zorakılığı halları ilə işləyərkən bu prinsiplərin həyata keçirilməsi həlledici əhəmiyyət kəsb edə bilər.

Məişət zorakılığı hadisələrində prosessual ədalət prinsiplərinin inteqrasiya edilməsi çoxsaylı səbəblərə görə xüsusilə vacibdir:

— Travma (Məişət zorakılığı qurbanları yüksək travma yaşayır və onlara qarşı hər hansı hörmətsiz davranış onları özlərindən çıxara bilər);
— Təhlükəsizlik (zərərçəkmişlər məhkəməni bir müdafiə olaraq görürlərsə, daha çox kömək əldə edə və mühafizə orderi tələb edə bilərlər; həm də iddiaçılar prosesin ədalətli olduğunu qəbul edərsə, bu mühafizə orderlərinə riayət edilməsi dərəcəsinin artmasına səbəb ola bilər);
— Özünü təmsil etmə (məişət zorakılığına məruz qalan bir çox qurbanlar özlərini təmsil edirlər, buna görə də onların məlumat əldə etməsi və öz hüquqlarının necə təmin edilməsi ilə bağlı anlayışa malik olması vacibdir);
— Məsuliyyətlilik (məişət zorakılığı hadisələrində məhkəmə işi iştirakçılarını məsuliyyətə cəlb etmək, mühafizə orderlərinə riayət etmək, məhkəmənin nəticələrinə hörmət etmək və onlardan nə gözlənildiyini anlamaq xüsusilə vacibdir).

## Təkrar viktimizasiyanın qarşısını almaq üçün məişət zorakılığı qurbanları ilə ünsiyyətin prinsipləri

— **Ləyaqət (şərəf) və hörmət**

Zərərçəkmişlərlə olan bütün ünsiyyətlər elə qurulmalıdır ki, qurbanların zorakılıqla bağlı yaşadıqları travmaların öhdəsindən gəlib məhkəmə proseslərinə tab gətirmələri təmin edilsin. Bütün ünsiyyətlər zamanı onlarla hörmətlə davranılması və bunun təkrar viktimizasiyaya səbəb olmaması və qurbanın yaşına uyğun olması tövsiyə olunur. Mühakimə etməyən, empatik (özünü onun yerinə qoymaq) və dəstəkləyici bir ünsiyyəti təmin etmək.

— **Validasiya (etibarlılığı təsdiq etmə)**

Zorakılığın baş verdiyini təsdiqləyin. Vacibdir ki, qurban ciddi qəbul edildiyini və onun mümkün olan ən yaxşı tədbirlərə layiq olduğunu başa düşsün. Qurbana hekayəsini öz sözləri ilə izah etmək üçün vaxt verin. Qurban onun səsinin eşidildiyini hiss etməlidir. Bu o deməkdir ki, onun hekayəsini ifadə etmək, dinlənilmək və bu hekayənin dəqiqliklə qeydə alınmaq imkanı var. Zərərçəkənə zorakılıqda günahlandırılmadığını xatırlatmağa ehtiyac ola bilər.

— **Uyğun bir dildən istifadə etmək**

Bütün ünsiyyətlər səbrlə izah edilən sadə dildə aparılmalıdır. Lazım ola bilər ki, onun müsahibələrdə və şahid qismində iştirakının nə üçün məhkəmə işinin vacib elementi olduğu ona izah edilsin. Bir çox zorakılıq qurbanları yaşadıqları zorakılığı sözlə ifadə etməklə onu bir növ geridə qoymuş ola bilərlər.

— **Təşəbbüskarlıq**

Xüsusi detalları soruşmağa çalışmaq. Zərərçəkmiş şəxs məhkəmə zalında özünü rahat göstərə bilər və yaxud da zorakılığa görə məsuliyyəti öz üzərinə götürə bilər. Yersiz müdaxiləedici suallar, utandırıcı və ya açıq şəkildə təkrarlanan suallar verməyin. Qurbanın utanc hisslərini sezməyi bacarmaq. Qadınlara qarşı zorakılıq və məişət zorakılığı qurbanları, digər zorakı cinayətlərin qurbanlarından daha çox sıxılma və utanc hissi keçirirlər. Utanc, xüsusən zəiflədən bir duyğu ola bilər və fərdin özünü dəyərləndirmə (özgüvən) hissini azaldır və gücsüzlük (çarəsizlik) hisslərini artırır. Hakimlər qurbanların daha çox utanmasına imkan verməməlidirlər.

— **Məlumatlar vermək**

Qurbana onun nə kimi hüquqlara və seçimlərə malik olduğunu diqqətlə izah etmək. Dinləmənin və prosesin məqsədini izah etmək. Proses bitdikdən sonra qurban məhkəmədən çıxarkən onun təhlükəsizliyini təmin etmək üçün müşayiətçi istəyib-istəmədiyini soruşmaq.